AZƏRBAYCAN RESPUBLİKASI

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YUBİLEYLƏRİ

Ar 2014/1919

284113

AZƏRBAYCAN RESPUBLİKASI

NAXÇIVAN MUXTAR RESPUBLİKASI – 90

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YUBİLEYLƏRİ

101246

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası
ARXİV

Naxçıvan – 2014

102654

T3(2A-6Nax)7-7,0





*"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxla - malıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa tor- paqlarının qaytarılması üçün ona xid- mət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".*

**Heydər ƏLİYEV,**

*Azərbaycan xalqının ümummilli lideri*

***"Naxçıvan Muxtar Respublikasının yubileyləri" kitabı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 yanvar 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilən Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş Tədbirlər Planına əsasən hazırlanmışdır. Kitabda muxtar respublikanın 75, 80, 85 və 90 illik yubileyləri ilə əlaqədar materiallar toplanmışdır.***

*Naxçıvan Muxtar Respublikasının yubileyləri, Naxçıvan-2014, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 212 səh.*

4700000000
053-2014

© "Əcəmi" 2014.



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI 75

## Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

1999-cu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 75 ili tamam olur. Bu gün Azərbaycan xalqının həyatına əlamətdar tarixi hadisə kimi daxil olmuşdur.

Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Azərbaycan atabəyləri-Eldəgizlər dövlətinin paytaxtı olmuş Naxçıvan şəhəri əsası Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbi ilə bütün Şərqdə məşhurlaşmışdır.

Naxçıvan uzun illər gərgin siyasi mübarizə meydanı olmuşdur. XVI əsrdə Səfəvilər dövlətinin Osmanlı Türkiyəsinə qarşı apardığı uzun sürən müharibələrdə Naxçıvan gah osmanlıların, gah da səfəvilərin əlinə keçmişdir. 1747-ci ildə İranda Nadir şah dövlətinin süqutundan sonra Naxçıvandakı Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi. Beləliklə də, Naxçıvan XVIII əsrin ortalarında Azərbaycan ərazisində yaranmış on səkkiz xanlıqdan biri oldu. XVIII əsrin 80-ci illərinin əvvəllərində Naxçıvan xanı Abbasqulu xan İrəvan xanı Hüseynəli xanla, Qarabağ xanı İbrahimxəlil xanla və Kartli-Kaxeti çarı II İrakli ilə sıx əməkdaşlıq münasibətləri yaratmışdı.

XVIII əsrin sonları-XIX əsrin əvvəllərində Naxçıvan ərazisi Rusiya ilə İran arasında toqquşmalar meydanına çevrildi. Baş vermiş müharibələrdən sonra bağlanmış Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri nəticəsində Azərbaycanın tarixi torpaqları parçalanaraq Rusiya və İran arasında bölüşdürüldü. Naxçıvanın Rusiyaya ilhaq edilməsi ilə Şimali Azərbaycan torpaqlarının Rusiyaya qatılması prosesi başa çatdı və Azərbaycanın şimal torpaqlarına çar Rusiyası sahib oldu. I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqları ləğv edildi.

Rusiyada çarizm devrildikdən sonra imperiyanın bir çox əyalətlərində olduğu kimi, Naxçıvanda da ikihakimiyyətlilik meydana çıxmış, bəzi dövlətlər yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu bölgəyə yiyələnmək üçün cəhdlər etmişlər.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması elan olundu. Rusiya imperiyasının dağılması nəticəsində Qafqazda öz müstəqilliyini əldə etmiş dövlətlər arasında sərhədlərin dəqiqləşdirilməsi prosesi getdi. Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyskinin məşhur məktubunda bildirildi ki, Azərbaycan İrəvan mahalından könüllü surətdə əl çəkir. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın ölkəmizə qarşı torpaq iddialarından əl çəkəcəyini zənn etdi.

Ermənistan bölgədə yaranmış mürəkkəb vəziyyətdən faydalanmaq üçün böyük planlar qururdu. Erməni daşnakları ümid edirdilər ki, Osmanlı imperiyasının Van gölü ətrafındakı torpaqlarında Aralıq dənizindən Qara dənizə qədər uzanan "Böyük Ermənistan"





dövləti yaradacaq və ya ən azı muxtariyyət ala biləcəklər. Ermənistanın 1920-ci ildə Millətlər Liqasına göndərdiyi məktubda açıq-aşkar göstərilirdi ki, müttəfiq dövlətlərin Türkiyəyə qarşı döyüş əməliyyatları zamanı ermənilər və onların yaratdıqları könüllü silahlı dəstələr arxa cəbhədə müttəfiqlərə kömək göstərdiklərinə görə ermənilər məğlub olmuş Osmanlı imperiyasının torpaqlarında müstəqil dövlət yaratmaq haqqını qazanmışlar. Onlar həm Van gölü ətrafında məskunlaşdıqları torpaqlarında, həm də Rus-İran və Rus-Türkiyə müharibələri nəticəsində köçürüldükləri Azərbaycan torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq xülyası ilə yaşayırdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq tarixi boyu erməni silahlı quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdılar. Qafqazda bolşeviklərin hakimiyyətinin bərqərar olduğu ilk günlərdən hələ 1918-ci ildə özünü mart qırğınları zamanı büruzə vermiş bolşevik-daşnak sövdələşməsi geniş vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi.

Ermənistanın həm daşnak hökuməti dövründə, həm də sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanı Azərbaycandan ayıraraq özünə birləşdirmək üçün göstərdiyi səylər Naxçıvan əhalisinin birmənalı, qəti mövqeyi sayəsində uğursuzluğa düçar oldu. Naxçıvan əhalisinin 90 faizdən çoxu 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir.

1922-ci ilin dekabrında I Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz və tərkib hissəsi olduğunu təsdiq etdi. 1923-cü il dekabrın 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan Muxtar diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya Mərkəzi İnqilab Komitəsindən xahiş etdi. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi 1924-cü il yanvarın 8-də bu qərarı təsdiq etdi. Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi.

Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından, onu Ermənistana birləşdirmək niyyətlərindən əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxçıvanın bəzi torpaqlarını qoparıb öz ərazisinə birləşdirməyə nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İnqilab Ko-

mitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi-Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş və indi də o, bu çirkin niyyətlərindən əl çəkmir.

XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəldilər. Naxçıvan çətin sınaqlar qarşısında qaldı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir.

Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Ümumittifaq şəbəkəsinə daxil olan, Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur.

Məhz belə bir ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi. Naxçıvanın 1990-cı ilin yayında seçilmiş Ali Soveti həmin il noyabrın 17-də öz birinci sessiyasında muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Ali Sovetin adının dəyişdirilib Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması və onun Azərbaycan Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi barədə Azərbaycan Respublikasının Ali Soveti qarşısında vəsatət qaldırılması haqqında öz tarixi qərarını qəbul etdi. Gerb və himnin qəbul edilməsi üçün müsabiqə elan olunması da qərara alındı. Bununla yanaşı muxtar respublika ərazisində kommunist partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirak etməkdən imtina etməsi, 1990-cı il 19-20 yanvar hadisələrinə siyasi qiymət verilməsi, 31 dekabr gününün dünya azərbaycanlılarının həmrəylik günü elan olunması kimi siyasi aksiyalar həyata keçirildi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirilmişdir. Ölkədə müstəqil demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm hüquqi baza yaratmış Konstitusiya Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu vermişdir. Onun əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlanmış, Konstitusiya 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul edilmiş və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikasının yaranmasının böyük tarixi-siyasi əhəmiyyətini





və xalqımızın tarixində özünəməxsus yer tutduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi respublikada geniş qeyd edilsin.

2. Yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi üçün aşağıdakı tərkibdə Dövlət Komissiyası yaradılsın:

Dövlət Komissiyasının sədri

Heydər Əliyev - Azərbaycan Respublikasının Prezidenti

Dövlət Komissiyasının üzvləri

Artur Rasizadə - Azərbaycan Respublikasının Baş naziri

Ramiz Mehdiyev - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri

Vasif Talıbov - Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri

Rəfael Allahverdiyev - Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

Yusif Hümbətov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Fatma Abdullazadə - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

Əli Həsənov - Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri

Şəmsəddin Xanbabayev - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sədri

Tofiq Zülfüqarov - Azərbaycan Respublikasının xarici işlər naziri

Südabə Həsənova - Azərbaycan Respublikasının ədliyyə naziri

Misir Mərdanov - Azərbaycan Respublikasının təhsil naziri

Polad Bülbüloğlu - Azərbaycan Respublikasının mədəniyyət naziri

Sirus Təbrizli - Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Əbülfəs Qarayev - Azərbaycan Respublikasının gənclər və idman naziri

Fərəməz Maqsudov - Azərbaycan Elmlər Akademiyasının prezidenti

Nizami Xudiyev - Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri

| | |
|---|---|
| Anar Rzayev | - Azərbaycan Yazıçılar Birliyinin sədri |
| İlham Əliyev | - Azərbaycan Memarlar İttifaqının sədri |
| Ataxan Paşayev | - Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin sədri |
| Oqtay Mirqasımov | - "Azərkinovideo" İstehsalat Birliyinin baş direktoru |
| İsa Həbibbəyli | - Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin rektoru |
| Hüseyn İbrahimov | - Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin sədri |
| Əkrəm Əylisli | - Xalq yazıçısı |
| Turan Cavid | - Hüseyn Cavidin xatirə muzeyinin direktoru |

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 fevral 1999-cu il*





**Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**S Ə R Ə N C A M I**

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının yubiley tədbirlər planının müzakirəsinin nəticələrini nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 fevral 1999-cu il*
*№ 72*

*Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 fevral tarixli 72 saylı Sərəncamı ilə təsdiq olunmuşdur*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ

## TƏDBİRLƏR PLANI

| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **I.NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA KEÇİRİLƏCƏK TƏDBİRLƏR** | | | | | |
| 1 | Naxçıvanda Muxtar Respublikanın 75 illiyinə həsr edilmiş yubiley tədbirlərinin keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | Vasif Talıbov | Fevral-avqust 1999-cu il | |
| 2 | Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransların keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>ElmlərAkademiyası<br>Təhsil Nazirliyi | Vasif Talıbov<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov | Fevral-iyun 1999-cu il | |
| 3 | Respublika yaradıcılıq ittifaqlarının Naxçıvanda yubiley sessiyalarının keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>Yazıçılar Birliyi<br>Rəssamlar İttifaqı<br>Bəstəkarlar İttifaqı<br>Memarlar İttifaqı | Vasif Talıbov<br>Anar Rzayev<br>Fərhad Xəlilov<br>Tofiq Quliyev<br>İlham Əliyev | Mart-may 1999-cu il | |
| 4 | Naxçıvana həsr olunmuş musiqi və rəngkarlıq əsərlərindən ibarət festival və sərgilərin keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>Rəssamlar İttifaqı<br>Bəstəkarlar İttifaqı | Vasif Talıbov<br>Fərhad Xəlilov<br>Tofiq Quliyev | Fevral-avqust 1999-cu il | |
| 5 | Naxçıvan yazıçı və şairlərinin əsərlərinin yubiley nəşrinin təmin edilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>Mətbuat və İnformasiya Nazirliyi<br>Yazıçılar Birliyinin Naxçıvan şöbəsi | Vasif Talıbov<br>Sirus Təbrizli<br>Anar Rzayev<br>Hüseyn İbrahimov | Avqust 1999-cu il | |





| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 6 | Naxçıvan Muxtar Respublikasında dərc edilən qəzet və jurnalların yubileyə həsr olunmuş xüsusi nömrələrinin buraxılması | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti | Vasif Talıbov<br>Şəmsəddin Xanbabayev | Fevral-sentyabr 1999-cu il | |
| 7 | Yubileyə həsr edilmiş hədiyyə və suvenirlərin hazırlanması | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | Avqust 1999-cu il | |
| 8 | "Naxçıvan-75" etiketləri ilə mineral su, şərab, konserv və digər məhsulların istehsal edilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | Fevral-avqust 1999-cu il | |
| 9 | Yubiley münasibəti ilə fəxri adların verilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | Sentyabr 1999-cu il | |
| 10 | Yubiley münasibəti ilə Naxçıvan Muxtar Respublikasının bədii özfəaliyyət kollektivlərinin çıxışlarının və idman yarışlarının təşkil edilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | Mart-may 1999-cu il | |
| 11 | "Naxçıvan statistika güzgüsündə" tarixi-statistik məcmuəsinin hazırlanması və çapı | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi<br>Elmlər Akademiyası<br>Dövlət Statistika Komitəsi | Vasif Talıbov<br>Fərəməz Maqsudov<br>Arif Əliyev | Sentyabr 1999-cu il | |
| 12 | Naxçıvan Muxtar Respublikasında abadlıq işlərinin aparılması | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | Fevral-avqust 1999-cu il | |

| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 13 | Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən bütün rayonlarda, müəssisələrdə, hərbi hissələrdə yubileyə həsr edilmiş təntənəli yığıncaqların keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | Fevral-avqust 1999-cu il | |
| **II. ÜMUMRESPUBLİKA TƏDBİRLƏRİ<br>A. KÜTLƏVİ TƏDBİRLƏR** | | | | | |
| 14 | Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr edilmiş Ümumrespublika təntənəli gecəsinin keçirilməsi | Dövlət Komissiyası<br>Xarici İşlər Nazirliyi | Ramiz Mehdiyev | Sentyabr 1999-cu il | |
| 15 | Respublikanın şəhər və rayonlarında Naxçıvan Muxtar Respublikasının 75 illiyi ilə əlaqədar yubiley tədbirlərinin keçirilməsi | Şəhər və rayon icra hakimiyyətləri<br>Mədəniyyət Nazirliyi<br>Təhsil Nazirliyi<br>Elmlər Akademiyası | Yusif Hümbətov<br>Polad Bülbüloğlu<br>Misir Mərdanov<br>Fərəməz Maqsudov | Fevral-avqust 1999-cu il | Şəhər və rayonlar üçün xüsusi tərtib olunmuş plan üzrə |
| 16 | "Səni tərənnüm edirəm doğma Naxçıvan" Ümumrespublika baxış-müsabiqəsinin keçirilməsi | Mədəniyyət Nazirliyi<br>Bəstəkarlar İttifaqı<br>Yazıçılar Birliyi<br>Dövlət Teleradio Verilişləri Şirkəti | Polad Bülbüloğlu<br>Tofiq Quliyev<br>Anar Rzayev<br>Nizami Xudiyev | İyun 1999-cu il | |
| 17 | Naxçıvana həsr olunmuş stasionar və səyyar sərgilərin hazırlanıb Bakıda və yubiley tədbirləri keçirilən digər yerlərdə nümayiş etdirilməsi | Mədəniyyət Nazirliyi<br>Elmlər Akademiyası<br>Rəssamlar İttifaqı | Polad Bülbüloğlu<br>Fərəməz Maqsudov<br>Fərhad Xəlilov | Fevral-avqust 1999-cu il | |
| 18 | Respublikanın şəhər və rayonlarında yubiley münasibəti ilə idman yarışlarının keçirilməsi | Gənclər və İdman Nazirliyi<br>Şəhər və rayonların icra hakimiyyətləri | Əbülfəs Qarayev<br>Şəhər və rayon icra başçıları | Mart-avqust 1999-cu il | |





| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **B. ELMİ ARAŞDIRMALAR, SİMPOZİUM VƏ KONFRANSLAR** | | | | | |
| 19 | Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr edilmiş beynəlxalq elmi simpoziumun keçirilməsi | Dövlət Komissiyası<br>Xarici İşlər Nazirliyi<br>Təhsil Nazirliyi<br>Elmlər Akademiyası | Ramiz Mehdiyev<br>Tofiq Zülfüqarov<br>Misir Mərdanov<br>Fərəməz Maqsudov | Sentyabr 1999-cu il | |
| 20 | Respublika Prezidentinin xüsusi qrantı əsasında Naxçıvanın tarixinə dair monumental tədqiqat əsərinin hazırlanması və çap edilməsi | Dövlət Komissiyası<br>Elmlər Akademiyası<br>Təhsil Nazirliyi | Ramiz Mehdiyev<br>Fatma Abdullazadə<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov | Fevral-sentyabr 1999-cu il | |
| 21 | Respublika Prezidentinin xüsusi qrantı əsasında İrəvanın tarixinə dair monumental tədqiqat əsərinin hazırlanması və çap edilməsi | Dövlət Komissiyası<br>Elmlər Akademiyası<br>Təhsil Nazirliyi | Ramiz Mehdiyev<br>Fatma Abdullazadə<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov | Fevral-sentyabr 1999-cu il | |
| 22 | Respublika Prezidentinin xüsusi qrantı əsasında Qərbi Azərbaycan tarixinə dair monumental tədqiqat əsərinin hazırlanması və çap edilməsi | Dövlət Komissiyası<br>Elmlər Akademiyası<br>Təhsil Nazirliyi | Ramiz Mehdiyev<br>Fatma Abdullazadə<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov | Fevral-sentyabr 1999-cu il | |
| 23 | Respublikanın elm və təhsil müəssisələrində Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr edilmiş elmi sessiya və konfransların keçirilməsi | Təhsil Nazirliyi<br>Elmlər Akademiyası | Misir Mərdanov<br>Fərəməz Maqsudov | Fevral-avqust 1999-cu il | |
| 24 | "Naxçıvan qədim Azərbaycan diyarıdır" mövzusunda gənclər üçün elmi-populyar seminarlar və mühazirələr silsiləsinin təşkili | Təhsil Nazirliyi<br>Elmlər Akademiyası<br>Gənclər və İdman Nazirliyi | Misir Mərdanov<br>Fərəməz Maqsudov<br>Əbülfəz Qarayev | Fevral-avqust 1999-cu il | |

| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 25 | Dünyanın mötəbər muzey, kitabxana və əlyazmaları fondlarında Naxçıvan tarixi ilə bağlı materialların əldə edilməsi məqsədi ilə alimlərin xarici ölkələrə ezamiyyətinin təşkil edilməsi | Dövlət Komissiyası | Artur Rasizadə<br>Ramiz Mehdiyev<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov | Elmlər Akademiyasının və Təhsil Nazirliyinin təqdim etdiyi uzunmüddətli proqramlar əsasında | |
| 26 | Naxçıvan şəhərinin yubileyinin keçirilməsi üçün hazırlıq işlərinin aparılması | Dövlət Komissiyası | Artur Rasizadə<br>Ramiz Mehdiyev<br>Fərəməz Maqsudov | Naxçıvan şəhəri tarixinin tədqiqi üzrə işçi qrupunun xüsusi planı əsasında | |
| **C.İNFORMASİYA, ÇAP MƏMULATI VƏ SUVENİRLƏRİN HAZIRLANMASI** | | | | | |
| 27 | Yubiley münasibəti ilə ayrıca markalar bloku, müxtəlif açıqcalar, zərflər və digər filateliya məmulatının buraxılması | Rabitə Nazirliyi<br>Mətbuat və İnformasiya Nazirliyi<br>Elmlər Akademiyası<br>Rəssamlar İttifaqı | Nadir Əhmədov<br>Sirus Təbrizli<br>Fərəməz Maqsudov<br>Fərhad Xəlilov | Sentyabr 1999-cu il | |
| 28 | Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr edilmiş albom, buklet, plakat və digər çap məmulatlarının buraxılması | Dövlət Komissiyası<br>Mətbuat və İnformasiya Nazirliyi<br>Rəssamlar İttifaqı | Ramiz Mehdiyev<br>Fatma Abdullazadə<br>Sirus Təbrizli<br>Fərhad Xəlilov | Mart-avqust 1999-cu il | Xüsusi plan üzrə |





| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 29 | Naxçıvanın tarixinə və mədəniyyətinə dair yeni tədqiqatların, sənədlər toplusunun çapı və ən yaxşı mətbu əsərlərin müəyyənləşdirilib təkrar nəşr edilməsi | Mətbuat və İnformasiya Nazirliyi<br>Təhsil Nazirliyi<br>Elmlər Akademiyası<br>Baş Arxiv İdarəsi | Ramiz Mehdiyev<br>Fatma Abdullazadə<br>Sirus Təbrizli<br>Misir Mərdanov<br>Fərəməz Maqsudov<br>Ataxan Paşayev | May-sentyabr 1999-cu il | Əlavə (xüsusi plan üzrə) |
| 30 | Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar elmi-publisistik və məlumat materiallarının çapı | Dövlət Komissiyası<br>Mətbuat və İnformasiya Nazirliyi<br>Elmlər Akademiyası<br>Təhsil Nazirliyi<br>Baş Arxiv İdarəsi | Ramiz Mehdiyev<br>Sirus Təbrizli<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov<br>Ataxan Paşayev | Fevral-avqust 1999-cu il | |
| 31 | Naxçıvanın tarixinə, maddi mədəniyyətinə və memarlıq məktəbinə həsr edilmiş sənədli filmlərin çəkilməsi | "Azərkinovideo" İstehsalat Birliyi<br>Kinematoqrafçılar İttifaqı<br>Memarlar İttifaqı<br>Baş Arxiv İdarəsi | Oqtay Mirqasımov<br>Rüstəm İbrahimbəyov<br>İlham Əliyev<br>Ataxan Paşayev<br>Əli Həsənov | Fevral-avqust 1999-cu il | |
| 32 | Naxçıvana həsr olunmuş Teleradio Verilişlərinin hazırlanması və xüsusi rubrikaların, dəyirmi masaların təşkil edilməsi | Teleradio Verilişləri Şirkəti<br>Elmlər Akademiyası<br>Yaradıcı və ictimai birliklər | Nizami Xudiyev<br>Fərəməz Maqsudov<br>Əli Həsənov | Fevral-sentyabr 1999-cu il | |
| 33 | Respublikanın mətbuat orqanlarında Naxçıvana həsr edilmiş məqalələrin verilməsi və yubiley tədbirlərinin işıqlandırılması | Mətbuat və İnformasiya Nazirliyi | Sirus Təbrizli | Fevral-sentyabr 1999-cu il | |

101246

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

| S № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 34 | Naxçıvan ensiklopediyasının hazırlanması üçün xüsusi qurumun yaradılması | Dövlət Komissiyası | Artur Rasizadə<br>Ramiz Mehdiyev<br>Fatma Abdullazadə<br>Fərəməz Maqsudov | Fevral-mart 1999-cu il | |
| 35 | Naxçıvan ensiklopediyasının hazırlanıb nəşr edilməsi | Dövlət Komissiyası | Ramiz Mehdiyev<br>Fatma Abdullazadə | 2000-ci il | |
| 36 | Elmlər Akademiyasının Rəyasət Heyəti nəzdində Naxçıvanın tarixini və mədəniyyətini tədqiq edən qurumun yaradılması | Dövlət Komissiyası | Artur Rasizadə<br>Ramiz Mehdiyev<br>Fərəməz Maqsudov | Fevral-mart 1999-cu il | |
| | **III. BEYNƏLXALQ MİQYASDA KEÇİRİLƏCƏK TƏDBİRLƏR** | | | | |
| 37 | Xarici ölkələrdə Azərbaycan diasporunun, onların dərnək və cəmiyyətlərinin iştirakı ilə yubiley tədbirlərinin keçirilməsi | Dövlət Komissiyası | Ramiz Mehdiyev | Fevral-avqust 1999-cu il | |
| 38 | Xarici ölkələrin kütləvi informasiya vasitələrində Naxçıvan haqqında elmi-publisistik materialların çapının təmin edilməsi | Xarici İşlər Nazirliyi<br>Elmlər Akademiyası<br>Təhsil Nazirliyi | Tofiq Zülfüqarov<br>Fərəməz Maqsudov<br>Misir Mərdanov | Fevral-avqust 1999-cu il | |
| 39 | Xarici ölkələrin aparıcı televiziya kanalları vasitəsi ilə Naxçıvan haqqında xüsusi verilişlərin verilməsinin təmin edilməsi | Xarici İşlər Nazirliyi<br>Televiziya və Radio Verilişləri Şirkəti<br>Elmlər Akademiyası<br>"Azərkinovideo" İstehsalat Birliyi | Tofiq Zülfüqarov<br>Nizami Xudiyev<br>Fərəməz Maqsudov<br>Oqtay Mirqasımov | Fevral-sentyabr 1999-cu il | |





**Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi haqqında**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN FƏRMANI

Naxçıvan qədim və zəngin tarixə, çoxəsrlik ənənələrə malikdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası XX əsrdə mürəkkəb və çətin inkişaf yolu keçmiş, gərgin siyasi mübarizə meydanına çevrilmişdir. Rusiyada çarizm devrildikdən sonra bütün imperiyada olduğu kimi, Naxçıvanda da ikihakimiyyətlilik yaranmış, Ermənistan Respublikası, ABŞ və İngiltərə kimi dövlətlər arasında bu bölgəyə yiyələnmək uğrunda ardı-arası kəsilməyən mübarizə aparılmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və müstəqil dövlət elan edilməsi Naxçıvan əhalisində müəyyən ümidlərin yaranmasına səbəb oldu. Lakin Naxçıvan əhalisi dəfələrlə müstəqil Azərbaycan Respublikasına birləşməyə hazır olduğunu bildirdisə də yaranmış siyasi və beynəlxalq vəziyyət bu istəyin həyata keçməsinə imkan verməmişdi.

Bundan da istifadə edən daşnak Ermənistan hökuməti Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətini daha da genişləndirirdi. Bu məqsədə çatmaqda həm Naxçıvana köçürülmüş erməni əhalisi, həm də ABŞ, İngiltərə, Fransa, Rusiya dövlətləri Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər. Daxildəki əks qüvvələr xaricdəki havadarlarının köməyi ilə Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər.

1918-ci ilin yayında bu regiona erməni basqınları artmış və ərazini Ermənistana birləşdirmək üçün cəhdlər edilmişdir. Yaranmış ağır vəziyyəti aradan qaldırmaq üçün Naxçıvan Milli Komitəsi türklərlə əlaqəni genişləndirmiş və nəticədə Kazım Qarabəkir Paşanın komandanlığı altında türk diviziyası Naxçıvana daxil olmuşdur. 1918-ci ilin payızında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərmiş, 1918-ci ilin axırlarından Naxçıvan və Şərur-Dərələyəz qəzalarını özündə birləşdirən Araz-Türk Respublikası yaradılmışdır.

1919-cu ilin fevralında ingilislər Naxçıvana qoşun yeridərək Araz-Türk Respublikasını tanımaq istəmədilər və hətta Naxçıvanın və Şərur-Dərələyəz qəzalarının Ermənistan ərazisi olduğunu elan etdilər. Bilavasitə ingilislərin köməkliyi ilə daşnaklar 1919-cu ilin iyulunda Naxçıvanı tutdular. Naxçıvanda Araz-Türk hökuməti təcavüzkarların qarşısını ala bilmədi. Hökumət süquta uğradı.

Naxçıvanda yeni general-qubernatorluq yarandı. Ona əvvəlcə Şelkovnikov, sonra isə daşnak Vartanyan başçılıq etmişdi. Əslində isə diyarı ingilis generalı Devi idarə edirdi. 1919-cu ilin iyunun sonunda yerli əhalinin ciddi müqaviməti və mübarizəsi nəticəsində ingilislər Naxçıvandan getməyə məcbur oldular. Naxçıvan Milli Komitəsinin qoşunları daşnakların nizami ordusunu əzərək onları bu ərazidən qovdular.

Bundan sonra ABŞ-ın Naxçıvana yiyələnmək cəhdləri başladı. 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ polkovniki Ceyms Rey Milli Komitə ilə danışıq apararaq

Naxçıvanda ABŞ-ın general-qubernatorluğunun yaradılması ideyasını irəli sürdü. Elə həmin vaxtlarda ABŞ polkovniki Haskel Paris sülh konfransında Antantanın ittifaq şurası adından Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə bildirmişdir ki, Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona elan edilir və orada Amerika general-qubernatorluğu təşkil olunur, bütün idarəçilik onun ixtiyarına keçir. ABŞ-ın bu təklifi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən əvvəlcə qəbul edilmədi. Sonralar çıxılmaz vəziyyətdə qalan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti buna razılıq verdi.

1919-cu ilin oktyabrında Naxçıvanda amerikan general-qubernatorluğunun yaradılması haqqında məlumat və onun əsasnaməsi dərc edildi.

Yerli əhali bu xəbəri də böyük narazılıqla qarşıladı. ABŞ açıqdan-açığa Ermənis - tana Naxçıvanın torpaqlarını tutmasına köməklik edirdi. Onun təhriki ilə 1919-cu ilin sonlarında Ermənistan qoşunları Naxçıvana hücuma keçdilər. Lakin onlar məğlub olaraq geri çəkildilər.

Naxçıvan əhalisi çətinliklərə mərdliklə sinə gərir, özünün yeganə xilas yolunu isə Azərbaycanla birləşməkdə görürdü.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra 1920-ci il aprelin 28-də Nax - çıvanda inqilab komitəsi yarandı. Lakin vəziyyət mürəkkəb olaraq qalırdı. 1920-ci ilin iyununda daşnak Ermənistan ordusu Naxçıvan diyarını ələ keçirmək üçün güclü hücuma keçdi, Şərur qəzasını tutaraq Naxçıvan üzərinə yeridi.

1920-ci il iyulun 27-28-də XI Ordunun hissələri Zəngəzurdan keçib Naxçıvana gəldilər. Bu tarixi proses nəticəsində daşnakların Naxçıvana qarşı hücumları dayandırılsa da, onlar bu diyar uğrunda ərazi iddialarından əl çəkmədilər.

XI Ordunun gəlişi ilə Naxçıvan Mahalı Sovet Sosialist Respublikası, İnqilab Komitəsi isə onun ali hakimiyyət orqanı elan olundu.

1920-ci ilin noyabrın axırlarında Ermənistanda Sovet Hakimiyyəti quruldu. 1920-ci il dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında Moskvanın təzyiqi ilə Azərbaycan İnqilab Komitəsi Zəngəzur və Naxçıvan qəzalarının Ermənistanın ayrılmaz hissəsi olduğunu bəyan etdi.

Naxçıvanın Ermənistanın ərazisi elan edilməsi barədə Azərbaycan İnqilab Komitəsinin mövqeyi Naxçıvan əhalisinin qəti etiraz və müqavimətilə qarşılandı.

1 dekabr bəyanatını əsas götürən Ermənistan İnqilab Komitəsi onu dərhal reallaşdırmağa cəhd etdi. O, Naxçıvan haqqında geniş bəyanat verərək Naxçıvanın könüllü surətdə Ermənistana birləşdiyini elan etdi. Lakin Naxçıvan əhalisinin buna qəti etirazını bildirməsi nəticəsində Ermənistan İnqilab Komitəsi dekabrın 27-də dekret verdi ki, "Sovet Azərbaycanı təntənəli aktla Azərbaycan və Ermənistan arasında mübahisələri məhv etmiş... və Naxçıvanı Sovet Ermənistanının ayrılmaz hissəsi elan etmişdi. Lakin Ermənistanın Sovet hakimiyyəti öz gücünü yalnız xalqın, o cümlədən Nax - çıvan əhalisi zəhmətkeşlərinin açıq ifadə olunmuş iradəsində görür".

Beləliklə, Ermənistan Sovet Respublikası Naxçıvanı Azərbaycan ərazisi kimi yox, müstəqil respublika kimi tanımışdı. Bu heç də təsadüfi deyildi. Ona hələlik Naxçıvanı Azərbaycandan ayırmaq lazım idi. Moskvanın mövqeyini bilən Ermənistan ümid edirdi ki, belə olsa gələcəkdə Naxçıvanı Ermənistana birləşdirmək o qədər də çətin olmayacaqdır.





Lakin bölgənin azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və aydın ifadə olunan fikirləri ermənilərin planlarını alt-üst elədi. 1921-ci ilin əvvəlində Azərbaycan SSR, Ermənistan SSR və RSFSR-in nümayəndələrinin, Naxçıvan bölgəsi əhalisinin Azərbaycan və Ermənistan İnqilab Komitələrinin bəyanatlarına münasibəti ilə bağlı keçirdikləri rəy sorğusunda əhalinin 90 faizdən çoxu Naxçıvan mahalının Muxtar Respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Bu tarixi mərhələdə Zaqafqaziyada Naxçıvan məsələsi də daxil olmaqla, Rusiya və Türkiyə dövlətləri sərhədləri dəqiqləşdirmək üçün 1921-ci ilin fevralından Moskva danışıqlarına başladılar.

Moskva danışıqlarında Azərbaycanın xarici işlər naziri Behbud bəy Şahtaxtinskinin 1921-ci ilin martın 1-də Leninə göndərdiyi məktub əsasında Siyasi Büroda Naxçıvan Sovet Respublikası yaradılması və onun Azərbaycanın himayəsində qalması barədə qərar qəbul edildi.

1921-ci ilin martın 16-da Moskvada RSFSR və Türkiyə arasında imzalanmış müqavilənin üçüncü maddəsinə əsasən razılığa gəlindi ki, Naxçıvan vilayəti Azərbaycan Respublikasının himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üçüncü dövlətə güzəşt edilməməsi şərti ilə Naxçıvan Muxtar Vilayəti təşkil olunur.

Bu proseslərdən sonra Moskva müqaviləsinin maddə və şərtlərini daha da konkretləşdirmək və müəyyən mənada tamamlamaq, bununla həm də onu reallaşdırmaq, yəni Türkiyə ilə Güney Qafqaz Respublikaları arasındakı həll olunmamış məsələləri nizama salmaq məqsədilə yeni konfrans çağırmaq və müqavilə bağlamaq zərurəti meydana gəldi. Bu konfransın çağırılması, vaxtının və yerinin müəyyənləşdirilməsi ilə bağlı Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan-Gürcüstan arasında diplomatik yazışmalar getdi və notalar mübadiləsi oldu.

1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək Qars şəhərində RSFSR, Azərbaycan SSR, Gürcüstan SSR, Ermənistan SSR və Türkiyə dövlətlərinin iştirakı ilə konfrans keçirildi və onların arasında imzalanmış Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, onun sərhədləri daha da dəqiqləşdirildi. Müqavilədə qeyd olunurdu ki, Naxçıvan vilayəti bu müqavilənin üçüncü əlavəsində müəyyən edilmiş sahələrdə Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir.

1922-ci il martın 3-də Azərbaycan MİK-in sessiyası 1921-ci il 16 mart Moskva və 13 oktyabr tarixli Qars beynəlxalq müqavilələrini təsdiq etdi. Nəhayət 1922-ci ilin dekabrında birinci Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə xüsusi qərar qəbul elədi. Həmin qərarda göstərilmişdir ki, "Naxçıvan Respublikası muxtariyyət hüququnda Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi hesab edilsin".

1923-cü il fevral ayının 27-də Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR-yə daxil edilməsi haqqında qərar qəbul etdi.

1923-cü il dekabr ayının 5-də Azərbaycan MİK Naxçıvan Muxtar diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya MİK-dən xahiş etdi.

1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK-in birinci plenumu Naxçıvan Muxtar diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında Azərbaycan MİK-in müvafiq qərarını müzakirə edərək Naxçıvan muxtar diyarının Azərbaycan SSR tərkibində Nax -

çıvan MSSR-ə çevrilməsi haqqında qərar çıxardı. Naxçıvan MSSR MİK-in 1924-cü il yanvarın 18-də olmuş birinci plenumu bu qərarı təsdiq etdi.

Naxçıvan MSSR inzibati cəhətdən Şərur, Ordubad və Naxçıvan qəzalarına bölündü.

Azərbaycan SSR MİK-nin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi.

Beləliklə, faktların təhlili göstərir ki, Naxçıvana muxtariyyət statusu 1918-1924-cü illərdə bu regionda cərəyan edən daxili və xarici amillərə, coğrafi mövqeyinə, geopolitik vəziyyətinə və beynəlxalq müqavilələrə əsasən verilmişdir.

1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Azərbaycan Prezidenti möhtərəm Heydər Əliyev yekun nitqində demişdir ki, "... Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Bütün bunlardan sonra da Ermənistanın müəyyən dairələri Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olması ilə razılaşmaq istəmir və Naxçıvanı Ermənistana birləşdirmək məqsədlərindən əl çəkmirdilər.

Zaqafqaziya MİK Rəyasət Heyətinin 1929-cu il 18 fevral tarixli qərarı ilə Naxçıvanın 625 kv. km ərazisi - Şərur qəzasının Qurdqulaq, Xaçik, Ses, Knişik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxac, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verilmişdir.

1930-cu ildə də Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır.

Ermənilərin Naxçıvanla bağlı ərazi iddiaları indi də davam etməkdədir. Onların dünyanın müxtəlif ölkələrində Naxçıvanın torpaqlarına sahib çıxmaq xülyaları ilə yaratdıqları mənasız, qondarma təşkilatlar, bu günlərdə Ermənistanda keçirdikləri "Kim Naxçıvanı istəyir?" mövzusundakı rəy sorğusu ermənilərin öz sərsəm iddialarından əl çəkmədiyini göstərir.

Naxçıvanın muxtar ərazi statusunun möhkəmlənməsində onun 75 illik tarixi ərzində qəbul edilmiş Konstitusiyalarının - 1926-cı il aprelin 18-də Ümumnaxçıvan Sovetlər Qurultayının qəbul etdiyi Naxçıvan MSSR-in birinci Konstitusiyasının, 1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR-in X Fövqəladə Sovetlər Qurultayının qəbul etdiyi Naxçıvan MSSR-in ikinci Konstitusiyasının, 1978-ci il mayın 30-da Naxçıvan MSSR Ali Sovetinin IX çağırış növbədənkənar 8-ci sessiyasının qəbul etdiyi üçüncü Konstitusiyasının mühüm əhəmiyyəti olmuşdur.

1995-ci ilin 12 noyabrında Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirilmiş, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir.

Bu tarixi sənəd ölkədə başlanan quruculuq tədbirlərinə, siyasi və iqtisadi sistemin dəyişdirilməsinə sanballı hüquqi baza yaratmış, müstəqil dövlətçiliyin gələcək inkişafını əsaslandırmış, Naxçıvan Muxtar Respublikasına isə Azərbaycanın tərkibində Muxtar Dövlət statusu vermişdir.

Azərbaycan Respublikasının yeni Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası hazırlanmış, 28 aprel 1998-ci ildə Naxçıvan Muxtar





Respublikası Ali Məclisinin sessiyasında qəbul edilərək, təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində özünəməxsus inkişaf yolu keçərək, mədəni-maarif, elm, təhsil, səhiyyə, sosial və iqtisadi inkişaf sahəsində mühüm nailiyyətlər əldə etmişdir.

Müxtəlif illərdə Naxçıvan Muxtar Respublikasının təşkilinin ildönümləri dövlət səviyyəsində qeyd olunmuşdur. 1964-cü ildə Naxçıvan Muxtar Respublikasının 40, 1974-cü ildə 50, 1984-cü ildə isə 60 illik yubileylərinin keçirilməsinin diyarın ümumi inkişafı sahəsində müəyyən əhəmiyyəti olmuşdur.

Naxçıvan Muxtar Respublikası Sovet hakimiyyəti illərində sosial-iqtisadi və mədəni inkişaf sahəsində əldə etdiyi nailiyyətlərinə görə o dövrün çox yüksək mükafatlarına - Lenin, Xalqlar Dostluğu və Oktyabr İnqilabı ordenlərinə layiq görülmüşdür.

XX əsrin 90-cı illərində SSRİ adlı imperiyanın dağılması dalğasında formalaşan şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını açıq müharibə yolu ilə reallaşdırmağa başladılar. Naxçıvanın muxtar ərazi taleyi çətin sınaqlar qarşısında qaldı.

1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Sovet qoşunlarının Bakıya qanlı hücumundan 8 saat əvvəl erməni - Sovet qoşun birləşmələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qanlı döyüşlər getmiş və Naxçıvan Muxtar Respublikasının Kərki kəndi işğal olunmuşdur.

Bu o dövr idi ki, xalqın faciəsi hesabına hakimiyyətə sahiblənən o vaxtkı Azərbaycan rəhbərliyi Naxçıvanı Ermənistana güzəştə getmək niyyətini gizlətmir, onu kor bağırsaq kimi kəsib atmaq istəyirdi; bu o dövr idi ki, təklənən, taleyin ümidinə buraxılan Naxçıvan əhalisi öz doğma torpağını tərk etmək təhlükəsi qarşısında qalmışdı; bu o dövr idi ki, müdafiəsiz qalan Naxçıvan, SSRİ-nin tərkibindən çıxması haqda qərarını dünyaya bəyan edirdi. Lakin bu təşəbbüslər əks reaksiya ilə qarşılanır, Naxçıvan Muxtar Respublikasına ögey münasibət güclənirdi.

Bu ögeylik münasibəti Azərbaycanda rəhbərlikdə olan AXC-Müsavat cütlüyü dövründə də davam etdirilərək Naxçıvanın muxtariyyət statusunu ləğv etmək və buradan ikinci cəbhə açmaq planlarını həyata keçirmək istəyirdilər.

Məhz belə bir şəraitdə tale möhtərəm Heydər Əliyevi Naxçıvana yetirməklə, bu qədim torpağı işğal edilmək bəlasından hifz etdi və onun muxtariyyət statusu qorundu.

Naxçıvanda bu istiqamətdə görülən tədbirlər; milli dövlətçilik ənənələrimizin dirçəldilməsi - muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 19-20 yanvar 1990-cı il Bakı hadisələrinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində kommunist partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya azərbaycanlılarının həmrəylik günü elan olunması, ilk demokratik islahatlar, atəşkəs rejimi, xarici dövlətlərlə tarazlaşdırılmış siyasət, nəhayət, Azərbaycandan ayrı düşmüş, blokada şəraitində yaşayan Naxçıvanın düşməndən qorunub saxlanması və muxtariyyətinin hifz olunması - bax, bunlardır möhtərəm Heydər Əliyevin Naxçıvandakı fəaliyyətinin qısa yekunu!

Bu gün iftixarla fəxr edirik ki, qədim insanların yaşayış yeri -Govurqala və Oğlan -

qalanın, əfsanəvi şəxsiyyət Nuhla bağlı Gəmiqayanın, "Əshabi-Kəhf" dini-tarixi ziyarətgahının, Daş qala, Çalxanqala və Əlincə qalalarının, Gülüstan türbəsinin, Yusif Küseyir oğlu, Möminə xatın, Qarabağlar, İmamzadə, Hüseyn Cavid türbəsi kimi memarlıq abidələri olan Naxçıvan böyük Heydər Əliyevin Azərbaycanda yaratdığı sabitləşmə tədbirlərindən bəhrələnərək yaşayır və inkişaf edir.

Yuxarıda göstərilənləri əsas tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi 1999-cu ildə keçirilsin.
2. Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illik yubiley tədbirlərini keçirmək üçün təşkilat komitəsi yaradılsın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 noyabr 1998-ci il*





## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YARANMASININ 75 İLLİYİ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏCƏK TƏDBİRLƏRİN PLANI

| № | Tədbirin adı | İcra müddəti | İcraya məsul olanlar |
|---|---|---|---|
| 1 | Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş məruzə və söhbətlər təşkil edilsin, elmi-praktik konfranslar keçirilsin | Yubiley gününədək | Şəhər və rayon icra hakimiyyətləri, Təhsil Nazirliyi, ali və orta ixtisas təhsili məktəbləri, hərbi hissələr |
| 2 | Azərbaycan və ingilis dillərində Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş illüstrasiyalı kitab-albomlar və bukletlər nəşr olunsun | 1999-cu ilin birinci rübü | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi |
| 3 | Naxçıvanın yazıçı və şairlərinin əsərlərini nəşr etmək | Yubiley gününədək | Naxçıvan Yazıçılar Birliyi, Dövlət Mətbuat Komitəsi |
| 4 | "Naxçıvan MR-75" adlı sənədli film hazırlamaq | 1999-cu ilin birinci rübü | Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi |
| 5 | Muxtar respublikada abadlıq işlərinin aparılması, yaşıllıqların salınması | 1999-cu il ərzində | Şəhər və rayon icra hakimiyyətləri, hərbi hissələr |
| 6 | Naxçıvan Muxtar Respublikasında buraxılan qəzet və jurnalların yubileyə həsr olunmuş xüsusi nömrələrinin buraxılması | 1999-cu il | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, şəhər və rayon icra hakimiyyətləri, hərbi hissələr |
| 7 | "Naxçıvan MR-75" yazısı ilə hədiyyə və suvenirlərin buraxılması | Yubiley gününədək | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti |
| 8 | "Naxçıvan MR-75" etiketləri ilə mineral su, şərab, konserv və digər məhsulların istehsal edilməsi | 1999-cu il | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri |

| № | Tədbirin adı | İcra müddəti | İcraya məsul olanlar |
|---|---|---|---|
| 9 | İşlədiyi sahədə fərqlənənlərin Azərbaycan Respublikasının fəxri adlarına təqdim edilməsi və Naxçıvan Muxtar Respublikasının fəxri adları ilə təltif olunması | 1999-cu il, yubiley gününədək | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi |
| 10 | Yubiley münasibəti ilə yeni obyektlər istifadəyə verilsin | 1999-cu il ərzində | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri |
| 11 | Yubileyə həsr edilmiş foto-stendlər, sərgilər təşkil olunsun | 1999-cu il, yubiley gününədək | Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, şəhər və rayon icra hakimiyyətləri, hərbi hissələr |
| 12 | Yubileyə həsr olunmuş yarışlar, estafetlər, idman oyunları keçirilsin, bədii özfəaliyyət kollektivlərinin çıxışları təşkil edilsin | 1999-cu il mütəmadi | Mədəniyyət, Gənclər və İdman Nazirlikləri, hərbi hissələr |
| 13 | "Naxçıvan MR-75" adlı statistik məcmuə buraxmaq | 1999-cu il, yubiley gününədək | Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi |
| 14 | Azərbaycanın xarici ölkələrdəki səfirlikləri vasitəsi ilə Naxçıvan haqda elmi məqalələrin həmin dövlətlərin mətbuatında nəşrinə nail olmaq | 1999-cu il ərzində | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi |
| 15 | Bütün rayonlarda, hərbi hissələrdə Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş təntənəli yubiley tədbirləri keçirilsin | Yubiley gününədək | Rayon icra hakimiyyətləri, hərbi hissələr |
| 16 | Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş təntənəli yekun yığıncağının keçirilməsi | 1999-cu il, yubiley günü | Təşkilat Komitəsi |





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV NAXÇIVANA GƏLMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş şənliklərdə iştirak etmək üçün oktyabrın 10-da xüsusi təyyarə ilə Naxçıvan şəhərinə gəlmişdir.

Muxtar respublikanın minlərlə sakini-əməkçilər, ziyalılar, ağsaqqallar, məktəblilər dövlətimizin başçısını qarşılamaq üçün bayramsayağı bəzədilmiş Naxçıvan hava limanına toplaşmışdılar. Azərbaycan Prezidentinin portretləri, "Xoş gəlmisiniz, əziz xilaskarımız!", "Bayramın mübarək, Naxçıvan Muxtar Respublikası!", "Heydər Əliyev zəmanəmizin dühasıdır", "Heydər Əliyevə eşq olsun!", "Azərbaycanın azadlığı və müstəqilliyi əbədidir" sözləri yazılmış transparantlar uzaqdan diqqəti cəlb edirdi. Ətrafa şən musiqi sədaları yayılırdı.

Azərbaycan Prezidenti Heydər Əliyevi təyyarənin pilləkəni yanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycanın və muxtar respublikanın rəhbər işçiləri, İran İslam Respublikasından və Türkiyədən gəlmiş qonaqlar, ictimaiyyətin nümayəndələri hərarətlə, mehribanlıqla qarşıladılar. Milli geyimli qızlar Prezident Heydər Əliyevə gül-çiçək dəstələri, şərbət təqdim etdilər.

Respublika Prezidentinin Naxçıvana gəlməsi münasibətilə hava limanında fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycanın Dövlət Himni səsləndi. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti, Ali Baş Komandan Heydər Əliyevə raport verdi. Respublikamızın rəhbəri fəxri qarovul dəstəsinin qarşısından keçərək Azərbaycan ordusununun əsgərlərini salamladı.

Dövlətimizin başçısı onu qarşılamağa gələnlərlə səmimi görüşdü.

Məktəblilər Heydər babanı şeirlə salamladılar.

Heydərxan binası tikilsə əgər,
Onun baş memarı mən olacağam.
Heydərin haqqında nəğmə yazılsa,
Onun nəğməkarı mən olacağam.

Qarabağ torpağın azad eyləsə,
Onun qarşısında diz çökəcəyəm.
Rəhbərə xainin əli uzansa,
Onu xəncərimlə mən kəsəcəyəm.

Buludlar dağıldı, dumanlar qaçdı,
Sənin hünərinlə, ay Heydər baba!
Diyarın dünyada indi tanındı,
Sənin əməyinlə, ay Heydər baba!

Millətin vüqarı, dini-imanı,
Gəzir eldən-elə söhbətin sənin.
Özünə qaytardın Azərbaycanı,
Yayılıb cahana şöhrətin sənin.

Rəbbim xalq eyləyib səntək rəhbəri,
Ağlın cilalayır ləli, gövhəri.
Dilindən yayılır müjdə xəbəri,
Yüz idi, min oldu hörmətin sənin.

Tarixə silinməz izlər salırsan,
Xalqın itirilmiş haqqın alırsan,
Sözünlə düşmənə qılınc çalırsan,
Artır günü-gündən qüdrətin sənin.

Dost dostuna atdı silah.
Yerdə Heydər, göydə Allah,
Verdilər sənə el, can,
Gözün aydın, Azərbaycan.

Düşmənlər çox, o isə tək,
Dayanıbdır ər kişitək.
Yaxındadır xoş gələcək,
Gözün aydın, Azərbaycan.

Dolandı, aləmi gəzdi,
Boğulur düşmən nəfəsi.
Dünya olur sənə heyran,
Gözün aydın, Azərbaycan.

Azərbaycan səslənir
Sənin adın gələndə.
Bir ehtiram bəslənir
Sənin adın gələndə.
Bir millət əzizlənir
Sənin adın gələndə.
Bu Vətənə, bu xalqa
Olmusan sipər, baba,
Bütün türk dünyasının
Babası-Heydər baba.
Sən ey şah vüqarımız,
Sən ey dağ qürurumuz.
Ey damarda qanımız,
Ey gözlərdə nurumuz.
Düşüncəmiz, fikrimiz, sizlərə.
Tanrı Sizi çox görməsin bizlərə.
Heydər baba, ölkə-ölkə gəzəcəm,
Şöhrətini dastanlara düzəcəm,
Qarabağın xilas günün görəcəm.
Mənim yolum istiqlalın yoludur,
Yurd sevgisi ürəyimdə doludur.





Prezident Heydər Əliyev uşaqlara təşəkkür edərək onlarla xatirə şəkli çəkdirdi.

Maşın karvanı hava limanından Naxçıvan şəhərinə yollandı. Babək rayonunun və muxtar respublika paytaxtının minlərlə sakini yol boyu dövlətimizin başçısının pişvazına çıxmışdılar. Onlar ölkəmizin rəhbərini hərarətlə salamlayır, ona dərin hörmət və ehtiramlarını bildirdilər. Azərbaycan rəhbərinin şərəfinə neçə yerdə qurbanlar kəsildi.

Naxçıvan Muxtar Respublikasının ən ağır dövründə ona rəhbərlik etmiş, yurdumuzun bu qədim diyarını daxili təxribatlardan, Ermənistanın hərbi təcavüzündən qorumuş, burada ictimai-siyasi sabitlik yaratmış Heydər Əliyevin misilsiz xidmətlərini böyük minnətdarlıq hissi ilə xatırlayan naxçıvanlılar respublikamızın liderinə sonsuz məhəbbətlərini bildirirdilər. Onlar müdrik rəhbərimizi salamlayır, yaşlılar da cavanlara qoşularaq yallı gedirdilər.

Prezident Heydər Əliyev maşından düşərək, onu qarşılamağa çıxanlarla mehribancasına görüşür, hal-əhval tuturdu.















## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev onu müşayiət edən şəxslərlə birlikdə Şəhidlər xiyabanını ziyarət etdi. Dövlətimizin başçısı Azərbaycanın azadlığı və müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş mərd mübarizlərin, igid Vətən oğullarının əziz xatirəsini dərin ehtiramla yad etdi, onların məzarları önünə əklil qoydu. Şəhidlərin ruhuna dua oxundu.







## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEV ƏCƏMİ SEYRƏNGAHINA GƏLMİŞDİR

Dövlətimizin başçısı muxtar respublika paytaxtının ən gözəl guşələrindən biri olan Əcəmi seyrəngahına gəldi, buradakı xalça muzeyinin ekspozisiyası ilə tanış oldu. Muzeyin direktoru Arif Qədimov Azərbaycanda ikinci olan bu muzey barədə ətraflı məlumat verdi.

Prezident Heydər Əliyevin Naxçıvana səfəri bu qədim diyarda əsl el bayramına çevrilmişdir. Naxçıvanlılar dövlətimizin başçısını hər addımda ən əziz adam kimi mehribanlıqla, səmimiyyətlə qarşılayırdılar.





Naxçıvan Muxtar Respublikası – 75











## MUXTAR RESPUBLİKANIN BAYRAMI BÜTÜN AZƏRBAYCAN XALQININ, MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BAYRAMIDIR

Azərbaycanın qədim və əbədi diyarı olan Naxçıvan torpağı neçə gündür ki, bayram içindədir. "Naxçıvan Muxtar Respublikası 75 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli fərmanına uyğun olaraq, burada əzəmətli və hərarətli yubiley təntənələri keçirilir. Xalqımızın sevimli oğlu, dövlətimizin başçısı, Heydər Əliyevin bayram şənliklərində şəxsən iştirakı bu təntənələrə daha böyük məna və məzmun verir, onları əsl tarixi hadisəyə çevirir.

Oktyabrın 12-də Naxçıvan şəhərində Muxtar Respublikanın 75 illiyinə həsr olunmuş təntənəli yubiley iclası keçirilmişdir.

Salona toplaşanlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevi hərarətli alqışlarla qarşıladılar.

İclasda Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rəhbər işçiləri, Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, əmək adamları, elm, mədəniyyət, incəsənət xadimləri, qonşu Türkiyə Respublikasından və İran İslam Respublikasından gəlmiş rəsmi qonaqlar, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçıları iştirak edirdilər.







# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏŞKİL OLUNMASININ 75 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YUBİLEY İCLASINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

-Əziz naxçıvanlılar!

Əziz bacılar, qardaşlar, dostlar!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Mən sizi, Naxçıvan Muxtar Respublikasının bütün sakinlərini Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü, bayram münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın müstəqil Azərbaycan dövlətinin ayrılmaz hissəsidir, gözəl guşələrindən, diyarlarından biridir. Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümü bayramı bütün Azərbaycan xalqının, vətəndaşlarının, müstəqil Azərbaycan dövlətinin bayramıdır. Mən sizə -naxçıvanlılara bütün Azərbaycan xalqının salamlarını, xoş arzularını, səmimi təbriklərini çatdırıram. Naxçıvan Muxtar Respublikasının ildönümü ilə əlaqədar mərasimlərə Azərbaycanın paytaxtı Bakıda da çox böyük maraq var. Mənə dedilər ki, həddindən çox insanlar, cürbəcür, müxtəlif təbəqələrə mənsub insanlar bu günlərdə Naxçıvanda olmaq istəyirlər. Bu bayramı naxçıvanlılarla bölüşdürmək və bu bayramın iştirakçıları olmaq istəyirlər. Bu, çox gözəl bir hadisədir. Çünki bu, Azərbaycan xalqının yekdilliyini, birliyini, həmrəyləyini bildirir və Azərbaycanın hər bir bölgəsində ölkəmizin paytaxtında, müstəqil Azərbaycanın həyatında olan hər bir hadisəni hamı ümumxalq bayramı, hadisəsi kimi qəbul edir.

Biz Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəlin bu bayram münasibətilə təbrik məktubunu böyük məmnuniyyətlə dinlədik. Onu da bildirmək istəyirəm ki, hörmətli prezident Süleyman Dəmirəl bu bayrama gəlməyə hazırlaşırdı. Bir neçə ay bundan öncə bizim onunla bu barədə danışıqlarımız olmuşdu və qərara almışdıq ki, bu bayram münasibətilə Naxçıvana birlikdə gələcəyik. Təəssüflər olsun ki, qardaş Türkiyədə baş vermiş zəlzələ və onun nəticəsində yaranmış faciə Türkiyə prezidentini bir çox xarici səfərlərini saxlamağa məcbur etdi. Çünki indi zəlzələdən zərərçəkmiş yerlərin bərpa edilməsi, insanların yaşaması üçün şərait yaratmağa və başqa işlər görməyə böyük zərurət vardır. Türkiyənin hökuməti, prezidenti bu işlərlə məşğuldurlar. Ancaq onun bu bayrama göndərdiyi təbrik məktubu bizi həddindən çox sevindirdi, coşdurdu və Azərbaycanın böyük dostu Süleyman Dəmirəlin Naxçıvana nə qədər bağlı və Azərbaycana nə qədər böyük məhəbbəti olduğunu göstərdi.

Mən çox məmnunam ki, hörmətli Süleyman Dəmirəli burada Türkiyə hökumətinin yüksək vəzifəli üzvləri –dövlət nazirləri və qonşu vilayətlərin valiləri, böyük nümayəndə heyəti təmsil edir. Mən bütün bunlara görə hörmətli prezident Süleyman Dəmirələ sizin adınızdan, bütün Azərbaycan xalqı adından hörmət və ehtiramımı, dərin təşəkkürümü bildirirəm.

Hörmətli prezident Süleyman Dəmirəl təbrik məktubunda böyük Mustafa Kamal Atatürkün müdrik kəlamlarını bizim yadımıza saldı: "Azərbaycanın sevinci bizim sevincimizdir, Azərbaycanın kədəri bizim kədərimizdir." Bu müdrik sözlər indi bizim xalqlarımızın arasında yaranmış əlaqələrin ən gözəl təzahürüdür. Bu, Türkiyədə də, Azərbaycanda da belə qəbul olunubdur. Ona görə də Türkiyədə baş vermiş zəlzələ böyük insan tələfatı, faciə Türkiyə xalqına qəm, qüssə, kədər gətirdiyi kimi, Azərbaycan xalqına da qəm, qüssə, kədər gətirdi. Biz bu ağır itkiləri, ağır faciəni bərabər keçirdik və bərabər keçiririk. Təbiidir ki, qardaş türk xalqına, Türkiyəyə yardım etmək üçün Azərbaycan dövləti əlindən gələni etdi və Türkiyəyə yardıma gedənlərin ön sırasında oldu. Xüsusən Azərbaycanın yanğınsöndürənləri İzmit şəhərində bir neçə gün yanan neft emalı zavodunun yanğından xilas olmasında böyük xidmətlər göstərdilər.

Mən bu gün bu faciə münasibətilə Türkiyə dövlətinə, hökumətinə, xalqına bir daha baş sağlığı verirəm, "keçmiş olsun" deyirəm. Dostlarımızı bir daha əmin etmək istəyirəm ki, biz böyük Mustafa Kamal Atatürkün sözlərinə daim sadiq olacağıq. Biz hamımız qonşu İran İslam Cümhuriyyətinin nümayəndəsi, Ərdəbil ostandarlığı ostandarının təbrik məktubunu burada böyük hörmət və ehtiramla dinlədik. Bu hadisə də İran-Azərbaycan dostluğunun, qardaşlığının və əməkdaşlığının gözəl təzahürüdür. Bilirsiniz ki, iki gün bundan öncə İran İslam Cümhuriyyətindən çox böyük və möhtəbər nümayəndə heyəti Naxçıvana gəlmişdi. Biz onlarla bərabər Naxçıvanda İran İslam Cümhuriyyətinin yardımı ilə tikilmiş böyük məscidin açılış mərasimini keçirdik. Bu gün bu bayram günündə də İran İslam Cümhuriyyətinin nümayəndəsi bizim aramızdadır, bizimlə bərabərdir. Mən bütün bunlara görə də ürəkdən təşəkkür edirəm.

Azərbaycan bir müstəqil dövlət kimi öz əlaqələrini daim genişləndirir. Bunun da əsas təzahürü Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik missiyaları, xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirlikləri, diplomatlarıdır. Biz bu sahədə qısa zamanda böyük nailiyyətlər əldə etmişik. Xarici ölkələrin Azərbaycandakı səfirləri ölkəmizin bütün ictimai, mədəni həyatında fəal iştirak edirlər. Onların hamısı zəhmət çəkib Naxçıvana gəliblər, bu bayramda iştirak edirlər. Mən bunu səfirlərin təmsil etdikləri ölkələrin Azərbaycan Respublikasına, müstəqil Azərbaycan dövlətinə və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına göstərdikləri qayğı və diqqət kimi qəbul edirəm. Buna görə də bu bayram mərasimində bizimlə bərabər iştirak edən səfirlərə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Naxçıvan Muxtar Respublikasının yaranması tarixi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çox geniş, ətraflı, müfəssəl məruzə etdi. Bu salondakılar və düşünürəm ki, bu gün bizi dinləyən Azərbaycan televiziyanın seyirçiləri, bütün Azərbaycan vətəndaşları muxtar respublikanın 75 il ərzində keçdiyi yolla tanış oldular. O illər bir daha yada düşdü, xatırlandı. Bu 75 ildə, tarixcə qısa bir zamanda Naxçıvan diyarında nə qədər böyük işlərin görülməsi bir daha göz qabağına gəldi.

Ancaq Naxçıvanın tarixi təkcə muxtar respublikanın yaranmasından başlanmır. Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3500 il tarixi olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunlar hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir.

Mən bu barədə öz fikirlərimi bir az sonra sizə çatdıracağam. Ancaq indi isə bir şad hadisəni də sizə bildirmək istəyirəm. Oktyabr ayının 18-də Azərbaycanın Dövlət Müstəqilliyini elan etmək haqqında, yəni dövlət müstəqilliyini bərpa etmək barədə konstitusiya aktı qəbul olunubdur. Bununla da Azərbaycanın dövlət müstəqilliyinə əsas qoyu-

lubdur. Azərbaycan öz müstəqilliyini dünyaya elan edəndən sonra 8 ildir ki, müstəqil dövlət kimi yaşayır.

Azərbaycanın əhalisi artıq bu gün 8 milyon olubdur. Keçən gecə Bakıda, Hacı Qasımov adına doğum evində Azərbaycanın yeni övladı dünyaya gəlib, uşaq doğulubdur. Fatma xanım İsmayılovanın və onun həyat yoldaşı Eldəniz Vəliyevin oğlu olubdur. Bu övladın dünyaya gəlməsi ilə Azərbaycan əhalisi artıq 8 milyon olubdur. Fatma xanım və Eldəniz öz oğullarına ad qoyub onu Heydər çağırırlar. Bu, Azərbaycan üçün böyük bir hadisədir. Biz bu günlərdə dövlət müstəqilliyimizin 8-ci ilini tamamlayırıq. Azərbaycan Respublikasının əhalisi bu günlərdə 8 milyona çatıb, 9 milyona doğru irəliləyəcəkdir.

Təbiidir ki, Azərbaycan Respublikasının əhalisinin 8 milyona çatmasında naxçıvanlılarında xidməti vardır. Bilirəm ki, Naxçıvanda da insanlar həmişə çox övlad istəyirlər və burada çoxuşaqlı ailələr çoxdur. Mən özümdə vaxtilə çoxuşaqlı ailədə doğulmuşam. Ona görə naxçıvanlılar elə əhalinin artırılmasında da bəlkə ön sırada gedirlər.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul etdiyi ilk Konstitusiyası əsasında, Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət Konstitusiyasında Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində dövlət statusu verilibdir. Bu status əvvəl də var idi, sadəcə, elan edilmirdi. Ancaq bizim əvvəl nə qədər böyük nailiyyətlərimiz olubsa da, nə qədər böyük tarixi yol keçmişiksə də, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra baş verən hadisələr hamısından qiymətlidir. Ona görə də bu gün biz Naxçıvan Muxtar Respublikasını bir dövlət kimi 75 illik yubileyini qeyd edirik. Amma bu hadisənin Naxçıvanın və Azərbaycanın keçmiş tarixi ilə də çox üzvi əlaqəsi vardır.

Naxçıvan qədim zamanlardan Azərbaycanın ən mötəbər bölgələrindən biri olubdur. Azərbaycana, o cümlədən Naxçıvana əsrlər boyu dəfələrlə yadellilərin basqını olmuşdur, müharibələr, döyüşlər zamanı insanlar qırılmışdır. Naxçıvan dəfələrlə tamamilə məhv olub külə dönmüş, amma insanlar yenə də bu külün içindən qalxıb Naxçıvanı yaşatmışlar.

Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir. 12-ci əsrdə Naxçıvan Azərbaycanın Atabəylər, Eldəgizlər dövlətinin, o əsrdə Azərbaycanın ən böyük, ən qüdrətli dövlətinin paytaxtı olubdur. Atabəylər dövləti yüz ildən artıq hökm sürmüş və onun paytaxtı azərbaycançılığı qoruyub saxlamışdır.

Azərbaycanın zəngin tarixinin bu günə qədər gəlib çatmış çox parlaq nümunələri vardır. Azərbaycanda aparılan arxeoloji tədqiqatlar bir neçə əsr bundan öncə Azərbaycanın nə qədər zəngin mədəniyyətə malik olduğunu və nə qədər dolğun həyat yaşadığını əyani surətdə göstərir.

Naxçıvan Azərbaycanda Şərq ilə Qərbin arasında, qovuşduğu yerdə həmişə karvan, ticarət yollarının ortasında olubdur. Bu, bir tərəfdən həmişə Naxçıvanı inkişaf etdiribdir, burada həmişə böyük ticarət olubdur. İkinci tərəfdən də Naxçıvana müxtəlif tərəflərdən hücumlar edilib, müharibələr, döyüşlər olubdur. Naxçıvan Çingiz xan ordusunun da basqınlarına məruz qalıbdır, döyüşüb, vuruşub, qəhrəmanlıq göstəribdir. Naxçıvan Teymurləngin, Əmir Teymurun qoşunlarının da basqınlarına məruz qalıbdır, vuruşub, döyüşübdür. Naxçıvanın tarixi abidələri, o cümlədən bu günlərə qədər qalmış Əlincə qalası və həmin qalada getmiş döyüşlər Naxçıvanın, Azərbaycan xalqının nə qədər cəsur, qüdrətli, vətənpərvər, vətənini sevən insanlar olduğunu dünyaya nümayiş etdiribdir.

Bunlar hamısı tarixin yazılarıdır. Bunlar hamısı Azərbaycan tarixinin zənginliyini





nümayiş etdirən hallardır. Ancaq eyni zamanda deyə bilərəm ki, Azərbaycanın bu gözəl, qədim diyarının tarixi hələ indiyə qədər yaxşı təhlil, tədqiq olunmayıbdır, təbiidir ki, yazılmayıbdır.

Azərbaycanın azərbaycançılığını, Azərbaycan dilini bu gün də sübut edən ən dəyərli əsər "Kitabi-Dədə Qorqud"dur. Biz "Kitabi-Dədə Qorqud" dastanının 1300 yüzillik yubileyini qeyd edirik. Azərbaycanın alimləri, ədəbiyyatşünasları, yazıçıları son on illərdə Azərbaycan tarixinin bu hissəsini, məhz azərbaycançılığı, Azərbaycan dilini, yəni bizim milli kökümüzü, dilimizin milli kökünü hamıya nümayiş etdirmək, sübut etmək üçün gözəl əsərlər yaradıblar.

"Kitabi-Dədə Qorqud"un boyları çox elmi əsərlərdə təhlil edilibdir, yazıçı Anarın yaratdığı filmdə geniş kütləyə izah olunubdur. Bir çox alimlərin dəyərli əsərləri vardır. O cümlədən, Naxçıvan Muxtar Respublikasının alimi Səfərəli Babayevin bu günlərdə çapdan çıxmış kitabı çox qiymətlidir. Bu kitab ona görə qiymətlidir ki, "Kitabi-Dədə Qorqud"un boylarının, toponimlərinin hamısını Naxçıvanda tapmaq olar. Naxçıvanda bunu tapıblar, təhlil ediblər, elmi surətdə öyrəniblər və Səfərəli Babayev bu barədə böyük bir kitab yaradıbdır.

Bu, azərbaycançılıq, Azərbaycan dilinin qədimliyi, dilimizin dərin kökləri nöqteyi-nəzərindən nə qədər qiymətlidir! Yenə də deyirəm, bu, Naxçıvanın Azərbaycan tarixində -keçmiş əsrlərdə də, orta əsrlərdə də və sonrakı dövrlərdə də nə qədər böyük rol oynadığını göstərir.

Bilirsiniz, Səfərəli Babayevin bu kitabı təbiidir ki, onun çoxillik elmi fəaliyyətinin nəticəsidir. Ancaq əgər sovet ideologiyası tərəfindən bizim keçmişimizi məhv etmək, qaralamaq, unutmaq siyasətinin qarşısını vaxtında az-çox almasaydıq və son illərdə, xüsusən 70-ci illərdə bu tariximizi, dilimizi, ədəbiyyatımızı, köklərimizi arayıb-araşdıran, elmi surətdə təhlil edən və dünyaya nümayiş etdirən alimlərimizə, yazıçılarımıza, sənətşünaslarımıza imkan verməsəydik bəlkə bunlar ölüb gedərdi. Çünki "Kitabi-Dədə Qorqud" 1951-ci ildə bir "düşmən ideologiyası" kimi qadağan edilmişdir. Ondan sonra bir neçə kiçik əsər yaranmışdı. Bəli, "Kitabi-Dədə Qorqud" 1970-ci illərdə yaranmış elmi və bədii əsərlərin səbəbinə yenidən dünyaya gəlib çıxmışdır.

Yəni, demək istəyirəm ki, Naxçıvanda da "Kitabi-Dədə Qorqud"un bu qədər böyük izlərinin olması 50 il də, 100 il də bundan öncə məlum idi. Ancaq onları ortaya çıxaran, xalqa tanıdan yox idi. Bir vaxtlar, ümumiyyətlə, keçmiş əsrlərdə bəlkə buna imkan olmayıbdır. Amma bizim xalqımız bir vaxtlar öz milli mənliyini daha da tanıyandan, milli şüuru inkişaf etdirəndən sonra bu işlərə başlayanda onun qarşısı alınıbdır. Yəni Səfərəli Babayevin bu kitabda yığdığı, "Kitabi-Dədə Qorqud"a mənsub olan bu qədər boylar, adlar, toponimlər elə son on illərdə meydana çıxanlar deyildir. Bunlar hamısı "Kitabi-Dədə Qorqud" vaxtından qalıbdır.

Beləliklə, Naxçıvan Azərbaycanın Dədə Qorqud mərkəzlərindən biridir və "Kitabi-Dədə Qorqud"un çox izlərinin Naxçıvanda olması Naxçıvanın, Azərbaycanın nə qədər qədim və zəngin diyarı olduğunu bir daha göstərir.

Bilmirəm, təsdüfi olub, yaxud da bu, təsadüfi deyildir. Ancaq məlumdur ki, -hər halda mən bunu bilirəm, yəqin çoxları da bilir, –yazıçı Anar "Dədə Qorqud" filmini yaratmağa başlayanda şübhəsiz çox işlər görmüşdü. Ancaq filmin çəkilişi Naxçıvanda keçirilibdir.

Naxçıvanın qədim tarixi haqqında çox demək olar. Bu gün buna imkan yoxdur. Ancaq Azərbaycanın, millətimizin, Azərbaycan xalqının qədimliyini, dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha da dərk etməyin, daha da yaxşı bilməyin, şübhəsiz ki, bu günkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır. Bütün Azərbaycanda, o cümlədən Naxçıvanda bu tədqiqatlar aparılmalıdır, bu işlər görülməlidir.

Bu gün burada alimlər iştirak edirlər. Mən "Kitabi-Dədə Qorqud" dastanının yubiley kommisiyasının iclasında bunu demişdim və bu gün bir daha deyirəm: Azərbaycan dövləti nə qədər iqtisadi çətinliklər içərisində olsa da, biz bu işlər üçün vəsait əsirgəməyəcəyik.

Biz alimlərimizdən, tədqiqatçılarımızdan, ədəbiyyatşünaslarımızdan, tarixçilərimizdən bax, bu istiqamətdə yeni-yeni əsərlər gözləyirik. Əmin ola bilərsiniz ki, hər bir belə əsər layiqincə qiymətləndiriləcəkdir.

Səfərəli Babayevin kitabını Bakıda mənə təqdim etmişdilər, -təkcə bu deyil, biz "Kitabi-Dədə Qorqud" dastanının yubileyi ilə əlaqədar nəfis şəkildə nəşr olunmuş gözəl kitablar meydana çıxardıq, onları da mənə təqdim ediblər, -mən dünən Naxçıvan Dövlət Universitetində olarkən həmin kitabı bir daha gördüm, ona baxdım və dedim ki, bu kitaba görə Səfərəli Babayev professor elmi dərəcəsini alıb, Azərbaycan Prezidenti kimi mən isə ona "Azərbaycanın əməkdar elm xadimi" adı verirəm.

Azərbaycanın bir parçası kimi Naxçıvanda dövlətçilik sonrakı dövrlərdə, orta əsrlərdə olubdur. Azərbaycanın xanlıqlara bölünən dövründə -hər bir xanlıq Azərbaycan dövlətçiliyinin nümunəsidir, biz bu xanlıqların tarixi nöqteyi-nəzərdən belə qəbul edirik –Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı da Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. İrəvan xanlığı, Naxçıvan xanlığı Azərbaycanın başqa bölgələrinin xanlıqları –bu xanlıqlar Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar. Ancaq o dövrlərdə də ayrı-ayrı ölkələr tərəfindən Azərbaycanı, o cümlədən Naxçıvanı ələ keçirmək cəhdləri olmuşdur. Azərbaycan xalqı bunlara da sinə gərmiş, o cümlədən naxçıvanlılar da Naxçıvanı qoruyub saxlamışlar.

Nəhayət, 19-cu əsrin əvvəlində Naxçıvan Türkmənçay müqaviləsi əsasında Rusiyanın tərkibinə, Azərbaycanın başqa bölgələrində gec olaraq keçmişdir. Çünki Azərbaycanın bir hissəsi 1813-cü ildə Gülüstan müqaviləsi ilə Rusiyanın tərkibinə keçmişdir. Amma Naxçıvan xanlığı 1828-ci il Türkmənçay müqaviləsi ilə Rusiyanın tərkibinə keçmişdir. Sonra burada Rusiya hakimiyyəti başlamışdır. Bu dövr məlumdur. Ancaq əvvəlki zamanlarda olduğu kimi bu dövrdə də Naxçıvanda Azərbaycan xalqı öz milli, mənəvi dəyərlərini qoruyub saxlamışdır.

Ümumiyyətlə, Naxçıvan mütəfəkkirlərlə zəngin olmuşdur. Əgər orta əsrlərdə Azərbaycanın memarlıq sənətinin ən yüksək nümunəsi Əcəmi Naxçıvaninin yardıcılığı olmuşdursa, 12-ci əsrdə bizim mədəniyyətimizdə, ədəbiyyatımızda ən qiymətli əsərlərin müəllifi, xalqımızın ən qiymətli milli dəyəri Nizami Gəncəvi və onun yaradıcılığı olmuşdur. Həmin dövrdə Azərbaycanın ən yüksək, ən qiymətli memarlıq əsərlərini Naxçıvanda Əcəmi Naxçıvani yaratmışdır. Elə "Mömünə Xatun" məqbərəsinə baxanda, onu seyr edəndə insan heyran olur.

800 yüz il bundan öncə burada, Azərbaycanın bu ucqar diyarında, -amma o, ucqar deyildi, o vaxt Azərbaycanın mərkəzlərindən biri idi, -bu qədər gözəl memarlıq əsəri ya-





radılıbdır. Demək mədəniyyət, memarlıq, dövlətçilik nə qədər yüksək səviyyədə olub və Atabəylər dövlətinin nə qədər qüdrəti olub, mədəniyyətə nə qədər diqqəti olub ki, bu gözəllikdə "Mömünə Xatun" abidəsi yaradılıbdır. Bu, yeganə deyildir. Elə bu torpaqda Əcəmi Naxçıvaninin bir çox gözəl əsərləri var. Əcəmi Naxçıvani memarlıq məktəbi bütün Şərqə yayılmış bu məktəb Şərq aləmində müxtəlif ölkələrdə öz əksini tapmışdır.

19-20-ci əsrlər dövründə də Naxçıvan həmişə mədəniyyətə, təhsilə çox maraq göstərmiş, mədəniyyəti inkişaf etdirmişdir. Mədəniyyəti inkişaf etdirmək, milləti inkişaf etdirmək, milli ruhu yaşatmaq deməkdir. Təsadüfi deyil ki, yüz il bundan öncə Naxçıvanda dünyəvi teatr yaranmışdır. Bunu bu gün, yüz il keçəndən sonra biz yüksək qiymətləndirməliyik. Mirzə Fətəli Axundovun təşəbbüsü ilə 125 il bundan öncə ilk dəfə Azərbaycan dünyəvi teatrı yaranıbdır. O təşəbbüs öz əksini tapıb və ondan bir az sonra Naxçıvanda dünyəvi teatr yaranıbdır.

Naxçıvan çox böyük mütəfəkkirlər diyarı, böyük alimlər, sənətkarlar diyarı olubdur. Əgər yaşadığımız əsrin əvvəlini götürsək, böyük Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının fəxrinə çevrilmiş şəxsiyyətlər, onların əsərləri öz həyat yolunu buradan başlamışlar. Naxçıvanda təhsilin, ümumiyyətlə mədəniyyətin inkişafında mütəfəkkir Məhəmməd Tağı Sidqinin çox böyük rolu olmuşdur.

Mən bir neçə ad çəkirəm. Amma çoxlarının adını çəkmək olar. Çünki o vaxt Naxçıvan mühiti həqiqətən Şərqlə Qərbin birləşdiyi bir yerdə Şərq ənənələrini özündə yaşadaraq, eyni zamanda dünyəvi həyat tərzi, dünyəvi mədəniyyət sahəsində və Şərq mədəniyyətini Qərb mədəniyyəti ilə bağlamaqda, bunun sintezini yaratmaqda böyük rol oynamışdır. Mən bilirəm ki, bizim alimlərimiz Cəlil Məmmədquluzadənin yaradıcılığını həmişə yüksək qiymətləndiriblər. Ancaq açıq danışaq, əgər bir az da dərinə getsək Cəlil Məmmədquluzadə çoxşaxəli yaradıcılığı ilə, əsərləri, maarifçiliyi ilə elə o dövrdə "Molla Nəsrəddin" jurnalı ilə və başqa fəaliyyəti ilə təkrar olunmaz bir şəxsiyyətdir. Ümumiyyətlə, ədəbiyyatda, incəsənətdə, elmdə, mədəniyyətdə, tarix boyu insanların bir-ikiüç əsrdən sonra bir-birinə bənzərliyi var. Amma mən hesab edirəm ki, Cəlil Məmmədquluzadəyə nə ondan əvvəlki, nə ondan sonrakı dahi insanlar bənzəyiblər. Onun öz siması var. Onun siması da Azərbaycan xalqının inkişafı üçün dəyərli xidmətlər göstərmişdir.

Biz Hüseyn Cavid haqqında burada onun məqbərəsi açılarkən danışdıq, Bakıda da çox danışmışıq. Azərbaycan xalqı Hüseyn Cavidi çox yüksək qiymətləndirir və onun irsi əsrlər boyu yaşayacaqdır. Onun iradəsi, onun milliliyi və yaradıcılığının özünəməxsus xüsusiyyətləri gələcək nəsillər üçün də böyük örnək olacaqdır.

Yenə də deyirəm, Azərbaycanın bir hissəsi kimi Naxçıvan sonralar ərazi nöqteyinəzərindən Azərbaycanın böyük hissəsindən ayrı düşmüşdür. Təkcə ona görə yox ki, məsələn 20-ci illərdə sərhədlər bölünərkən, Zəngəzur diyarı Ermənistana veriləndən sonra Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdü. Amma ondan əvvəl də, Naxçıvanın, məsələn, Azərbaycanın paytaxtı Bakı ilə, yaxud o vaxtlar ümumiyyətlə Qafqazda mədəniyyət mərkəzlərindən biri olan Tiflislə əlaqəsi çox çətin olubdur. Bakı ilə əlaqə yaratmaq, buradan Bakıya getmək üçün bir neçə gün yol keçmək lazımdır. Dəmiryolu indi son hadisələrlə əlaqədar bağlanıbdır. Ancaq Bakıdan buraya dəmiryolu yalnız 42-ci ildə, İkinci Dünya müharibəsi zamanı çəkilib. O vaxt Sovet hökumətinə bu, çox lazım idi, çünki alman faşizmi ilə müharibədə Amerikadan kömək İrandan keçib gəlirdi,

buradan dəmiryolu vasitəsilə çox şeyləri daşımaq lazım idi, ona görə də sürətlə, tez dəmiryolu tikdilər.

Mənim xatirimdədir, biz Naxçıvanda yaşayıb böyüyən insanlar o vaxta qədər Bakıya qatarla üç sutka gedirdik: İrəvana, Tiflisə, oradan qatardan düşüb, 12 saat gözləyib başqa bir qatara minmək lazım idi. 3 sutkadan sonra gedib Bakıya çatmaq olurdu.

Yəni bunlar da Azərbaycanın başqa bölgələri ilə Naxçıvanın əlaqəsini məhdudlaşdırıb, amma Naxçıvanda inkişaf dayanmayıbdır. XX əsrin əvvəllərini götürsək, Naxçıvanda təhsil, mədəniyyət çox geniş olmuşdur. Mən xatırlatdım ki, yüz il bundan öncə teatr yaranıbdır. Bəli, bu teatr əsrin əvvəlində Naxçıvanda daim fəaliyyət göstərib və naxçıvanlılar teatra çox böyük maraq göstəriblər.

Yaxud da məktəblər. Burada çox yüksək səviyyəli məktəblər var idi. Bu məktəbləri də yaradanlar vardı. Bəli, Naxçıvanın mütəfəkkir insanları – birinin adını çəkdim –Məhəmməd Tağı Sidqi və başqaları yaradırdılar. Naxçıvan mühiti hətta Sovet hakimiyyəti qurulandan sonra da -20-ci, 30-cu illərdə də davam edirdi. Çox milli hissiyyatlarla dolu olan bir mühit idi. Mən sizə deyə bilərəm ki, o vaxtlar Naxçıvanda insanlar çox yüksək təhsil alırdılar. Naxçıvanda məktəb çox deyildi, amma məktəbdə verilən dərslər və şagirdlərin dərsləri qavraması çox yüksək səviyyədə idi.

Bunu cəsarətlə deyirəm, çünki mən özüm birinci sinifdən orta məktəbi qurtarana qədər burada oxumuşam. Əvvəl orta məktəbdə, sonra iki il Pedaqoji Texnikumda. 39-cu ildə burada Pedaqoji Texnikumu qurtarmışam. O dövrdə aldığım təhsil gələcək həyatımın bütün mərhələlərində mənə yardım edibdir. Bəziləri məndən soruşurlar ki, siz, -bağışlayın ki, mən özüm haqqında danışıram, -Azərbaycan dilini nə təhər belə səlis bilirsiniz? Bu sual da təbiidir, çünki bilirlər –o təşkilatlarda ki, mən işləmişəm, onların həmısında rus dili işlənirdi. Bilirlər ki, mən ali məktəbdə rus sektorunda oxumuşam, sonra Leninqradda, Moskvada xüsusi məktəblərdə oxumuşam, onlar da hamısı rus dilində idi. Yəni, demək olar ki, 16 yaşımdan sonra mənim bütün təhsilim, iş fəaliyyətim rus dilində gedibdir. Ona görə də soruşurlar ki, sən Azərbaycan dilini haradan bilirsən? Bu gün sizə səmimi qəlbdən deyirəm ki, 16 yaşa qədər Naxçıvan məktəbində müəllimlərimin mənə verdiyi dərslər, o cümlədən başqaları ilə bərabər ana dili, ədəbiyyat dərsləri mənim bugünkü dilimin əsasını təşkil edir.

Ona görə mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm, çox böyük şəxsiyyətlər görmüşəm. Yadda qalanları da, qalmayanları da var. Az yadda qalanı var, çox yadda qalanı var. Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimi Lətif Hüseynzadə, Abbas Əsgərov, Cəlil İsgəndərov vardı, müharibəyə getdi, qayıtmadı, çox gözəl ədəbiyyat dərsi deyirdi.

O vaxt mənə burada rus dilini yaxşı öyrətdilər –Həsən bəy Qazıyev. Mən gənc vaxtlarımdan riyaziyyatı çox sevirdim. Riyaziyyatı, yəni dəqiq elmləri çox sevməyimin də səbəbkarı yenə də müəllimlərim olmuşdur. Çox gözəl bir müəllimimiz vardı –Tofiq Bəktaşi. Gözəl müəllimimiz vardı, həm riyaziyyat, həm fizika dərsi deyirdi –Murad Tutayoq. Çox gözəl bir botanika, biologiya müəllimimiz vardı –Əsəd Cəfərli. Gözəl müəllimimiz vardı, həm də mən pedaqoji texnikumu bitirərkən oranın direktoru idi –Kazım Talıblı. Çox gözəl müəllim idi. Çox gözəl tarix müəllimimiz var idi –Əli Əliyev. O, yə-





qin ki, indi buralardadır, yaxud rəhmətə gedibdir, Allah rəhmət eləsin.

Deyirlər Lətif Hüseynzadə yaşayır, çox sağ olsun, Allah onu daha da çox yaşatsın. Rəhmətə gedənlərə Allah rəhmət eləsin. Yaxşı kimya müəllimimiz vardı –Əsgər Əhmədov, sonra orduya getdi, hərbçi oldu, böyük xidmətlər göstərdi. Yenə də tarix müəllimimiz vardı –Əbülfəz Həsənov, çox yaxşı müəllim idi.

Vaxtınızı almaq istəmirəm. Bu, mənim üçün əzizdir, bəlkə sizin üçün o qədər də maraqlı deyildir. Mən Naxçıvana gələndə bunlar hamısı yadıma düşür, ona görə də bu sözləri deməsəm mümkün deyildir. Mən sadəcə, özümü saxlaya bilmirəm, gərək bunları deyim. Yəni bununla onu demək istəyirəm ki, burada çox güclü məktəblər, güclü müəllimlər var idi. Təsadüfi deyil ki, Azərbaycanda elə bu gün də, on il də, iyirmi il də, otuz il də bundan öncə böyük alimlərin, elmlə məşğul olan insanların –akademiklərin, professorların universitetlərdə dərs verənlərin, yaxud elmlər akademiyasında, elmi tədqiqat institutlarında çalışanların çoxu öz həyat yollarını Naxçıvandan başlayıblar. Burada mühit də buna şərait yaradıbdır. Ancaq buradakı məktəblər, ümumiyyətlə məktəb mühiti də şərait yaradıbdır.

Naxçıvanın çox gözəllikləri var. Birincisi, onun təbiətidir. Azərbaycanın hər yerində gözəl guşə tapmaq olar. Haraya gedirsən, Azərbaycan gözəl bir yerdir. Amma mən bu gün Naxçıvandayam və Naxçıvan haqqında danışıram. Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. Bax, ətrafda görünən dağlar, qayalar çılpaq torpaqlar, - burada yaşıllıq azdır, -bu diyara xüsusi gözəllik verir, ancaq bu gözəllik, yenə də deyirəm, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi, insanlar da məğrurdular. Mən bu fikri bir dəfə demişəm, bir də təkrar etmək istəyirəm ki, Naxçıvanın gözəlliyi kişi gözəlliyidir. Güman edirəm, siz məni düzgün başa düşəcəksiniz. Mən bu sözü izah etməliyəm, ola bilər sonra başqa cür başa düşərlər.

Ümumiyyətlə, həyatda hamı "gözəl" deyəndə ancaq qadını nəzərdə tutur: Qadının gözəlliyi. Tarix boyu bizim ulu babalarımız həmişə gözəl qadınlar haqqında yazıblar. Nizami Gəncəvi də gözəl qadınları vəsf edib –"Leyli və Məcnun"da. Füzuli də, başqası da. Təkcə Azərbaycanda deyil, ümumiyyətlə bəşəriyyətdə qadın gözəlliyin rəmzidir. Kişiyə adətən gözəl deməzlər. Bəzən gözəl desən də, bəlkə acığına gələr. Amma kişiyə məxsus da gözəllik var. O gözəllik həmin o dağların gözəlliyidir, burada olan gözəl, ancaq sərt təbiətin iqlimin gözəlliyidir. Bütün bu təbiət buradakı insanlara müəyyən qədər xüsusiyyətlər verir. Xüsusiyyətlərdən isə, -mənə elə gəlir, mən belə düşünürəm, -ən dəyərlisi odur ki, naxçıvanlılar həmişə milli şüurla yaşamışlar. Millilik, azərbaycançılıq, milli şüur Azərbaycanda həmişə yüksək olmuşdur. Mən demək istəyirəm ki, Azərbaycanın harasında yüksək olub, harasında az olubdur, -bu sözlərdən kənaram. Ancaq naxçıvanlılarda milli qürur, milli şüur, milli hisslər, milli mənlik bir tərəfdən bunları bu sərt iqlimdə daim çalışmağa, daim özünü yaşatmağa, eyni zamanda döyüşkən olmağa sövq edibdir. Naxçıvanlılar cəsarətlidirlər, döyüşkəndirlər.

Naxçıvanın tarixindən çox şey demək olar. Ancaq bizim yaxın tarixdən sizə deyə bilərəm: Naxçıvanda milli şüur, milliliyin nə qədər dərin olması və insanların, demək olar, hamısına xas olması.

1988-ci ildə Ermənistan Azərbaycana qarşı təcavüz etdi.

Azərbaycanın böyük bəlaları başlandı. Sovet hakimiyyəti, Sovet hökuməti, Moskva hökuməti, Qarbaçov rəhbərliyi Azərbaycana qarşı ədalətsizlik etdi. Dağlıq Qarabağ-

da olan münaqişənin qarşısı alına bilərdi. Ancaq alınmadı və Azərbaycan ağır vəziyyətə düşdü. Azərbaycan xalqının iradəsini, milli oyanış prosesini qırmaq üçün Sovet hökuməti, Moskva 90-cı il 20 yanvar hadisələrini törətdilər. Qoşun yeridi, bir gecə də günahsız insanlar qırıldı, qan töküldü, şəhidlər verildi.

Azərbaycanın rəhbərliyi nəinki fəaliyyətsizlik göstərdi, Azərbaycanın o vaxtkı rəhbərliyi millətinə qarşı satqınlıq elədi. Həmin o yanvar hadisələri ilə əlaqədar dövlət xadimləri yox, Azərbaycanın rəhbərləri yox, Azərbaycan xalqını öz başına toplayan, indi bizim aramızda olan hörmətli şairimiz Bəxtiyar Vahabzadə ehtiraz səsini ucaltdı. Millət ayağa qalxdı, bu təcavüzə etiraz etdi. Ancaq Azərbaycanın o vaxtkı rəhbərləri bunu yatırmağa çalışdılar.

Mən Moskvadaydım, bir iki dəfə televiziya ilə göstərdilər ki, insanlar kütləvi surətdə Kommunist Partiyasının biletlərini necə tonqala atır, yandırırlar. Amma Azərbaycanın rəhbərliyi bunların qarşısını almaq istəyirdi.

Bəs, Naxçıvanda vəziyyət nə təhər idi? Ermənistanın təcavüzü şəraitində buradan, oradan rus qoşunları daxil olurdu. Yanvarın 19-da Naxçıvan Muxtar Respublikasının Ali Soveti yığışdı, iradə göstərdi və Naxçıvan Muxtar Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi. Bu, təsadüfi hal deyildir. Bu, Naxçıvanda milli ruhun, müstəqilliyə bağlılığın, müstəqillik üçün çalışmağın, azad olmağın rəmzi idi. Bax, bütün bunlar hamısı bir daha, bir daha mənə əsas verir deyəm ki, Naxçıvanın xüsusiyyətlərindən biri də burada milli ruhun, milli şüurun, azərbaycançılığın çox yüksək səviyyədə olmasıdır.

Vasif Talıbov burada dedi, ondan sonrakı hadisələrdə də 90-cı ildə hələ sovet hakimiyyəti möhkəm yerində idi. Azərbaycanın rəhbərləri də, yanvar hadisələrindən özləri üçün nəticə çıxarmayaraq, tökülmüş qanların üzərində hakimiyyətə yenidən gələrək hakimiyyəti ələ keçirərək Azərbaycanı yenə də Moskvanın əlində, SSRİ-nin tərkibində, Kommunist Partiyasının əlində saxlamaq istəyirdilər.

Amma Naxçıvanda vəziyyət necə idi? Mən o vaxt, 90-cı ildə Moskvada sizə məlum olan təqiblərdən can qurtarmaq üçün çox böyük əziyyətlərdən keçərək Bakıya gəldim. Vətənimə gəldim ki, bəlkə Vətənimdə bir az rahat yaşaya biləm, bəlkə, bu təqiblər olmasın. Ancaq o vaxt Azərbaycanın o satqın rəhbərləri, Moskvaya yaltaqlıq edən və öz kürsülərindən qorxan rəhbərləri mənə Bakıda yaşamağı qadağan etdilər.

Təsəvvür edin. Burada 30 il müddətində görülən işlər haqqında məlumatlar verildi. Bunlar təkcə burada yox, Azərbaycanın hər yerində məlumdur. Mən buraya gələndə hər dəfə görürəm, -23-cü ildə burada anadan olmuşam, 30-cu illərdə, 40-cı illərin də bir hissəsini burada yaşamışam, ondan sonra buradan getmişəm, -Naxçıvanda nə vardı, Naxçıvan xanlarının tikdikləri binalardan savayı başqa heç bir bina yox idi. Mənim oxuduğum məktəb, –o, bina indi durur. Tibb texnikumu adlanır, -vaxtilə kiminsə tərəfindən tikilmiş Qızlar Gimnaziyası olubdur. Həm dövlət orqanları, həm məktəblər belə binalarda yerləşirdi. Yaxud da Naxçıvan xanlarının, Cəfərqulu xanın böyük bir binasını götürüb poliklinika etmişdilər. Cəfərqulu xanın indi xalça muzeyi olan böyük sarayını da o vaxt Tibb Texnikumu etmişdilər, sonra da orada Kənd Təsərrüfatı Tüxnikumunu yerləşdirdilər.

Yəni bu binalardan savayı başqa bir şey yox idi. Sonrakı illərdə az-çox tikildi. Ancaq məni düzgün başa düşün, fəxr edirəm ki, Azərbaycanın hər yerində olduğu kimi, mən burada da öz əsərlərini görürəm. Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir və sair və sair və sairdir.





Mən bu gün fəxr edirəm ki, 1970-ci ildə Bakıda indi bizim müstəqil dövlətimiz üçün çox mötəbər olan br sarayı, Respublika sarayını yaradandan sonra belə bir sarayı da Naxçıvanda yaratmağa çalışdım. Çalışdım və bu sarayı da mən yaratdım.

Bunları nə üçün deyirəm? Ona görə yox ki, sizə özümü tərifləyim, yaxud özümü təbliğ edim. Buna ehtiyacım yoxdur. Mən bunu ona görə deyirəm ki, bu cür bir Azərbaycan vətəndaşına, Bakını qurub yaradan Azərbaycan vətəndaşını Bakıda yaşamağa imkan vermədilər. Məni Bakıdan çıxartdılar. Məcbur oldum, Moskvaya dönə bilmərəm, Bakıda məni hədələyirlər, orada yaşaya bilmərəm, -uçdum gəldim buraya. Burada yaşadım.

Naxçıvanda yaşadığım müddətdə burada olan həmin o milli əhval-ruhiyyəni, milli ruhu gördüm. Bunu mən gördüm. Həqiqət naminə demək lazımdır ki, o vaxt bu sahədə Xalq Cəbhəsinin də rolu böyük idi. Mən heç bir həqiqəti unutmuram. Xalqın hamısı coşmuşdu, hamısı ayağa qalxmışdı. Xalqda olan o dağ –milli ruh qalxmışdı. Ona görə də 90-cı ilin 19 yanvarında SSRİ-dən çıxmaq haqda qərar qəbul edilmişdi.

Sonrakı dövrdə burada cəsarətli addımlar atıldı. Bəli, 90-cı ilin noyabrın 17-də biz burada, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Yəni biz bunu küçə və meydanda qaldırmadıq, - orada bu bayraq qaldırılırdı. Amma biz bir dövlət kimi Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ Kommunist Partiyası da var idi, Sovet Hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikası adından "Sovet Sosialist" sözləri çıxarılmalıdır. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunmalıdır –milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli baraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq.

Bakıda fövqəladə vəziyyət davam edirdi, yanvar hadisələrinə qiymət verilmirdi. Ola bilər, düşünəydilər ki, naxçıvanlıların nə işi var –Bakıda fövqəladə vəziyyət var yoxsa yox, yaxud Bakıda yanvar hadisələri olubdur. Burada, sessiyada qərar qəbul etdik ki, yanvar hadisələrinə siyasi qiymət verilməlidir, Bakıda fövqəladə vəziyyət aradan götürülməlidir. Bir neçə belə siyasi qərar qəbul etdik. Azərbaycan isə indi bizim müstəqil dövlətimizin bayrağı olan bayrağı Naxçıvanda o bayraq qalxandan yalnız bir neçə ay sonra, 91-ci ilin fevral ayında qəbul etməyə məcbur oldu.

Amma yenə də yarımçıq qəbul etdilər. O bayrağı qəbul etdilər. Deputat kimi mən də gəlib salonda oturdum. Gördüm ki, bir yerdə bu bayraqdır, onun da yanında Leninin büstü durur. Bu qədər riyakarlıq ola bilərmi?

Mən çıxış edəndə başqa fikirlərlə yanaşı, bunu da dedim. Dedim ki, mən anlaya bilmirəm, - burada, bu salonda Azərbaycan Xalq Cümhuriyyəti milli bayrağı ilə yanaşı, o cümhuriyyətin ideologiyasına zidd olan ideologiyanın banisinin büstü durubdur. Mən bunu anlaya bilmirəm. Doğrudur, yenə də orada məni müdafiə edənlər az oldu, mənim əleyhimə sözlər danışıldı. Amma bunlar hamısı, yenə də deyirəm, Naxçıvanda milli şüurun, milli ruhun nə qədər yüksək olduğunu göstərir.

91-ci ilin mart ayında Azərbaycanda sessiya keçirilirdi ki, Sovet İttifaqı saxlanılsın, ya saxlanılmasın. Biz bunu bilirdik. Hələ ondan üç-dörd ay öncə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qərar qəbul etdik: Azərbaycan referenduma getməməlidir və Sovet İttifaqının saxlanılmasına tərəfdar çıxmalıdır.

Qərarı Bakıya, Azərbaycanın Ali Sovetinə göndərdik. Ancaq fikir vermədilər, sessiya keçirildi. Deputatların bir qismi, təbii ki, o cümlədən mən də referendum keçirilməsinin əleyhinə çıxdıq. Amma Azərbaycanın o vaxtkı rəhbərləri özlərini, ancaq özlərini saxlamaq üçün Moskvaya xidmət etməli idilər. Kommunistlər 17 martda referendum keçirdilər. Naxçıvan Muxtar Respublikası Azərbaycanın yeganə bölgəsidir ki, SSRİ-nin saxlanılması ilə əlaqadar 17 mart 91-ci ildə keçirilən referendumda iştirak etmədi.

Deməli, görürsünüz, burada milli azadlıq, milli istiqlaliyyət ruhu nə qədər güclü idi. Ona görə də Naxçıvanda belə müstəqil qərarlar qəbul edilirdi. Bu qərarların qəbul edilməsində, şübhəsiz ki, mənim də xidmətim az olmamışdır.

Bu gün Naxçıvan ağır blokada şəraitində yaşayır. Onun ən ağır dövrünü mən naxçıvanlılarla bir yerdə yaşadım -90-cı ildən 93-cü ilə qədər. Burada fəlakətli bir vəziyyət var idi. İndi çox hörmətli qonaqlar gəliblər. Amma o vaxt Naxçıvana gəlib gedən yox idi. Yox idi Naxçıvana gəlib gedən! Bəzən çağırır, xahiş edirdik. Buraya kiçik konsert qrupu gələndə sevinirdik. Düzdür, qışda bu salonda soyuqdan oturmaq olmurdu, hamımız paltoda otururduq. Amma yenə də yığışırdıq. Bir-iki-üç nəfər, bəli, Niyaməddin Musayev o vaxt cəsarət göstərdi, qorxmadı. Naxçıvana gəldi, burada konsert verdi və biz hamımız böyük sevgi, məhəbbətlə onun musiqisinə, mahnılarına qulaq asdıq.

Ağır vəziyyət idi. Elektrik enerjisi kəsilmiş, qaz kəsilmişdi. Bəli, burada deyildi, -mən 70-ci illərdə Azərbaycanın bütün bölgələrini, ən ucqar dağ kəndlərini qazlaşdırdım. O cümlədən, Naxçıvanın ən uzaq dağ kəndlərinə qaz çəkdirdim. Burada qaz kəsildi, elektrik enerjisi kəsildi, yollar bağlandı, dəmiryolu bağlandı. İndi buraya böyük təyyarələrlə uçmaq olar. Ancaq onda burada kiçik bir təyyarə meydanı vardı, JAK-40 təyyarəsi cəmisi, 22-23 adam götürürdü, o da üç-dörd reys edirdi.

İnsanlar ağır vəziyyətdə yaşayırdı. Naxçıvanın qışı çox şaxtalıdır. Biz gecə dona-dona yatırdıq. Səhər əlimizi yumağa su tapmırdıq. Yaxşı xatirimdədir, məlumat gəldi ki, Şərur rayonun doğum evində bir qadın uşaq doğub, sonra gedib evə. Uşaq evdə donub, ana donmuş uşağı gətirib doğum evinin baş həkiminin üstünə atıb ki, götürün. Dəhşətli faciədir!

Mən Şərura gedirdim. Vaxtilə yol boyunca gözəl ağaclar əkilmişdi. Qar dizə qədər idi. Gördüm ki, qadınlar əyinlərinə cürbəcür palaz-paltar keçiriblər, ağacları mişarlayır, kəsirlər. Gəldim bunların yanına dedim ay bacılar, ay qardaşlar, axı, nə edirsiniz? Bu ağaclar sizə lazımdır. Dedilər ki, bilirik, bizə lazımdır, biz bu soyuğa dözürük, amma uşaqlarımız donur. Burada nə qədər uşaq şaxtadan donub öldü. Bax, belə ağır şəraitdə biz yaşadıq. Yaşadıq, amma Naxçıvan əyilmədi. Naxçıvan öz iradəsindən dönmədi. Naxçıvan yaşadı və naxçıvan bu günlərə çıxdı.

Bilirsiniz, Naxçıvana ögey münasibət Azərbaycanda Sovet hakimiyyəti vaxtında demək olar ki, həmişə olubdur. Hətta məlumdur ki, naxçıvanlılar burada çox hay-küy salanda Azərbaycanın bəzi rəhbərləri demişdilər ki, Naxçıvan bizim üçün bir apendisitdir, onu kəsib atmaq lazımdır. Yəni çoxları hazır idilər gəlib Naxçıvanı işğal etsinlər ki, onların canı qurtarsın. Çünki Naxçıvan onlara çox böyük narahatlıqlar verirdi. Belə ögey





münasibət çox olubdur.

Ancaq bu da həqiqətdir ki, mən Azərbaycana rəhbərlik etdiyim zaman bu ögey münasibət aradan götürülübdür. Təəssüflər olsun ki, mən gedəndən sonra Naxçıvana bu ögey münasibət yenə də başlandı. Axı belə olmaz! Azərbaycanın hər yeri Azərbaycanın rəhbərləri üçün doğma olmalıdır. Başqa cür olmaz!

Bu gün mənim Naxçıvana münasibətim eyni zamanda Yardımlıya, Lənkərana, Qusara, Gəncəyə münasibətim kimidir. Qətiyyən fərqi yoxdur. Amma bura ağır şəraitdə olduğuna görə gərək o illər heç olmasa düşünəydilər ki, gəlib burada insanların yaşayışı ilə maraqlansınlar. Nə gələn, nə gedən, nə də maraqlanan var idi. Heç bir şey yox idi –"ölürsünüz ölün, qalırsınız qalın." O vaxt bizə kömək edənlər kimlər olubdur? Birinci növbədə Türkiyə Cümhuriyyəti və onun lideri, əziz dostumuz, qardaşımız prezident Süleyman Dəmirəl. Qeyri-adi bir hal idi, -biz qısa bir müddətdə onlarla danışıqlar apardıq. Araz çayı üzərində həmin o həsrət ümid körpüsünü yaratdıq. Şübhəsiz ki, körpünü Türkiyə hökuməti tikdi, -bizim o vaxt imkanımız yox idi, -amma biz fəhlələrimizlə, başqa imkanlarımızla, texnika və sairə ilə orada iştirak edirdik, kömək göstərirdik. Belə bir körpü tikmək bizim, bir azərbaycanlı kimi şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi, -bizi Türkiyədən ayırıblar. Türkiyə ilə bizim cəmisi 11 kilometr, o da Naxçıvanda, sərhəddimiz var, bu sərhəddən Araz çayı keçir, heç bir şey mümkün deyildi, –bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı.

Mən özümü çox xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsində, yaranmasında təşəbbüskar oldum, iştirakçı oldum. Biz dostumuz Süleyman Dəmirəlin və Türkiyə hökumətinin himayəsi, köməyi ilə bunu etdik. Naxçıvan Türkiyə açıldı. Bu, bizi xilas etməyə başladı.

Elektrik enerjisi yox idi, haradan alaq? Yenə də Türkiyə köməyimizə gəldi, elektrik xəttləri çəkdilər. Xatirimdədir, o elekrtik xəttlərini çəkən türkiyəli adamlar 40 dərəcə şaxtada dirəklərin üstündə durub əlləri dona-dona bu xəttləri çəkirdilər. Çünki bizi xilas etmək lazım idi. Mən onlardan xahiş etdim, elektrik xətti çəkdilər, bizə bir az elektrik enerjisi verdilər.

Körpü açılandan sonra ticarət başlandı. Mən Türkiyəni bir neçə dəfə ziyarət etdim. Qeyri-adi bir hal idi ki, Türkiyənin o vaxtkı Baş naziri hörmətli Süleyman Dəmirəl qərar qəbul etdi ki, Naxçıvana 100 milyon dollar dəyərində kredit verilsin və həmin kredit hesabına Naxçıvana ərzaq alınıb gətirilsin.

Bu, bizim üçün xilas idi. Amma Azərbaycanın o vaxtkı rəhbərləri, –onda Azərbaycana Xalq Cəbhəsi rəhbərlik edirdi, -onların buradakı nümayəndələri bunun əleyhinə çıxdılar. Onlar mənə suallar verirdilər ki, mən onda Ali Məclisə sədrlik edirdim, bu barədə məlumatlar verirdim, -Siz bu kreditləri nə cür qaytarcaqsınız, nə zaman qaytaracaqsınız, bunu Azərbaycanın hesabına qaytaracaqsınız? Dedim, ay qardaş, birincisi, bəs Naxçıvan Azərbaycanın deyilmi? İkincisi, sənin nə dərdinə, sənin niyə qarnın ağrıyır ki, biz bunu nə cür qaytaracağıq?

Mən bilirdim ki, onu kredit adı ilə bizə yardım kimi vermişdilər. Başqa cür ola bilməzdi. Bu, Türkiyənin bizə münasibəti. Azərbaycanın o vaxtkı rəhbərləri o zaman mənim haqqımda orda-burda nə qədər danışıqlar aparırdılar ki, "Heydər Əliyev bizim dövlətçiliyimizi pozur, Türkiyəyə gedir, oradan öz başına kredit alır, filan edir". Mənim əleyhimə bu işləri həmin Xalq Cəbhəsinin rəhbərliyi aparırdı.

Mən sonra İrana getdim. Mən oraya getməmişdən qabaq danışıqlar apardıq, İrandan Naxçıvana elektrik xətti çəkdik. O işdə çətin vəziyyətdə oldu. Biz Naxçıvana Türkiyədən, İrandan elektrik xəttləri çəkib gətirdik, çətin vəziyyətdən bir az çıxdıq. Amma indi də çətinlik var. Mənim yaşadığım evdə bu gün elektrik işığı iki dəfə sönmüşdü. İndi də vəziyyət belədir. Hazırda bizim Bakıda və yaxud başqa bir yerdə elektrik işığı sönəndə hay-küy salırlar. Mənim yaşadığım evdə bu gün səhər iki dəfə böyük fasilə ilə elektrik işığı sönmüşdü. Amma Naxçıvan belə vəziyyətdə yaşayır.

O vaxt mən İrana getdim. Biz Azərbaycana kömək üçün orada böyük protokollar bağladıq. Mən deyə bilərəm ki, o zaman və ondan sonra da İran İslam Cümhuriyyəti Naxçıvana bir çox vasitələrlə kömək edibdir. O vaxt bizim o ağır vəziyyətimizdə kömək edib, indi də sərhədləri tamam açaraq, Naxçıvan əhalisini İrana, İran əhalisinin Naxçıvana gediş gəlişini sadələşdirərək burada insanların ticarət aparması, yaşaması üçün çox gözəl şərait yaradıbdır. Mən İrana getdim ki, Naxçıvanı xilas etmək üçün bir kömək əldə edim. Mən ora gedən kimi Xalq Cəbhəsi hökumətinin xarici işlər naziri Tofiq Qasımov İrana nota verdi ki, siz, nə bilim, "dövlət qanunlarını pozursunuz, Naxçıvan Muxtar Respublikasının müstəqil xarici siyasət aparması səlahiyyəti yoxdur, siz prezidentin təyyarəsini Naxçıvana göndərmisiniz, Heydər Əliyevi Tehrana aparmısınız".

Mən İrana gələndə, ikinci gün o notanı mənə göstərdilər. Soruşdum ki, nə deyirsiniz? Dedilər ki, onlar cəhənnəm olsunlar. Bildirdilər ki, biz nə etdiyimizi bilirik, Naxçıvanda bizim qardaşlarımız yaşayır. Görürük ki, onlar ağır şəraitdədirlər. Sizi də böyük bir siyasi xadim kimi tanıyırıq. Siz bura müraciət etmisiniz, biz də Sizə yardım edirik. Əgər onlar özləri yardım göstərə bilirlərsə etsinlər.

Yəni özləri Naxçıvanı başlı başına buraxmışdılar. Biz də burada əlimizdən gələni etməyə çalışdığımız zaman onun qarşısını alırdılar. Mütəllibov hakimiyyəti, Xalq Cəbhəsinin hakimiyyəti zamanı da bu, belə idi. Amma sonra Allah nə yerə gətirib çıxardı? Allah o yerə gətirib çıxardı ki, Xalq Cəbhəsinə xalq etimadsızlıq göstərəndə, Bakıda Xalq Cəbhəsi hökumətini dağıdanda və Surət Hüseynov öz qoşunları ilə hücum edib onları dar ağacından asmaq haqqında bəyanatlar verəndə onlar yenə də üzlərini Naxçıvana tutdular.

Tarixin həqiqətləri budur. Mən həyat yolunda uzun müddət yüksək vəzifələrdə işləmişəm. Amma ağır bir dövrüm də olubdur. Ancaq özümü xoşbəxt hesab edirəm. Mənim ağır dövrümdə Moskvadan qurtara bildim. Bakıda mənə yer vermədilər, nəinki yer vermədilər, məni oradan inzibati surətdə çıxardılar. Naxçıvana gəldim. Naxçıvan məni öz qoynuna aldı, qorudu, saxladı, mən də onları qorudum, mən də onları saxladım.

Xatirimdədir, 1993-cü ilin iyun ayında Azərbaycanda dövlət böhranı və vətəndaş müharibəsi olduğu halda, Bakıdan və Azərbaycanın bir çox digər yerlərindən müraciət etdilər ki, mən Bakıya gəlim. Şübhəsiz ki, mən Bakıya gəlmək istəmirdim və gələ də bilməzdim. Ancaq bununla bərabər, Azərbaycanın o vaxtkı rəhbərliyi başda Əbülfəz Elçibəy olmaqla, dörd gün iyunun 5-9-dək mənimlə danışıqlar apardılar və mənim Bakıya gəlməyimi xahiş etdilər. Yenə də getmək fikrim yox idi. Çünki Naxçıvanın ağır dövrünü yaşamışdım, hesab edirdim ki, ömrümün sonuna qədər də burada yaşayacağam. Ancaq bu qədər tələblər, xahişlər, bu qədər insanlar...

Azərbaycandakı vəziyyətlə tanış olanda gördüm ki, doğrudan da Azərbaycan dağılır. Buradan yola düşəndə həqiqətən belə fikir də idim ki, mən gedib orada 3-4 gün məs-





ləhətlərimi verərəm, kömək edərəm, bir həftəfən sonra yenə də qayıdıb gələrəm.

Mən buradan gedəndə camaat toplaşdı. Ali Məclisin qarşısında ağlaşma başlandı. Qadınlar, kişilər yığışdılar, dedilər ki, bizi qoyub hara gedirsən? Nə deyim, doğrudan da nəyə gedirdim –bilmirəm, hara gedirdim –bilmirəm, başıma nə gələcək bilmirəm? Heç bir şey bilmirəm. Bilirdim ki, özümü odun içinə atıram. Amma eyniz zamanda, fikrim belə idi ki, mən orada müəyyən xidmətimi göstərib öz yerimə qayıdacağam. Ona görə də əlimi qaldırıb dedim ki, iki gündən sonra qayıdıram. Bunlar sevindilər. Getdim, amma qayıda bilmədim.

Xatirimdədir, bir dəfə Bakıda veteranlarla görüşdük. Naxçıvandan, deyəsən Böyükdüzdən olan bir qadın –o, bəlkədə indi buradadır.

Yerdən səs: Mən burdayam, adım Zərifədir.

Heydər Əliyev: Zərifə xanım veteranların arasından ayağa duraraq danışdı, axırda mənə dedi ki, Siz niyə bizi aldatdınız? Soruşdum ki, necə aldatdım? Dedi ki, xatirinizdədir, biz Sizi buraxmırdıq. Yığışıb Sizi yola salanda bizə dediniz ki, mən iki günə qayıdacağam. Amma indiyə qədər qayıtmamısınız. Dedim ki, istəyirsən indi qayıdım? Cavab verdi ki, yox, görürəm, burada da lazımsınız.

Mən bu gün, bu bayram günü Naxçıvan əhalisinə, hər bir naxçıvanlıya hədsiz təşəkkürümü bildirirəm ki, o ağır üç ili bir yerdə yaşadıq, bir yerdə çalışdıq, Naxçıvanı ermənı təcavüzündən, dağılmaqdan qoruduq. İndi Naxçıvan böyük inkişaf yoluna düşübdür.

Son illər Naxçıvanın həyatında böyük dəyişikliklər əmələ gəlibdir. Baxmayaraq ki, yenə də elektrik enerjisi çatmır, qaz yoxdur, Bakı ilə əlaqələr məhduddur. Bütün bunlara baxmayaraq, Türkiyə ilə, İranla əlaqələr genişdir. Xüsusən naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir və Naxçıvanda quruculuq prosesi gedir.

Məni düz başa düşün, Azərbaycanın hər yeri mənim üçün əzizdir. Amma əgər Naxçıvanda belə ağır vəziyyətdə məktəb binası tikilə bilirsə, buraya daş gətirmək mümkün deyil, burada kərpic zavodu, mişar daşı və başqa şeylər yoxdur, -əgər xəstəxana, universitet binaları tikilirsə, bəs başqa yerdə niyə tikilmir? Demək, bu, təşəbbüsdən, fədakarlıqdan asılıdır.

Naxçıvanda gedən bu işgüzar quruculuq prosesi məni sevindirir. İnsanlar bu gündə çətin, ağır yaşayırlar. Bilirəm ki, ağır yaşayırlar. Amma naxçıvanlıların bir xüsusiyyəti vardır –nə qədər çətin yaşasa da özünü heç vaxt sındırmaz. Özünü sındırmayıb deyəcək ki, mən yaxşı yaşayıram. Çünki eyş-işrət, bər-bəzək və sairə naxçıvanlılara heç vaxt xas olmayıbdır. Mən bunları heç vaxt görməmişəm.

Belə bir ağır şəraitdə qurmaq, yaratmaq naxçıvanlıların nə qədər fədakar olduğunu bir daha göstərir. Məsələn, Vasif Talıbov dedi, -biz Azərbaycanda ilk dəfə 1992-ci ildə burada torpaq islahatına başladıq. Mən gördüm ki, kolxozlar mal-qaranı onsuz da dağıdır. Kolxoz sədri hər ay hesabat verəndə göstərirdi ki, inək, qoyun və sairə əvvəlkindən azdır. Fikirləşdim ki, əgər beş-altı ay da belə olsa, bunun hamısını yeyib qurtaracaqlar. Nə etmək? Həmin o mal-qaranı kolxozçulara güzəştli qiymətə satmaq lazımdır. Biz də satdıq. Beləliklə, mal-qara özəlləşdi. İndi deyirlər ki, nə qədər artıbdır. Nə qədər nə iribuynuzlu mal, nə də xırdabuynuzlu mal muxtar respublikanın tarixində, hətta mənim Azərbaycana rəhbərlik etdiyim o inkişaf dövründə də Naxçıvanda olmayıbdır.

O ağır illərdə bizim bazar iqtisadiyyatına, islahatlara başlamağımızın nəticəsi budur. Mən Azərbaycanda torpaq islahatı haqqında qanunu keçirmək üçün neçə il əziyyət çəkdim. Nəhayət, 1996-cı ildə biz onu Millli Məclisdən keçirə bildik. Nə qədər müqavimətlər var idi! Amma biz bunu Naxçıvanda qanunsuz-filansız etdik. Yəni Ali Məclisin bu barədə qərarı var idi, biz də bu işi görməyə başladıq, torpağı payladıq.

Naxçıvan Muxtar Respublikasında dağ kəndləri var. Orada yaşayış çətindir, torpaq azdır. O vaxt məhsulun bir hissəsini kolxoz sədri, bir hissəsini hesabdar, bir hissəsini ferma müdiri yeyirdi, polis rəisi gəlirdi ki, mənim də payımı ver. Şübhəsiz ki, raykom katibinə də bir şey vermək lazım idi. Mən bunların hamısını bilirdim. Ona görə də dedim ki, həmin o xırda kəndlərdə torpaqları, mal-qaranı kəndliyə verin. Özününkü olanda o, torpağı yaxşı becərəcək, mal-qaranı bəsləyəcək, məhsul götürəcəkdir. Onun nə kolxoz sədri, nə hesabdarı, nə ferma müdiri olacaqdır, polisin qarşısında da birtəhər dura bilər. İndi bunlar çox gözəl nəticələr veribdir.

Yəni biz Naxçıvanda həm müstəqilliyi əldə etmək, həm Azərbaycanda iqtisadi islahatlar həyata keçirmək, həm respublikamızı bazar iqtisadiyyatı yolu ilə aparmaq, həm də ölkəmizdə hüquqi, demokratik dövlət qurmaq üçün Naxçıvan ilk təşəbbüskarlardandır. Fəxr edirəm ki, mən bu təşəbbüslərin iştirakçısı olmuşam. Ona görə də bu bayram günündə mən qəlbimdə olan bu sözləri sizə çatdırmağı özümə borc bildim.

Güman edirəm ki, bəzən mənim şəxsi hissiyyatlarım haqqında sözlərimi də siz düzgün başa düşəcəksiniz. Çünki mən insanam. İnsan insana xas olan hər bir xüsusiyyətə malik olmalıdır. Bax, bu xüsusiyyətlərə görə də mən qəlbimdə olan bu sözləri sizə deyirəm.

Mən naxçıvanlıları, bütün Azərbaycan xalqını bu bayram münasibətilə bir daha təbrik edirəm. Bəyan edirəm ki, Naxçıvan Muxtar Respublikasının muxtariyyat, dövlətçilik, statusu daimidir, əbədidir.

Təəssüf ki, indi bəzi siyasətçilər meydana çıxıb, Azərbaycanda bir söz var –"hələ yumurtasından çıxmamış bir cücə kimi" bəyanatlar verirlər ki, "Azərbaycan unitar dövlətdir, burada muxtariyyat ola bilməz, bu muxtariyyatı ləğv etmək lazımdır." Məni yandıran da budur ki, başa düşürsünüz bunu edənlər naxçıvanlılardır. Mən həmin o cocuqlara –necə deyərlər, siyasətə qatılmış, amma siyasətin nə olduğunu görməyən, dövlətçiliyin nə olduğunu bilməyən, dövlət, idarə işində bir gün də işləməyərək böyük iddialarla yaşayan adamlara –hamısına cavab verirəm ki, Naxçıvanın muxtariyyatı tarixi hadisə olubdur. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyatını gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənətdir.

Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyat hüququ veriblər. Bu muxtariyyat hüququ bu çətin vəziyyətdə yaşamaqda, inkişaf etməkdə Naxçıvana böyük şərait yaradıbdır. Amma Naxçıvanın bundan sonra da buna ehtiyacı vardır, müstəqil Azərbaycan dövlətinin içində buna ehtiyacı vardır. Ona görə də biz bunları tamamilə düşünərək, təhlil edərək Azərbaycan Konstitusiyasında yazmışıq, ümumxalq referendumu ilə qəbul etmişik





və Naxçıvan Muxtar Respublikasının Konstitisiyasında da yazdırmışıq.

Naxçıvanlılara eşq olsun!

Naxçıvan Muxtar Respublikasına eşq olsun!

Naxçıvan xalqına eşq olsun!

Sağ olun!







## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN MƏRUZƏSİ

-Möhtərəm zati-aliləri!
Türkiyə Cümhuriyyətinin dövlət naziri hörmətli Abdulxaliq Mehmet Çay!
Türkiyə Cümhuriyyətinin dövlət naziri hörmətli Mustafa Yılmaz!
Türkiyə Cümhuriyyətinin Van vilayət vəkili hörmətli Ayhan Çevik!
Türkiyə Cümhuriyyətinin Qars valisi hörmətli Nevzat Tuhan!
Türkiyə Cümhuriyyətinin İğdır valisi hörmətli Ömər Türk!
Türkiyə Cümhuriyyətinin İğdır bələdiyyə başkanı hörmətli Nurəddin Araz!
İran İslam Cümhuriyyətinin Ərdəbil ostandarlığının ostandarı hörmətli Ağayi Təhayi!
Azərbaycanda fəaliyyət göstərən Rusiya Federasiyasının səfiri hörmətli cənab Bloxin!
İran İslam Respublikasının səfiri cənab Bikdeli!
Fransa Respublikasının səfiri cənab Kinyut!
Yunanıstan Respublikası səfirliyinin birinci katibi cənab Panauaniz!
Almaniya Federativ Respublikasının səfiri cənab Zibek!
İsrail dövlətinin səfiri cənab Milman!
İtaliya Respublikasının səfiri cənab Fallovollita!
Ukraynanın səfiri cənab Aleksenko!
Sudan Respublikasının səfiri cənab Əl Hadi!
Amerika Birləşmiş Ştatlarının səfiri cənab Eskudero!
Gürcüstanın səfiri cənab Qumberidze!
Türkiyə Cümhuriyyətinin səfiri cənab Tezcan!
Özbəkistan Respublikasının səfiri cənab Əbdürrəhmanov!
Norveç krallığının səfiri cənab Berstad!
Çin Xalq Respublikasının səfiri cənab Qotsyan!
Qazaxıstan Respublikasının səfiri cənab İbrayev!
Rumıniyanın səfiri cənab Cəmil!
İraq Respublikasının səfiri cənab Əl-Təmimi!
Türkmənistan Respublikasının səfiri cənab Çarıyev!
Pakistan İslam Respublikasının səfiri xanım Anisa!
Hindistanın səfiri cənab Kullar!
Səudiyyə Ərəbistanı Krallığının müvəqqəti işlər vəkili cənab Süleyhim!
Liviya Cümhuriyyəti Baş Bürosunun müvəqqəti işlər vəkili cənab Rahuma!
Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı səfirliyinin birinci katibi cənab Kolter!
İsveç Krallığının Konsulu cənab Otuzbir!
Qırğızıstan Respublikasının ticarət nümayəndəsi cənab Hüseynov!
Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi başçısının əvəzi, müvəqqəti işlər vəkili cənab Dorani!
Respublikamızın paytaxtından gəlmiş hörmətli elm, incəsənət, mədəniyyət xadimləri, şairlər, yazıçılar!
Sizi bu qədim Azərbaycan torpağında bütün Naxçıvanlılar adından və öz adımdan

salamlayır, hamınıza bir daha "xoş gəlmisiniz!" deyirəm.

Möhtərəm zati-aliləri!

Hörmətli qonaqlar!

Əziz naxçıvanlılar!

İki gündür ki, qədim Naxçıvan torpağı böyük bayram əhval-ruhiyyəsi içərisindədir. Naxçıvan Muxtar Respublikasının 75 illik yubiley şənliklərində bu tarixi günün yaradıcısının və hamisinin –ölkə Prezidenti möhtərəm Heydər Əliyevin şəxsən iştirak etməsi sevincimizə ikiqat sevinc gətirib, bayramımızı ikiqat bayrama çeviribdir.

Möhtərəm cənab Prezident!

Qədim Naxçıvan torpağının bu günü və sabahı üçün olduqca mühüm tarixi, siyasi və elmi əhəmiyyət kəsb edən fərman qəbul etdiyinizə görə, ağır iqtisadi blokada vəziyyətində olan, lakin ümidini itirməyən, mübarizə aparan və yaşayan bu yurda müstəqil ölkənin rəhbəri kimi ikinci tarixi səfərinizlə bizə bir dünya sevinc bəxş etdiyinizə görə Sizə bütün naxçıvanlılar adından dərin minnətdarlığımızı, tükənməz məhəbbətimizi və yüksək ehtiramımızı bildirirəm.

Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının yubileyləri Sovetlər Birliyi dövründə bir neçə dəfə qeyd edilibdir. Lakin Azərbaycanın ayrılmaz parçası olan bu qədim yurdun muxtariyyat qazanmasının 75 illik yubileyi siyasi şəraitin dəyişdiyi, ölkəmizin tarixinə sistemli baxış və müstəqil dövlətin milli maraqlarına uyğun elmi yanaşma tələb edilən bir dövrdə dövlət müstəqilliyi şəraitində ilk dəfədir qeyd olunur. Bu yubileyin yüksək dəyəri və tarixi missiyası bir də onunla ölçülür ki, ölkə Prezidenti möhtərəm Heydər Əliyev yubileyi keçirən dövlət komissiyasına rəhbərliyi şəxsən öz üzərinə götürmüşdür.

Möhtərəm Prezident!

Naxçıvanın qədim tarixinə yeni dəyərlər müstəvisindən işıq tutulmasına şərait yaratdığımıza, onun muxtariyyat statusuna xarici düşmənlərin və barışmazlıq mövqeyində dayanan daxili müxalifətin hücumlarından qoruyub hifz etdiyinizə, möhkəmləndirdiyinizə görə bu yurdun indiki və gələcək nəsilləri daim Sizə minnətdar olacaqlar.

Muxtar respublikanın paytaxtı son iki gündə əsrə bərabər bir ömür yaşadı. Şəxsən sizin himayənizlə tikilmiş Naxçıvan Dövlət Universitetinin 1600 yerlik yeni korpusunun ticarət tədris mərkəzinin və Naxçıvan şəhərində yeni yaraşıqlı məscid binasının açılışını keçirdik. Yaddaşımıza əbədi həkk olunan maraqlı görüşlərin, söhbətlərin şahidi olduq. Bütün bunlar 1969-cu ildən başlanan prosesin –Azərbaycanı Azərbaycana qaytarmaq konsepsiyasının, quruculuq xəttinin məntiqi davamı və əyani təzahürüdür. Bu mənada qətiyyətlə deyə bilərik ki, Naxçıvanın muxtar respublika kimi fəaliyyət göstərdiyi 75 illik tarixinin möhtərəm Heydər Əliyevin Azərbaycana 30 illik rəhbərlik dövrünün mərhələsi əsl mənada intibah, yüksəliş və quruculuq illəridir. Bu illər tarixdə iyirminci yüzilliyin zirvəsi kimi qalacaqdır.

Azərbaycanın qədim tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Muxtar respublikanın 75 illik inkişafının şərti olaraq dörd mərhələyə ayırmaq olar: 1924-1969-cu illər, 1969-1987-ci illər, 1990-1993-cü illər və nəhayət 1993-cü ildən sonrakı dövr.

1924-1969-cu illərdə Naxçıvan Muxtar Respublikasının siyasi və iqtisadi mühiti olduqca ağır, təzadlı və gərgin olmuşdur. 1918-ci ildə Zəngəzurun Ermənistana verilməsi nəticəsində regiona erməni quldur dəstələrinin hücumu artmış, ərazini Ermənistana ilhaq etmək üçün göstərilən hərbi-siyasi cəhdlər daha intensiv xarakter almağa başlamışdır. Türkiyənin bu dövrdə tutduğu birmənalı mövqe, Kazım Qarabəkir Paşanın komandanlığı altında türk diviziyasının Naxçıvana daxil olması burada yaranmış ağır vəziyyəti aradan qaldırdı. O dövrdə təşəkkül tapan Araz-Türk Respublikası Naxçıvan ərazisinin erməni hücumlarından qorunmasında mühüm rol oynadı. Ermənilərin həm daşnak hökuməti dövründə, həm də Sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanı Azərbaycandan ayıraraq özünə birləşdirmək üçün göstərdiyi səylər Naxçıvan əhalisinin birmənalı, qəti mövqeyi nəticəsində uğursuzluğa düçar oldu. Naxçıvan əhalisinin 90%-dən çoxu 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan mahalının muxtariyyat statusunda Azərbaycanın tərkibində qalmasına səs vermişdi.

1922-ci ilin dekabrında Birinci Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarda Naxçıvanın muxtariyyat statusunda Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiq etdi. 1923-cü ilin dekabrın 5-də Azərbaycan Mərkəzi İnqilab Komitəsi Naxçıvan Muxtar Diyarının Azərbaycan SSR tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında qərar qəbul edərək onun təsdiq olunmasını Zaqafqaziya Mərkəzi İnqilab Komitəsindən xahiş etdi. Zaqafqaziya Mərkəzi İnqilab Komitəsi 1924-cü il yanvarın 8-də bu qərarı təsdiq etdi. Azərbaycan SSR Mərkəzi İnqilab Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq olundu. Möhtərəm Heydər Əliyevin dediyi kimi, bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi.

Azərbaycanın himayəsi altında Naxçıvanın muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin mart ayında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsdiq edilmişdir. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən mühüm tarixi və hüquqi fakt kimi qiymətləndirilməlidir. Naxçıvanın Muxtar Respublika statusu bu bölgənin sonrakı tarixi taleyində çox mühüm rol oynamışdır. Təsadüfi deyil ki, bu cəhəti nəzərə alan möhtərəm Heydər Əliyev 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında demişdir: "Naxçıvanın muxtariyyatı tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyatı əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Naxçıvanın muxtar ərazi statusunun möhkəmlənməsində onun 75 illik tarixi ərzində qəbul edilmiş Konstitusiyalarının mühüm əhəmiyyəti olmuşdur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi, referendum yolu ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verilmişdir.

Bu Konstitusiya ilə üzvü surətdə bağlı olan Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası Milli Məclis tərəfindən təsdiq edildikdən və ölkə Prezidenti möhtərəm Heydər Əliyev tərəfindən imzalandıqdan sonra 1999-cu il yanvar ayının 8-dən qüvvəyə minmişdir.

Hörmətli təntənəli iclas iştirakçıları!

İnsan var, doğulduğu torpağa görə tanınır, insan da var ki, doğulduğu torpağı bütün dünyaya tanıdır. Möhtərəm Heydər Əliyev doğma Azərbaycan torpağını gecəli-gündüzlü zəhməti ilə ərsəyə gətirərək ona layaqətli övlad qayğısı və himayəsi göstərərək yüksəltmiş, bütün dünyaya tanıtmışdır. Görkəmli siyasətçinin özü bu haqda belə deyir: "Mən balaca bir evdə zəhmətkeş ailəsində bir yaz günü dünyaya göz açmışam. Mən anadan olanda yaqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinibdir. İndi bəlkə də bir o qədər təvazökar səslənməsin, amma deməliyəm ki, anam məni bütünlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram".

Azərbaycan son otuz illik yüksəlişi və tərəqqisi üçün məhz möhtərəm Heydər Əliyevə minnətdardır. 1969-cu ildə bu görkəmli şəxsiyyətin siyasi hakimiyyətə ilk gəlişi ilə Azərbaycan özünün həqiqi inkişafını tapdı. Ona qədər doğma yurdumuz ağır günlər yaşayırdı, əhalinin güzəranı getdikcə pisləşirdi. Bütün iqtisadi göstəricilərə görə Azərbaycan Sovetlər Birliyinin müttəfiq respublikaları içərisində ən axırıncı yerdə dururdu. 1969-cu ildə Sovetlər Birliyində ümumi məhsulun həcmi 1965-ci ilə nisbətən 43% çoxaldığı halda, Azərbaycanda bu artım cəmi 22% olmuşdur. Bu göstərici çox böyük fərqlə bütün müttəfiq respublikalar içərisində ən aşağı hədd idi. Ümumi məhsulun adambaşına istehsal həcmi ölkənin ümumi səviyyəsi və başqa müttəfiq respublikalarla müqayisədə ilbəil azalırdı. Azərbaycanı idarə edənlər məqsədyönlü şəkildə aparılan siyasətin –regionu zəiflətmək siyasətinin qarşısını ala bilmirdilər.

1969-cu il iyulun 14-ü tarixdə qalacaqdır. Çünki həmin gün sadəcə respublika rəhbərliyi seçim günü yox, milli liderin rəhbərliyə gəlişi günü idi. Keçmiş SSRİ-də ən geridə qalan əyalətlərdən hesab edilən Azərbaycan məhz bu tarixdən etibarən qabaqcıl respublikalardan birinə çevrildi. Həmin tarixin ilk günlərində respublikada sənaye, tikinti, kənd təsərrüfatı, təhsil və mədəniyyətin inkişafı sahəsində nəhəng işlər görüldü. Keçmiş Sovetlər Birliyi miqyasında və beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu qaldırmağa doğru qəti xətt götürüldü. Ən qısa müddətdə "AZON" kondisioner, zərgərlik, neftayırma və kimya zavodları, hərbi sənaye kompleksi müəssisələri tikildi. 250-dən artıq yeni müəssisə işə düşdü. İnsan ayağı dəyməyən yerlərdə yeni yaşayış məskənləri inşa edildi. Bakının qoynunda ikinci Bakı salındı.

Təkcə 70-ci illərdə Azərbaycanda 22 milyon kvadratmetr yaşayış sahəsi tikilib istifadəyə verilmişdir ki, bu da 1969-cu ilədək tikilən mənzillərdən 60 faiz çox idi.

Qətiyyətlə deyə bilərik ki, bu gün müstəqil dövlətimizin əsasını təşkil edən iqtisadi-siyasi, mədəni və mənəvi potensial məhz 1969-cu ildən başlayaraq yaradılmışdır. Möhtərəm Heydər Əliyev keçmiş ittifaq hökumətinin məhdud vəsait və imkanlarından, eyni zamanda öz şəxsi nüfuzundan faydalanaraq Azərbaycanda əsl intibahın əsasını qoydu. Qısa müddətdə ölkəmizin sənaye və kənd təsərrüfatının inkişaf sürəti artaraq keçmiş Sovetlər İttifaqının ümumi inkişaf göstəricisini qabaqladı. Əsrin əvvəllərində Azərbaycanda bir il ərzində istehsal edilən məhsul 70-ci illərin Azərbaycanında 6 günə hasil olunurdu. Azərbaycan dünyanın 65 ölkəsinə 350 adda məhsul göndərirdi. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev modelini səciyyələndirən bu rəqəmlərdən də göründüyü kimi, keçmiş Sovetlər Birliyi məkanında möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdi-





yi 1969-1982-ci illərdə doğma vətənimiz ən yüksək inkişaf və çiçəklənmə dövrünə çatmış, beynəlxalq miqyasda əvvəllər o qədər də tanınmayan Azərbaycanın sədası dünyanın bütün guşələrindən gəlməyə başlamışdır. 1992-ci ildə Amerika Birləşmiş Ştatlarında nəşr olunmuş "Azərbaycan türkləri: dövlət və fərd rus hakimiyyəti altında" kitabının müəllifi Odre Oldstat möhtərəm Heydər Əliyevin o dövrdəki fəaliyyətinə yüksək qiymət verərək yazırdı:

"Bütün güclü şəxsiyyətlər kimi Heydər Əliyev də hamını öz arxasınca apara bilirdi. O, son dərəcə işgüzar və ziyalı rəhbər kimi, zəifləmiş iqtisadiyyata yeni nəfəs gətirdi, Azərbaycanın nüfuzunu yüksəltməyə nail oldu. Heydər Əliyev Siyasi Büronun tərkibinə daxil olan ilk azərbaycanlı lider idi. Bu, respublikanın siyasi gücünün çoxalması baxımından son dərəcə əhəmiyyətli amilə çevrildi."

80-ci illərdə baş qaldırmış milli oyanışın, azadlıq hərəkatının mənəvi və ideya əsasını dövlətimizin başçısı, xalqımızın milli lideri Heydər Əliyev 70-80-ci illərdə qoymuşdur. Sovet dövlətinin ucqarlarda yeritdiyi siyasəti böyük uzaqgörənliklə milli mənafeyə tabe etdirən möhtərəm Heydər Əliyev Azərbaycanın dirçəlişinə və mədəni, mənəvi intibahına daim üstünlük verir, zamanı qabaqlayaraq ölkəmizin gələcək müstəqilliyi və suverenliyi üçün iqtisadi dayaqların yaradılması sahəsində gərgin iş aparırdı. Görkəmli siyasətçi və dövlət xadimi Sovet rejiminin keçilməz sədlərini aşaraq, tükənməz enerjisi ilə xalqa layaqətli xidmətin canlı salnaməsini yaradırdı. Bu, özünü mənəvi irsə və xalqın tarixi keçmişinə münasibətdə də göstərirdi. 1951-ci ildə Azərbaycan Kommunist Partiyasının 17-ci qurultayına hesabat məruzəsində xalqımızın qədim tarixi və mədəni qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanı əsassız tənqid və qadağan olunurdusa, o 1972-ci illərdə dastana ikinci həyat verən "Dədə Qorqud" filmi yaradıldı.

"Xalq düşməni" elan olunmuş repressiya qurbanı Hüseyn Cavidin cənazəsinin qalıqları Uzaq Sibirdən Naxçıvana, Vətəninə gətirildi. Gələcək müstəqil Azərbaycan ordusunun formalaşması sahəsində əhəmiyyətli rol oynayan Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı. Azərbaycanda yeni yaradılmış rayonlara mərkəzin təqdimatının əksinə olaraq Babək, Gəncə adları verilirdi. Burada sual olunur, -Kommunist Partiyası, həmin partiya idi, rejim həmin rejim idi, dövran həmin dövran idi, Sovet rejiminin qadağan etdiyi atributlara, tarixi yer adlarına, repressiya qurbanlarına ikinci həyat verilməsi necə mümkün olurdu? Bütün bunlar necə həyata keçirilirdi? Bütün bunların həyata keçirilməsi üçün möhtərəm Heydər Əliyev kimi, xalqına bağlı, Vətəninə sədaqətli, dəmir iradəli olmaq lazım idi.

1969-cu ildən bu yana möhtərəm Heydər Əliyevin işgüzarlığı, qayğıkeşliyi nəticəsində Azərbaycanda iqtisadiyyatın inkişafında böyük uğurlar əldə edildi. Əsası da odur ki, inkişaf təkcə sənaye və tikinti potensialının cəmləşdiyi Bakıda yox, ölkəmizin hər yerində -Gəncədə, Sumqayıtda, Naxçıvanda və digər şəhərlərdə də gedirdi. Vahid Azərbaycan evimiz hər gün bir kərpic qalxaraq yenidən qurulur, böyüyür və genişlənirdi.

Naxçıvan Muxtar Respublikasının da son 30 illik inkişaf dövrü möhtərəm Heydər Əliyevin şəxsiyyəti ilə sıx bağlı olmuşdur. Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikası bu illərdə quruculuq və yüksəliş yolu keçmiş, 3500 illik tarixinin maddi və mənəvi intibah dövrlərindən birini yaşamışdır.

1969-cu ildən sonra möhtərəm Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasının həyatında ikinci mərhələ -əsl inkişaf dövrü başlandı. Buna qədərki dövr-

də mərkəzi Azərbaycanın muxtar vilayəti olan Dağlıq Qarabağın iqtisadi və sosial inkişafına üstün istiqmət verir, təbii sərvətlərlə zəngin olan Naxçıvan Muxtar Respublikasında isə məhsuldar qüvvələrin inkişafını bilərəkdən aşağı səviyyədə saxlayırdı.

Qədim torpağımız olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycanın əsas ərazisindən təcrid edilmiş coğrafi məkanda yerləşən Naxçıvan Muxtar Respublikasını iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək, bu yolla naxçıvanlıları ata-baba torpaqlarından didərgin salmaq siyasəti möhtərəm Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra dayandırıldı. Məhz bu dövrdə muxtar respublika özünün ikinci ömrünü yaşamağa başladı.

1969-cu ildən sonra mürəkkəb və çətin tarixi şəraitdə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada sənaye və tikinti sahələrini, aqrar sənaye kompleksini və onun istehsal infrastrukturunun yüksək inkişafı baş verdi. Sənayenin emal və hasilat sahələrinin şəbəkəsi genişləndi. Sənaye istehsalının strukturunda konserv, üzüm emalı, tikinti materialları, elektro texnika avadanlığı, meşə və ağac emalının xüsusi çəkisi xeyli artdı. Qədim Naxçıvan diyarı mineral suları hesabına keçmiş Sovetlər Birliyi respublikalarında və beynəlxalq iqtisadi məkanda tanındı. Bütün bunların nəticəsidir ki, 1980-ci illərdə məhsul istehsalı muxtar respublikanın təşkil edildiyi 1924-cü ilə nisbətən 180 dəfədən çox artmışdır.

Təkcə 1987-ci ilin iki günündə 1913-cü ildə istehsal olunan qədər sənaye məhsulu istehsal edilirdi. Naxçıvan şəhərində hər il 55 milyon butulka istehsal edən şüşə qablar zavodunun, alt trikotaj fabrikinin tikilib istifadəyə verilməsi nəticəsində minlərlə adam işlə təmin olundu. Naxçıvanda tütünfermentləmə, alüminium qablar, elktrotexnika, "Araz" təcrübə zavodları, taxıl məhsulları və süd kombinantları, Ordubad və Şərur rayonlarında konserv zavodları, Şahbuz rayonunda avtotəmir, Şərurda radio və Ordubadda elektron zavodları məhz bu illərdə tikilib istifadəyə verilmişdir. 1969-cu ildən sonra Naxçıvan Muxtar Respublikasının böyük tikinti meydançasına çevrildi. Bu illərdə möhtərəm Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri kimi Naxçıvana səfərləri mühüm obyektlərin, yaşayış sahələrinin istifadəyə verilməsi ilə əlamətdar olubdur. Böyük tikinti proqramının sürətlə həyata keçirilməsi üçün Naxçıvan şəhərində dəmir-beton məmulatı zavodu, etikmə kombinantı, üzlük piltələr zavodu, qum-çınqıl karxanası, Babək və Şərur rayonlarında tikinti materialları müəssisələri, Naxçıvanda asfalt zavodu istifadəyə verilmişdir. Bütün bunların nəticəsində Naxçıvan şəhərində 15 minə yaxın əhalinin məskunlaşdığı 1-ci, 2-ci və 3-cü mikrorayonlar, 20 min sakini olan Yeni Naxçıvan yaşayış massivi, 10 min nəfər əhali yaşayan 57-ci və 141-ci məhəllər kimi yeni yaşayış sahələri tikilərək istifadəyə verildi.

Ümumiyyətlə, hər il Naxçıvan şəhərində və rayon mərkəzlərində orta hesabla 35 min kvadratmetr mənzil sahəsi istifadəyə verilmişdir ki, bu da əhalinin mənzilə olan tələbatını xeyli ödəmişdir. Bu dövrdə sosial obyektlərin tikintisinə də ciddi diqqət yetirilirdi. Naxçıvan şəhərində 400 yüz çarpayılıq respublika xəstəxanası, doğum evi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm və onkoloji dispanserlər, şəhər poliklinikasının yeni binası, rayon mərkəzlərində və kəndlərdə çoxlu xəstəxana binaları və feldşer-mama məntəqələri tikilmişdir.

Milli memarlığın son nailiyyətlərini özündə əks etdirən bugünkü mədəniyyət sarayının, Naxçıvan Uşaq Gənclər mədəniyyət sarayının, Şahmat Məktəbinin, rayonlarda





yaraşıqlı klubların və mədəniyyət evlərinin, 53246 şagird yeri olan 111 məktəb binasının, 3.920 yerlik 38 uşaq bağçasının və 40-a yaxın məktəbdənkənar uşaq tərbiyə müəssisəsinin tikilib istifadəyə verilməsi xalqın mədəniyyətinə və təhsilinə qayğının ən parlaq təzahürü idi. Naxçıvan Avtomobil Məktəbi Kompleksi, Sovxoz Texnikumu üçün yeni tədris binası da bu dövrün yadigarlarındandır.

Tikintinin ilbəil artan miqyası kommunal sahəni də əhatə etmişdir. Naxçıvan şəhərində, Culfa, Ordubad və Şahbuz rayonlarında mehmanxana binaları tikilmiş, Şərurdan Naxçıvana 58 kilometr uzunluğunda su kəməri çəkilmişdir. 18 kilometr uzunluğunda trolleybus xəttinin çəkilməsi və trolleybus parkının tikilməsi əhaliyə nəqliyyat xidmətinin səviyyəsini xeyli yaxşılaşdırmışdır. Naxçıvanın müasir memarlıq mədəniyyətində özünəməxsus yeri olan indiki Naxçıvan şəhər icra hakimiyyətinin binası, Həmkarlar İttifaqı Şurasının, Ali Məhkəmənin, muxtar respublika prokurorluğunun binaları da 70-ci illərdə tikilmişdir.

Möhtərəm Heydər Əliyevin təşəbbüsü və qayğısı sayəsində Naxçıvana qaz kəmərinin çəkilməsi o dövrün inanılmaz gerçəklərindən biri idi.

Azərbaycanda, ona bağlı Naxçıvan Muxtar Respublikasında aqrar bölmənin inkişafı, onun maddi texniki bazasının möhkəmləndirilməsi və sahəsinin sistemli şəkildə intensivləşdirilməsi istiqamətində əsaslı addımlar atılmışdır. Kimyalaşdırma, irimiqyaslı meliorasiya, irriqasiya tədbirləri həyata keçirilmiş, məhsul bolluğu təmin olunmuşdur. Bu illərdə iri emal müəssisələri, taxıl və süd kombinantları, üzüm emalı zavodları, heyvandarlıq və südçülük kompleksləri, quşçuluq-broyler fabrikləri tikilib istifadəyə verildi. Göstərilən illər ərzində təsərrüfatlarda rentabellik səviyyəsi 8,3 faiz yüksəldi, fəhlə və qulluqçuların əmək haqları 117 faiz çoxaldı. Bu dövrdə kənd yerlərində mənzil fondu 5,5 dəfə, klubların sayı 2,6 dəfə, məktəbəqədər uşaq müəssisələri 2,3 dəfə, kitabxanalar 2,7 dəfə, mənzillərin telefonlaşdırılması 1,7 dəfə artmışdır.

Möhtərəm Heydər Əliyevin diqqət və qayğısı sayəsində bu tarixi mərhələdə Naxçıvanda elmin, təhsilin, mədəniyyətin, səhiyyənin və başqa sosial-mədəni sahələrin inkişafı da güclənmişdir. Azərbaycan Elmlər Akademiyası Naxçıvan Elmi Mərkəzinin, Naxçıvan Dövlət Pedaqoji İnstitutunun, Politexnik, Kənd Təsərrüfatı, Musiqi və Tibb texnikumlarının, Batabat Astrofizika Rəsədxanasının, Ordubad Təcrübə-Konstruktor Bürosunun yaradılması və fəaliyyətə başlaması da məhz bu dövrün uğurlarıdır. Bu illərdə Naxçıvan Tarix Muzeyinin, Cəlil Məmmədquluzadə adına Ədəbiyyat Muzeyinin, Məmməd Səid Ordubadinin, Hüseyin Cavidin, Yusif Məmmədəliyevin, Cəmşid Naxçıvanskinin ev muzeylərinin, 102 mədəniyyət evi və klubun, rayon mərkəzlərində tarix-diyarşünaslıq muzeylərinin işə başlaması muxtar respublikanın mədəni həyatında mühüm rol oynadı. Ümumilikdə götürdükdə bu illərdə 14 muzey və bir şəkil qalereyası yaradılmışdır.

Bu dövrdə səhiyyə və təhsil sahəsində də əsl intibah olmuşdur. Təkcə bir faktı göstərmək kifayətdir ki, 1969-1999-cu illərdə muxtar respublikada 1.156 yerlik xəstəxana, 1.045 çarpayılıq poliklinika və ambulatoriyalar, feldşer-mama məntəqələri tikilib istifadəyə verilmişdir.

Gənc kadrların seçilib o vaxtkı Sovetlər Birliyinin ən nüfuzlu ali təhsil ocaqlarına göndərilməsi, hərbi kadrların yetişdirilməsinə diqqətin artırılması millətin gələcək inkişafını, ölkənin siyasi müstəqilliyini təmin edən mühüm strateji proqramın tərkib hissəsi idi. Möhtərəm Heydər Əliyevin sözləri ilə desək, Naxçıvanda əsl quruculuq işi, səna-

yenin, kənd təsərrüfatının inkişafı-bunların hamısı 1970-ci illərdən başlayaraq olubdur.

Naxçıvan Muxtar Respublikası keçmiş Sovetlər Birliyi dövründə sosial-iqtisadi və mədəni inkişaf sahəsində əldə etdiyi nailiyyətlərə görə o dövrün çox yüksək mükafatlarına –Lenin, Xalqlar Dostluğu və Oktyabr İnqilabı ordenlərinə layiq görülmüş altı dəfə keçmiş Sovetlər İttifaqının Keçici Qırmızı Bayrağını almışdır.

Hörmətli toplantı iştirakçıları!

Böyük, qüdrətli şəxsiyyətlərin tarix səhnəsinə gəlişi əzəmətli dəyişikliklərlə, sıçrayışlı yüksəlişlərlə əlamətdar olduğu kimi, onların hadisələrin qaynar mənbəyindən uzaq düşməsi də ağır fəlakətlər, sosial fırtınalar təhlükəsi yaradır. Yaşadığımız tarixin acı reallıqları bu həqiqəti bir daha açıq göstərdi. Azərbaycanın sürətli inkişafını görün bütün bunların qarşısını açıq şəkildə ala bilməyən keçmiş Sovetlər Birliyinin rəhbərliyi möhtərəm Heydər Əliyevin mərkəzə aparmaqla onun öz xalqı ilə bağlılığının qırılacağını güman edirdi. Lakin Siyasi Büroda öz dəmir iradəsi və bacarığı və siyasi fəaliyyəti ilə yüksəkdə dayandığını sübut etməklə yanaşı, möhtərəm Heydər Əliyev Azərbaycana qayğısını və himayəsini əsirgəmirdi. Təsadüfi deyil ki, onun bacarıqlı fəaliyyətinə görə keçmiş Sovetlər məkanında artan nüfuzu qısqanclıqla qarşılanırdı.

Bütün bunlar möhtərəm Heydər Əliyevin 1987-ci ildə məcburi istefaya getməsi ilə nəticələndi. Bu məcburi istefadan 15 gün sonra isə "Qarabağ kartı" altında cərəyan edən proseslərin zərbə dalğası genişləndi. Azərbaycanın və ona bağlı Naxçıvan Muxtar Respublikasının başının üstünü qara buludlar aldı. Ermənistan Azərbaycana qarşı açıqdan-açığa ərazi iddiası irəli sürdü. Erməni birləşmələri torpağımıza hərbi müdaxilə etdi. Azərbaycanı idarə edənlərin kəmsavadlığı, yersiz hakimiyyət iddiaları torpaqlarımızın bir-birinin ardınca işğalı ilə nəticələndi. Muxtar respublikada çətin sınaqlar, ölüm-dirim dilemması qarşısında qaldı. Möhtərəm Heydər Əliyevin sözləri ilə desək, bu dövrün Naxçıvanı taleyin ümidinə buraxılmış adanı xatırldırdı.

1990-93-cü illər Naxçıvan tarixinin ən gərgin, ən şanlı səhifəsidir. Naxçıvan Muxtar Respublikası öz mövcudluğu, bugünkü yaşayışı və nicatı üçün məhz həmin illərdə möhtərəm Heydər Əliyevin siyasi təqibə görə burada yaşayıb işləməsinə, siyasi fəaliyyət göstərməsinə borcludur. Tale möhtərəm Heydər Əliyevi Naxçıvana yetiməklə bu qədim torpağı işğal təhlükəsindən hifz etdi. Görkəmli dövlət xadiminin xalqın tələbi ilə Naxçıvan Muxtar RespublikasıAli Məclisinin Sədri vəzifəsini öz öhdəsinə götürməsi nəticəsində Naxçıvan erməni daşnak hiyləsindən xilas oldu, onun muxtariyyat statusu qorunub saxlandı.

Möhtərəm Heydər Əliyev Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində müstəqil demokratik və dünyəvi dövlət yaradılması üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi qəbul olundu. 1990-cı ilin 19-20 yanvar faciəsinə siyasi qiymət verildi.

Bundan əlavə Naxçıvan əhalisinin SSRİ-nin qorunub saxlanması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması, 20 Yanvarın milli matəm günü, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü elan olunması, ilk demokratik islahatların keçirilməsi, muxtar respublikanın sərhədləri boyu atəşkəs rejiminin tətbiq edilməsi, dinclik, əmin-amanlıq yaradılması, aqrar sahədə, elmdə, təhsildə quruculuq işlərinin başlanması, Milli Ordu hissələrinin, ilk Milli Sərhəd Dəstəsinin yaradılması, keçmiş Sovet ordusu muxtar respublika ərazisini tərk edərkən buradakı hərbi hissələrdə silah-sursatın və texnikanın Azərbaycanın digər bölgələrindən fərqli olaraq yüz faiz Naxçıvanda saxlanması bütövlükdə doğma Azərbaycanımız üçün taleyüklü məsələlər idi.





Bu dövrdə muxtar respublikanın iqtisadi problemlərinin həllini də ciddi diqqət yetirilirdi. Muxtar respublikanın düşdüyü iqtisadi çətinlikləri, blokadanın vurduğu ziyanı aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Araz çayı üzərində Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələrinin birləşdirən 275 metrlik "Ümid körpüsü" tikilib istifadəyə verildi. Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri fəaliyyətə başladı. Naxçıvan şəhəri yaxınlığında İstilik Elektrik Stansiyası tikildi. İran İslam Respublikasından Naxçıvan Muxtar Respublikasının Culfa rayonuna Türkiyənin İqdır Vilayətindən isə Naxçıvana 92 kilometrlik yüksək gərginlikli elektrik xətləri çəkildi.

Əlamətdar haldır ki, aqrar islahatlara və özəlləşdirmə tədbirlərinə də ilk dəfə olaraq Naxçıvanda başlandı. Üç il ərzində Naxçıvanda görülən işlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəldilmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi.

1988-1993-cü illərdə məhrumiyyət və müsibətlərdən keçərək, dövlət müstəqilliyini itirmək qorxusu və vətəndaş müharibəsi təhlükəsi qarşısında qalan xalqımızı üzünü Naxçıvana, möhtərəm Heydər Əliyevə tutdu. Bu, tarixdə şəxsiyyətin rolunun iyirminci yüzilliyin sonunda daha bir təsdiqi idi.

1993-cü ilin 15 iyun günü. Bu gün doğma Azərbaycan evimizin xilası, Azərbaycanın Azərbaycana qayıdışı günü idi, xalqımızın mili qurtuluşu, vətəndaş qarşıdurmasından xilas olduğu gün idi. Bu, eyni zamanda Azərbaycanı 1969-cu ildən başlanan quruculuq xəttinə, yüksəliş yollarına qayıtdığı gün idi. Bundan sonrakı tarix möhtərəm Heydər Əliyevin siyasətinin strateji kursunun ana xəttini başlıca məramını təşkil edən müstəqillik yollarından keçir. Şərti olaraq dördüncü dövr adlandırdığımız bu tarixi mərhələ möhtərəm Prezidentimizin rəhbərliyi altında ölkəmizin bütün regionlarının tarazlı və bərabər inkişafı ilə xarakterizə edilir.

Möhtərəm Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da quruculuq və bərpa işləri genişləndi. Bu dövrdə muxtar respublikada 25 məktəb binası uzunluğu 906 metr olan 31 körpü tikilərək istifadəyə verildi. Yusif Məmmədəliyevin, Məmməd Səid Ordubadinin və Cəmşid Naxçıvanskinin ev muzeylərinin, Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər Poliklinikasının, Naxçıvan Dövlət Dram Teatrının, Respublika Mədəniyyət Sarayının tarixi "Əshabi-Kəhf" ziyarətgahının və İmamzadə kompleksinin, Xalça Muzeyinin binalarının əsaslı şəkildə bərpa olunaraq yenidən istifadəyə verilməsi, Hüseyn Cavidin monumental abidəsinin tikintisi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının fəaliyyətə başlaması və onun üçün müasir tələblərə cavab verən tədris korpusunun tikilməsi, Dədə Qorqud meydanın və abidəsinin inşa olunması 70-ci ilərdə başlanan quruculuq tədbirlərinin məntiqi davamıdır.

Möhtərəm Heydər Əliyevin tapşırığı ilə muxtar respublikanın telekommunikasiya sistemində aparılan yenidənqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektrontipli xətt və nömrə, eyni zamanda muxtar respublikanın bütün ərazisini əhatə edən mobil telefon şəbəkəsi istifadəyə verilmiş, yeni televiziya ötürücüləri quraşdırılmışdır. Bunların

və bir başa internetə qoşulmaq imkanı verən kompyuter-tədris mərkəzinin istifadəyə verilməsi ilə Naxçıvan Muxtar Respublikasının informasiya blokadasına son qoyulmuşdu.

Möhtərəm Prezident!

Sizin tapşırığınız əsasında muxtar respublikada daim diqqət və qayğı göstərmişdir. 1996-99-cu illərdə Naxçıvan şəhərində 320 yerlik 13 nömrəli orta məktəb, Şahmat məktəbi, 320 yerlik 14 nömrəli orta məktəb, Naxçıvan Türk Liseyinin 120 yerlik yeni tədris korpusu, Cəmşid Naxçıvanski adına Hərbi məktəbin Naxçıvan filialı üçün yeni tədris korpusu, Şərur rayonunda 190 yerlik Diadin kənd məktəbi, 320 yerlik Sərxanlı kənd orta məktəbi, 80 yerlik Kərki kənd orta məktəbi, Babək rayonunda 604 yerlik 3 nömrəli Cəhri kənd orta məktəbi, 360 yerlik Güznüt kənd orta məktəbi, 604 yerli Nehrəm kənd orta məktəbi, 320 yerlik Kültəpə kənd orta məktəbi, Sədərək rayonunda 120 yerlik Qarabürc kənd orta məktəbi, Culfada 320 yerlik Kırna kənd orta məktəbi, Şahbuz rayonunda 120 yerlik Tırkeş kənd orta məktəbi, 120 yerlik Şada kənd məktəbi, Ordubad rayonunda 90 yerlik Pəzməri kənd məktəbi tikilib istifadəyə verilmiş, 10 məktəb binası əsaslı şəkildə bərpa olunmuşdur. Hazırda Babək rayonunun Sirab kəndində 500 yerlik, Ordubad rayonunun Yuxarı Əylis kəndində 320 yerlik, Culfa rayonunun Saltaq kəndində 320 yerlik məktəb binalarının tikintisi davam etdirilir. Ordubadın qəza vəziyyətində olan Üstüpü kənd məktəbi əsaslı bərpa edilmiş, Şahbuz rayonunun Biçənək kəndində 1907-ci ildə tikilən məktəb binası uçduğundan orada inşa olunan yeni məktəb binasının birinci növbəsi qısa müddətdə başa çatdırılaraq istifadəyə verilmişdir.

Aparılan tədbirlər və yenidənqurma işləri nəticəsində muxtar respublikada əhalinin sosial vəziyyəti axşılaşmışdır. Son dövrlərdə 55 min kvadratmetrə yaxın yaşayış sahəsi tikilmişdir. Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında energetika sisteminin işi daim diqqət mərkəzində saxlanılır. Sizin təşəbbüsünüzlə 1992-ci ildə Zaporjyedən alınmış, lakin dəmiryolunun işləməməsi səbəbindən Əlibayramlıda saxlanılan, 125 meqavat gücə malik, 120 ton ağırlığında transformatorun Türkmənistan-İran yolu ilə Naxçıvana gətirilib Babək yarımstansiyasında quraşdırılması nəticəsində Türkiyədən alınan enerjinin normal gərginliklə verilməsinə şərait yaranmışdır. Bunun nəticəsində isə 1990-cı ildən fəaliyyətini dayandıran 58 kilometrlik Şərur-Naxçıvan su kəmərini bərpa edib işə salmaq mümkün olmuşdur.

Ümumiyyətlə, muxtar respublikanın 51 yaşayış məntəqəsində transformator yarımsatansiyaları yenidən qurulmuş, mövcud transformatorlar daha gücləri ilə əvəz edilmişdir. Muxtar respublikada transformatorların təmiri və sarğı-dolaq sexləri quraşdırılaraq istifadəyə verilmişdir. Yanmış transformatorlar Bakıda və Əlibayramlıda deyil, Culfa rayonunda fəaliyyət göstərən sexdə təmir olunur. Şərur rayonunda da belə bir sexin yaradılması üçün hazırlıq işləri aparılır.

Quruculuq işlərinin bir istiqaməti də tikintisi sizin dövrünüzdə başlanan, lakin sonralar yarımçıq qalmış obyektlərdə işin davam etdirilməsindən ibarət olmuşdur. Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da belə obyektlər az deyildi. Bunlardan Babək rayonundakı Cəhri və Nehrəm, Şərur rayonundakı Sərxanlı kənd məktəblərinin və Ordubad rayonundakı Əylis kənd mədəniyyət evinin tikintisi tamamlanmış, Naxçıvan Hava Limanı tikilərək yenidən qurulmuş, Arpa çay üzərində körpülər salınmışdır. Naxçıvan çayı üzərində Vayxır su qovşağının birinci növbəsi tikilib başa çatdırılmışdır. Muxtar respublikanın ən böyük tikinti obyektləri olan Naxçıvan Dövlət Universiteti üçün 1600 yerlik





yeni tədris korpusu və ticarət-tədris mərkəzinin tikintisinin tamamlanması və həmin obyektlərin istifadəyə verilməsində iştirakınız tarixi proseslərin məntiqi davamı və xalqa xidmətinizdir.

Möhtərəm cənab Prezident!

Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşamasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq alt trikotaj, tikiş və mebel fabriklərinin, emal müəssisələrinin, mineral su doldurma sahələrinin və elektrotexnika zavodunun fəaliyyəti bərpa edilmişdir. Sənaye müəssisələrində 30 milyard 176 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 4,1 faiz artıqdır.

Sizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən zərərlə işləyən kolxoz və sovxozlar haqqında, rentabelli işləyən kolxoz və sovxozların mal-qarasının özəlləşdirilməsi haqqında qəbul etdiyiniz qərarlar mülkiyyət münasibətlərinin dəyişilməsi və bazar iqtisadiyyatının keçidlə əlaqədar ən zəruri hüquqi baza yaradan tarixi sənədlərdir. Məhz bu qərarlarla Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda islahatların keçirilməsinə başlanmışdır.

Muxtar respublikada heyvandarlıq sahəsində özəlləşdirmə tamamilə, torpaq islahatı isə əsasən başa çatdırılmışdır. Sizin qəbul etdiyiniz 1992-ci il 6 aprel tarixli qərarların nəticəsidir ki, 1992-ci ilə nisbətən 1999-cu ildə iribuynuzlu mal-qaranın sayı 14 min baş və ya 29 faiz artaraq 62 min baş, xırdabuynuzlu heyvanların sayı isə 164 min baş və ya 57 faiz artaraq 406 min baş olmuşdur.

Özəlləşdirmə nəticəsində taxılçılıqda mühüm nailiyyətlər qazanılmışdır. Bu sahə üzrə muxtar respublikada ən yüksək göstərici 1987-ci ildə 28 min ton olmuşdursa, 1995-ci ildən hörmətli akademikimiz Cəlal Əliyevin yüksək məhsuldar toxum sortlarından istifadə olunması nəticəsində bu sahədə əhəmiyyətli dönüş əldə edilmişdir. 1998-ci ildə muxtar respublikada rekord miqdarda məhsul götürmüş, 55,2 min ton taxıl istehsal olunmuşdur. Cari ildə havaların quraq keçməsinə baxmayaraq taxıl əkini aparılmış, 14 min hektar sahədə 40 min ton taxıl istehsal olunmuş, hektarın məhsuldarlığı muxtar respublika üzrə 27,2 sentnerə çatdırılmışdır. Bu, 1998-ci ilin müvafiq göstəricisindən 3,7 sentner çoxdur.

Aqrar bölmədə şəkər çuğunduru istehsalı özünü ən perspektivli sahə kimi göstərmişdir. 1994-cü ildə 4 min ton şəkər çuğunduru istehsal olunmuşdusa, 1998-ci ildə 39,3 min ton başqa sözlə, 1997-ci il göstəricisində 168 faiz artıq məhsul istehsal edilmişdir. Quraqlığa baxmayaraq cari ildə bu sahə üzrə artım surəti saxlanılacaqdır. Torpaq islahatı və özəlləşdirmə tədbirlərinin nəticəsidir ki, 1995-ci ildə istehsal edilmiş kənd təsərrüfatı məhsulları üçün 15 min ton yanacaq sərf olunmuşdursa, 1998-ci ildə məhsul istehsalı bir neçə dəfə artmış, yanacaq məsrəfi isə 14 min tona yaxın azalaraq cəmi 1,3 min ton olmuşdur.

Möhtərəm zati-aliləri!

Muxtar respublikanın sosial-iqtisadi mədəni sahələrində əldə olunan uğurları saymaqla belə bir fikir yaratmaq niyyətindən uzağıq ki, daha problemlər yoxdur. Problem inkişafın, irəliləyişin şəksiz atributudur. İnkişaf problemlər həll edilən yerdə mümkündür. Bu promlemlərin həll olunacağına biz ona görə əminik ki, Sizin kimi sarsılmaz dayağımız, müdrik yol göstərənimiz vardır. Bu yol haqq-ədalətdən, quruculuqdan, Vətənə bağ-

lılıqdan keçən Heydər Əliyev yoludur. Eşq olsun bu yolun qurucusu olan möhtərəm Heydər Əliyevə!

* * *

Sonra bir başa iclas salonundan Azərbaycan Prezidenti Heydər Əliyevə həsr edilmiş şeirlər səsləndi.

Hörmətli Prezidentimiz, Sizin bu gəlişiniz, bu böyük bayram təntənəsində bizimlə bir yerdə olmağınız qəlbimizi riqqətə gətirir. Naxçıvan Sizin sayənizdə özünün fərəhli günlərini keçirir. Naxçıvan Sizin qayğınızla böyüyür, yüksəlir, gözəlləşir qoynunda yeni-yeni ünvanlar salır. Son üç ildə Naxçıvanın siması tanınmaz dərəcədə dəyişmişdir. Nigarançılıq keçirməyə bilərsiniz: muxtar respublikaya rəhbərlik Ali Məclisin Sədri Vasif Talıbov kimi etibarlı bir adama etimad edilmişdir. O, Sizin siyasət və mətinlik məktəbinizin müdavimidir. Eşq olsun Sizə!

* * *

Rəsmi hissədən sonra Naxçıvan incəsənət ustalarının böyük bayram konserti oldu.

Azərbaycan Prezidenti Heydər Əliyev konsertdən sonra səhnəyə gələrək incəsənət ustalarına təşəkkürünü bildirdi.

- Əziz dostlar!

Bugünkü təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi haqqında xoş sözlər deyildi. Naxçıvanda mədəniyyətin nə qədər zəngin olduğuna və onun bu gün Azərbaycan mədəniyyətini nə qədər gözəl inkişaf etdirdiyinə Naxçıvan incəsənət xadimlərinin bugünkü konserti əyani nümunədir. Mən buraya, səhnəyə xüsusi olaraq çıxdım. Onların hamısına sağ ol deyirəm.

Naxçıvanda, bu qədim diyarda, Azərbaycandan ayrı düşmüş Azərbaycan torpağında belə gənc incəsənət ustaları yetişir. Musiqiçilər, müğənnilər, söz ustaları, həm milli musiqimiz, həm Avropa musiqisi, həm simfonik orkestr, həm xor kapellası və burada gördüklərimizin hamısı onu göstərir ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq demokratiya, dünyəvi dövlət quruculuğu, hüquq, haqq yolu ilə gedir. Hamınız sağ olun!







## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərinə fəxri adların verilməsi haqqında

Azərbaycan elmi, mədəniyyəti və ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərindən bir qrupuna aşağıdakı fəxri adlar verilsin:

**"Xalq artisti" fəxri adı**
Ağayev Həsən Vəliqulu oğluna
Hacıyeva Xuraman Abdulla qızına
Quliyev Kamran Məmmədqulu oğluna

**"Əməkdar artisti" fəxri adı**
Abutalıbov Şirzad Əsəd oğluna
Xudiyeva Nəzakət Əli qızına
Ramazanova Yasəmən Allahverdi qızına

**"Əməkdar rəssam" fəxri adı**
Əliyev Hüseynqulu Əli oğluna

**"Əməkdar elm xadimi" fəxri adı**
Həbibbəyli İsa Əkbər oğluna

**"Əməkdar incəsənət xadimi" fəxri adı**
Ələkbərova Əqidə Ələkbər qızına
Hacıyev Elman Həbib oğluna
Həmzəyev Nizami İbrahim oğluna
Məmmədov Rəşid Rza oğluna

**"Əməkdar müəllim" fəxri adı**
Orucəliyev Nəriman Bilal oğluna
Vəliyev Zöhrab Hüseynəli oğluna

**"Əməkdar həkim" fəxri adı**
Əliyeva Nüşabə Vəliyəddin qızına
İsmayılov Cəbi Əziz oğluna

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 oktyabr 1999-cu il*





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır. Azərbaycan Respublikasının Prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yola saldı.







## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA İŞTİRAK EDƏN AZƏRBAYCAN RESPUBLİKASINDA FƏALİYYƏT GÖSTƏRƏN XARİCİ ÖLKƏ SƏFİRLƏRİNİN

## S İ Y A H I S I

| S № | Dövlət | Vəzifə | Adı və soyadı |
|---|---|---|---|
| 1 | Rusiya Federasiyası | səfir | A.Bloxin |
| 2 | İran İslam Respublikası | səfir | Ə.Bikdeli |
| 3 | Fransa Respublikası | səfir | C.Qinut |
| 4 | Yunanıstan Respublikası | səfirliyin I katibi | Kanulanis |
| 5 | Almaniya Federativ Respublikası | səfir | K.Zibek |
| 6 | İsrail Dövləti | səfir | A.Mil-man |
| 7 | İtaliya Respublikası | səfir | A.Fallovollita |
| 8 | Ukrayna | səfir | B.Aleksenko |
| 9 | Sudan Respublikası | səfir | Y.Əl-hadi |
| 10 | ABŞ | səfir | S.Eskudeyro |
| 11 | Gürcüstan | səfir | Z.Qumbaridze |
| 12 | Türkiyə Respublikası | səfir | K.Tezcan |
| 13 | Özbəkistan Respublikası | səfir | A.Abduraxmanov |
| 14 | Norveç Krallığı | səfir | O.Berstad |
| 15 | Çin Xalq Respublikası | səfir | Ç.Ç.Qoisyan |
| 16 | Qazaxıstan Respublikası | səfir | R.İbrayev |
| 17 | Rumunya | səfir | T.Cəmil |
| 18 | İraq Respublikası | səfir | Ğ.Əl-təmimi |
| 19 | Türkmənistan | səfir | M.Çariyev |
| 20 | Pakistan İslam Respublikası | səfir | A.Anisa |
| 21 | Hindistan | səfir | D.Xullar |
| 22 | Səudiyyə Ərəbistanı Krallığı | Müvəqqəti işlər vəkili | Z.Sülleyhm |
| 23 | Liviya | Müvəqqəti işlər vəkili | M.Rahuma |
| 24 | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | 1-ci katib | J.Kolter |
| 25 | İsveç Krallığı | konsul | L.Otuzbir |
| 26 | Qırğızıstan Respublikası | Ticarət nümayəmdəsi | Z.Hüseynov |
| 27 | BMT nümayəndəliyinin başçısının əvəzi | Müvəqqəti işlər vəkili | A.Dorani |

### TÜRKİYƏ RESPUBLİKASINDAN GƏLƏN NÜMAYƏNDƏLƏRİN SİYAHISI

| | |
|---|---|
| Abdulhaluk ÇAY | Devlet Bakanı |
| Mustafa Yılmaz | Devlet Bakanı |
| Ayhan Çevik | Van Milletvekili |
| Nevzat Turhan | Kars Valisi |
| Ömer Türk | Iğdır Valisi |
| Nurettin Aras | Iğdır Belediye Başkanı |

### NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA İŞTİRAK ETMƏK ÜÇÜN İRAN-ƏRDƏBİL USTANDARINDAN GƏLƏN NÜMAYƏNDƏLƏRİN SİYAHISI

| № | Vəzifə | Adı və Soyadı |
|---|---|---|
| 1 | Ustandar | Ağayi Təhayi |
| 2 | Bələdiyyə idarəsinin rəisi | Ağayi Mirsəfa |
| 3 | Ticarət işlərinin müdiri | Arman Haşimi |





# NAXÇIVAN MUXTAR RESPUBLİKASI 80

**Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2004-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 ili tamam olur. Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycan xalqının həyatında böyük tarixi-siyasi əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu il fevralın 4-də "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" geniş məzmunlu Fərman imzalamışdı. Fərmana əsasən yaradılmış Dövlət Komissiyası yubiley tədbirləri hazırlayaraq onların həyata keçirilməsini təmin etmişdir. Naxçıvanda və Azərbaycanın başqa şəhər və rayonlarında Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş çoxsaylı yubiley tədbirləri, o cümlədən elmi-praktik konfranslar, festival, müsabiqə və sərgilər keçirilmiş, "Naxçıvan Ensiklopediyası"nın, digər elmi, ədəbi və publisistik əsərlərin nəşri təmin edilmiş, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi yaradılmış, Naxçıvanın tarixinə, maddi mədəniyyətinə və memarlıq məktəbinə həsr edilmiş televiziya verilişləri hazırlanmış və sair mühüm işlər həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd olunması ilə bağlı həyata keçirilmiş tədbirlərin təhlili göstərir ki, bu olduqca mühüm və səmərəli işin davam etdirilməsinə ehtiyac vardır. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın, habelə bölgənin tarixində böyük əhəmiyyət kəsb etdiyini və onun 80 illiyinin xalqımızın həyatında əlamətdar hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.
2. Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi üçün hazırlanmış tədbirlər planı təsdiq edilsin (Tədbirlər planı əlavə olunur).
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 fevral 2004-cü il*





Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2004-cü il tarixli 82 nömrəli sərəncamı ilə təsdiq olunmuşdur

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏDBİRLƏR PLANI

| № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti |
|---|---|---|---|---|
| 1 | Naxçıvanda Muxtar Respublikasının 80 illiyinə həsr edilmiş yubiley tədbirlərinin keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | fevral-iyun 2004-cü il |
| 2 | Əsaslı rekonstruksiyadan sonra Naxçıvan aeroportunun açılışı | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, "Azal" Konserni | Vasif Talıbov, Cahangir Əsgərov | mart-iyun 2004-cü il |
| 3 | Elmlər Akademiyasının Naxçıvan bölməsinin yeni elmi tədqiqat kompleksinin açılışı | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi | Vasif Talıbov, İsmayıl Hacıyev | fevral-dekabr 2004-cü il |
| 4 | Naxçıvanda dislokasiya olan "N" saylı hərbi hissənin yeni kompleksinin açılışı | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Müdafiə Nazirliyi | Vasif Talıbov, Səfər Əbiyev | fevral-dekabr 2004-cü il |
| 5 | Naxçıvanın tarixinə və mədəniyyətinə dair yeni tədqiqatların və sənədlər toplusunun çap olunması, ən yaxşı tarixi əsərlərin müəyyənləşdirilib yenidən nəşr edilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi | Vasif Talıbov, İsmayıl Hacıyev | fevral-dekabr 2004-cü il |
| 6 | Naxçıvan Muxtar Respublikasında dərc edilən qəzet və jurnalların yubileyə həsr olunmuş xüsusi nömrələrinin buraxılması | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | Vasif Talıbov | fevral-dekabr 2004-cü il |
| 7 | "Naxçıvan Muxtar Respublikası-80" tarixi-statistik məcmuəsinin hazırlanması və çapı | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi, Dövlət Statistika Komitəsi | Vasif Talıbov, İsmayıl Hacıyev, Arif Vəliyev | sentyabr 2004-cü il |

| № | Tədbirlər | İcraçı | Məsul şəxs | İcra müddəti |
|---|---|---|---|---|
| 8 | Azərbaycan Milli Elmlər Akademiyasında Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinə həsr edilmiş elmi simpoziumun keçirilməsi | Milli Elmlər Akademiyası | Mahmud Kərimov | sentyabr 2004-cü il |
| 9 | Respublikanın elm və təhsil müəssisələrində Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinə həsr edilmiş elmi sessiya və konfransların keçirilməsi | Təhsil Nazirliyi, Elmlər Akademiyası | Misir Mərdanov, Mahmud Kərimov | fevral-avqust 2004-cü il |
| 10 | Naxçıvana həsr olunmuş teleradio verilişlərinin hazırlanması və xüsusi rubrikaların, dəyirmi masaların təşkil edilməsi | Teleradio Verilişləri Şirkəti, Milli Elmlər Akademiyası, Yaradıcı və ictimai birliklər | Əli Həsənov, Nizami Xudiyev, Mahmud Kərimov | fevral-sentyabr 2004- cü il |
| 11 | Respublikanın mətbuat orqanlarında Naxçıvana həsr edilmiş məqalələrin verilməsi və yubiley tədbirlərinin işıqlandırılması | Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsi | Əli Həsənov | fevral-sentyabr 2004-cü il |
| 12 | "Naxçıvan ensiklopediyası"nın təkrar nəşrinin təşkil olunması | Milli Elmlər Akademiyası | Mahmud Kərimov | fevral 2005-ci il |
| 13 | Xarici ölkələrdə Azərbaycan diasporunun, onların dərnək və cəmiyyətlərinin iştirakı ilə yubiley tədbirlərinin keçirilməsi | Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi | Nazim İbrahimov | fevral-dekabr 2004-cü il |
| 14 | Yubiley münasibətilə ayrıca markalar bloku, müxtəlif açıqcalar, zərflər və digər filateliya məmulatının buraxılması | Rabitə Nazirliyi, Rəssamlar İttifaqı | Nadir Əhmədov, Fərhad Xəlilov | fevral-dekabr 2004-cü il |





## NAXÇIVAN HAVA LIMANINDA QARŞILANMA

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Naxçıvana gəlmişdir.

Naxçıvan beynəlxalq hava limanında dövlətimizin başçısını və onun xanımı Mehriban Əliyevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla, səmimiyyətlə qarşıladılar.

Milli geyimli qızlar respublikamızın rəhbərinə və onun xanımına gül dəstələri təqdim etdilər. Milli adətə uyğun olaraq üzərlik yandırıldı.

Hava limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Prezident İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı Azərbaycan əsgərlərini salamladı, onu qarşılamağa gəlmiş muxtar respublikanın yüksək vəzifəli şəxsləri ilə səmimi görüşdü.





*Naxçıvan Muxtar Respublikası – 80*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVANDA ŞƏHİDLƏR XİYABANINI VƏ ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN BÜSTÜNÜ ZİYARƏT ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də beynəlxalq hava limanının açılışından sonra Naxçıvan şəhərinə gəlmişdir.

Çox qədim tarixi, böyük dövlətçilik ənənələri olan, orta əsrlərdə Şərqin nüfuzlu elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi tanınan Naxçıvan bəşər sivilizasiyasına dəyərli töhfələr vermişdir. Əcəmi Naxçıvani özünün məşhur sənət nümunələri ilə Şərqdə yeni bir memarlıq məktəbinin əsasını qoymuşdur.

Tarixin sərt sınaqlarından keçən bu qədim diyar XX əsrin sonlarında, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başladığı hərbi təcavüz nəticəsində yenidən ağır imtahanla üzləşdi. Azərbaycanın əsas hissəsi ilə nəqliyyat əlaqəsi tamamilə kəsilən, blokada şəraitində yaşamağa məhkum olan Naxçıvan həm də ermənilərin silahlı hücumlarına məruz qalırdı. Belə bir ağır dövrdə böyük öndər Heydər Əliyevin Naxçıvana gəlməsi bu qədim diyarın xilası, qurtuluşu oldu. Naxçıvan dözdü, vuruşdu, yaşadı, yenilməzliyini sübut etdi. Qədirbilən naxçıvanlılar ümummilli liderimizin bu xidmətini unutmurlar...

Prezident İlham Əliyevi qarşılamaq üçün muxtar respublikanın hər yerindən Naxçıvana yüzlərlə adam gəlmişdi. Şəhər sakinləri ilə birlikdə onlar da dövlətimizin başçısına öz hörmət və ehtiramlarını bildirmək üçün küçələrə çıxmışdılar. Onların əllərində Azərbaycanın dövlət bayraqları, xalqımızın xilaskarı Heydər Əliyevin, Prezident İlham Əliyevin portretləri, ümummilli liderimizin müdrik kəlamları yazılmış şüarlar var idi.

Qədim diyarın sakinləri Azərbaycan Prezidentini xalq qəhrəmanı Koroğlunun heykəli yanında böyük mehribanlıqla, hərarətlə qarşıladılar. Prezident İlham Əliyev onlarla səmimiyyətlə görüşdü, göstərilən hörmətə görə dərin təşəkkürünü bildirdi, qayğı və problemləri ilə maraqlandı.

Ağsaqqallar, ağbirçəklər, ziyalılar dövlətimizin başçısına müstəqil Azərbaycanın daha da möhkəmləndirilməsi işində uğurlar arzuladılar. Ən çətin məqamlarda bütöv Azərbaycana, o cümlədən Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvana dayaq olan ümummilli lider Heydər Əliyevin xidmətlərini xatırlatdılar, bu tarixi fəaliyyətin heç vaxt unudulmayacağını və onun siyasətini ləyaqətlə davam etdirən İlham Əliyevin ətrafında sıx birləşərək, daim onu dəstəkləyəcəklərini vurğuladılar.

Sonra Prezident İlham Əliyev Şəhidlər xiyabanına gəldi, Vətənin azadlığı və suverenliyi, həmçinin, bu qədim diyarın erməni təcavüzündən müdafiəsi uğrunda canlarını qurban vermiş naxçıvanlıların məzarlarını ziyarət etdi.

Respublikamızın rəhbəri Azərbaycanın, doğma Naxçıvanın hər daşını özünə Vətən bilən və onun uğrunda mərdliklə döyüşən, şəhidlik zirvəsinə ucalan mərd mübarizlərin ruhuna dərin ehtiram əlaməti olaraq, abidə kompleksinin önünə əklil qoydu.

Hərbi orkestrin ifasında Azərbaycanın Dövlət Himni səsləndi.







**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

Azərbaycan Prezidenti İlham Əliyev mayın 14-də Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının salonuna toplaşanlar Azərbaycanın, o cümlədən muxtar respublikanın tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Mərasim iştirakçıları xalqımızın dahi oğlu, ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın 80 illiyi haqqında məruzə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə geniş nitq söylədi. Dövlətimizin başçısı qədim tarixə malik diyarın bugünkü inkişaf səviyyəsinə çatmasında ümummilli liderimiz Heydər Əliyevin xidmətlərini, diqqət və qayğısını vurğuladı, bu siyasətin gələcəkdə də davam etdiriləcəyini bildirdi. Azərbaycan Prezidenti son illərdə diyarın sosial-iqtisadi mədəni tərəqqisində əldə olunmuş uğurları, muxtar respublika rəhbərliyinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirdi.

Rəsmi hissədən sonra Naxçıvan Dövlət Musiqili Dram Teatrı aktyorlarının ifasında şair Nəriman Həsənzadənin "Atabəylər" tarixi dramının tamaşası göstərildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, onun xanımı Mehriban Əliyeva, təntənəli mərasimdə iştirak edən qonaqlar Naxçıvanın qədim tarixi ilə bağlı bu əsərə böyük maraqla tamaşa etdilər.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

-Əziz naxçıvanlılar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Naxçıvan Muxtar Respublikasının 80-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı və uğurlar arzulayıram.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan qədim diyardır. Naxçıvanın çox qədim tarixi vardır. 3500 il bundan əvvəl insanlar burada yaşamış və yaratmışlar. Eyni zamanda, Naxçıvanın çox zəngin dövlətçilik tarixi vardır. Naxçıvan Atabəylər, Eldəgizlər dövlətinin paytaxtı olmuşdur. Bütün dövrlərdə Naxçıvan Azərbaycan üçün dayaq olmuş, arxa olmuşdur. Heydər Əliyev demişkən, naxçıvanlılar çox cəsarətli







insanlardır. Onlarda milli qürur, milli şüur hissi çox yüksəkdir.

Naxçıvan Azərbaycana böyük mütəfəkkirlər, elm, incəsənət, mədəniyyət xadimləri, siyasi xadimlər, böyük sərkərdələr bəxş etmişdir. Naxçıvan Azərbaycana və dünyaya xalqımızın ümummilli lideri Heydər Əliyevi bəxş etmişdir.

Heydər Əliyev bütün dövrlərdə xalqa, millətə, dövlətə xidmət etmişdir. O, hakimiyyətə gəlməzdən əvvəl Azərbaycan müttəfiq respublikalar arasında ən aşağı səviyyədə idi. İqtisadi və sosial göstəriciləri digər respublikalardan çox geri qalırdı. Amma 1982-ci ildə Heydər Əliyev Moskvaya gedəndə Azərbaycan bütün sovet respublikaları arasında birinci yerdə idi. Məhz o illərdə Azərbaycanda yeni sənaye müəssisələri, istehsalat kompleksləri, mədəniyyət ocaqları, müasir Azərbaycan üçün mühüm rol oynayan böyük potensial yaranmışdır. Əgər o illərdə bu potensial yaradılmasaydı, müstəqillik əldə etdikdən sonra ölkəmiz daha çətin vəziyyətə düşə bilərdi. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılmışdır-infrastruktur yeniləşmiş, ölkəmiz üçün önəmli rol oynayan neft sənayesi yenidən qurulmuşdur. Bu gün Azərbaycanın neft potensialını müəyyən edən infrastruktur məhz o illərdə yaradılmışdır. Heydər Əliyev bütün vasitələrdən istifadə edərək çalışırdı ki, Azərbaycanda yeni müəssisələr tikilsin, ölkəyə texnologiyalar gətirilsin, yeni iş yerləri açılsın. Məhz onun fəaliyyəti nəticəsində 1982-ci ildə Azərbaycan 15 müttəfiq respublika arasında birinci yerdə idi. Bu, bir daha göstərir ki, iş olan yerdə nəticə də olur.

Eyni zamanda deməliyəm ki, bu tarix sonralar da təkrar olunmuşdur. 1987-ci ilədək Azərbaycanın inkişaf sürəti yüksək idi. Amma 1987-ci ildən 1993-cü ilədək ölkəmiz çox çətin bir vəziyyətə düşdü. O vaxt Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, respublika rəhbərliyinin fəaliyyətsizliyi ucbatından çox ağır və çətin vəziyyət yaranmışdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ən çətin vəziyyətdə yaşayan ölkəyə çevrilmişdi. Təsadüfi deyil ki, 1991-93-cü illərdə



Azərbaycan çox ağır bir şəraitdə yaşayırdı.

1990-cı ildə Heydər Əliyev Naxçıvana qayıtdı. O, burada naxçıvanlılarla birlikdə çox ağır və çətin şəraitdə yaşadı və işlədi. Həmin illər Naxçıvan üçün çox çətin, Muxtar Respublikanın gələcəyi üçün həlledici bir dövr idi. Heydər Əliyevin nüfuzu, beynəlxalq təcrübəsi, iradəsi həmin illər Naxçıvanı qorudu. Heç kəs üçün sirr deyil ki, Ermənistanın təcavüzü Naxçıvana da istiqamətləndirilmişdi. Onların planlarında buranın da işğalı var idi. Ermənilər Naxçıvana hücumlar etmişdilər. Amma naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında bütün bu hücumların qarşısını aldılar. Naxçıvan yaşadı və burada sülh və əmin-amanlıq təmin olundu.

Xalqın tələbi ilə Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıtdı. O illərdən etibarən yenidən Azərbaycanda dirçəliş dövrü başladı-müharibəyə son qoyuldu, atəşkəs rejimi tətbiq edildi, inkişaf üçün gözəl şərait yaradıldı, asayiş bərpa olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi və xalqımız rahat yaşamağa başladı. Əgər biz yenidən qonşu ölkələri, keçmiş sovet respublikalarını Azərbaycanla müqayisə etsək, görərik ki, bu son on il ərzində ölkəmiz Heydər Əliyevin rəhbərliyi ilə geniş mənada bölgədə liderə çevrilmişdir. Bütün digər keçmiş sovet respublikaları ilə müqayisədə Azərbaycanın inkişaf sürəti çox yüksəkdir. Ölkəmizdə geniş islahatlar aparılır, ümumi daxili məhsulun həcmi ildən-ilə artır. Azərbaycana böyük inam və hörmət vardır. İqtisadiyyatımıza böyük həcmdə sərmayələr qoyulur. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bütün başqa qonşu ölkələrdən irəlidədir. Biz bu liderliyi saxlayırıq və əminəm ki, əldən verməyəcəyik.

Azərbaycanda ölkəmiz, region və bütün dünya üçün çox mühüm olan layihələr həyata keçirilir. Heydər Əliyevin neft strategiyası öz gözəl nəticələrini verməkdədir. Bu strategiya uğurla həyata keçirilir. Neft sənayesində minlərlə yeni iş yerləri açılmış, bu sahəyə böyük həcmdə sərmayələr cəlb olunmuşdur. Bu sərmayələrin nəticəsində ölkədə çox geniş infrastruktur, kommunikasiya nəqliyyat layihələri həyata keçirilir. Azərbaycanın neft sənayesinin uğurlu inkişafı ölkəmizin gələcəyi üçün mühüm bir amildir.

Azərbaycan büdcəsi ildən-ilə artır. Heç kəs üçün sirr deyil ki, bu artım, ilk növbədə, neft sektorunun hesabına baş verir. 1993-cü ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdanda dövlətin xəzinəsində 1 manat da pul yox idi, xəzinə tamamilə boş idi. Ölkə demək olar ki, müflisləşmişdi. Bu gün isə Azərbaycanın valyuta ehtiyatları 1 milyard 500 milyon dollara bərabərdir. Bu, yalnız və yalnız Heydər Əliyevin apardığı siyasətin nəticəsində baş vermişdir. Bütün bu siyasət davam edir. Azərbaycanda geniş özəlləşdirmə proqramı həyata keçirilir, iqtisadi islahatlar aparılır, sosial məsələlərə böyük diqqət göstərilir, əmək haqları və pensiyalar ildən-ilə artırılır və bundan sonra da artırılacaqdır. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir.

Ölkəmiz dinamik surətdə inkişaf edir və bu inkişafı vətəndaşlarımız öz gündəlik həyatında hiss etməlidirlər. Ən çətin vəziyyətdə yaşayan soydaşlarımız qaçqınlar və məcburi köçkünlərdir. Onlar üçün də imkan daxilində yeni şərait yaradılır, valyuta ehtiyatlarından istifadə edilərək yeni şəhərciklər, qəsəbələr salınır, xəstəxanalar və məktəblər tikilir. Bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Sosial baxımdan ən az müdafiə olunan insanlara diqqət artırılacaqdır.





Azərbaycan digər istiqamətlərdə də çox uğurlar əldə edir. Bildiyiniz kimi, 1993-cü ilə qədər ölkəmiz informasiya blokadası şəraitində yaşayırdı. Azərbaycan haqqında məlumat demək olar ki, dünya ictimaiyyətinə çatdırılmırdı. Çatdırılan cüzi informasiyalar isə mənfi xarakter daşıyırdı. Biz bu blokadanı yara bildik və bu gün Azərbaycan dünya birliyində öz layiqli yerini tuta bilmişdir. İndi Azərbaycan müxtəlif beynəlxalq təşkilatların fəal üzvü və iştirakçısıdır. Bu təşkilatların ölkəmizə olan münasibəti də məhz Heydər Əliyevin diplomatiyası sayəsində çox yüksək səviyyədədir. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar beynəlxalq təşkilatların mövqeyi göstərir ki, onlarda bu məsələ barədə aydın bir fikir də vardır. Fakt ondan ibarətdir ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, bu işğalın nəticəsində ölkəmizdə 1 milyon qaçqın və köçkün vardır. Bizim haqlı tələbimiz ondan ibarətdir ki, ərazi bütövlüyümüz bərpa olunsun. Ümidvaram ki, Azərbaycan bundan sonra da beynəlxalq təşkilatlarda fəal rol oynayacaq və bı istiqamətdə yeni addımlar atılacaqdır. Son iki gün ərzində Naxçıvanda səfərdə olarkən mən öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapa bilər.

Gələcəkdə bizim böyük planlarımız var. Bizi böyük işlər gözləyir. Biz Heydər Əliyev siyasətini davam etdirməliyik. Bu yaxınlarda imzalanmış fərmanlar məhz bu məqsədə xidmət edir. Son on il ərzində Azərbaycanda görülmüş işlər davam etdirilməlidir. Bunun üçün bütün imkanlar vardır. Azərbaycanın təbii sərvətləri, çox gözəl coğrafi-siyasi vəziyyəti vardır. Regionda ölkəmizin iştirakı olmadan heç bir beynəlxalq layihə həyata keçirilə bilməz. Azərbaycanda çox peşəkar kadrlar, mütəxəssislər vardır. Ən önəmlisi isə, xalqın dəstəyi və Heydər Əliyevin siyasəti vardır.

Mən Azərbaycanın gələcəyinə çox nikbin baxıram. Hamımız bilirik ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkəmiz üçün çox önəmli rol oynayan layihələr yaxın zamanlarda Azərbaycana daha yüksək səviyyədə xidmət etməyə başlayacaqdır. Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəməri inşa edən beynəlxalq konsorsium ona Heydər Əliyevin adını vermişdir. Kəmər istismara verildikdən sonra Azərbaycan bundan çox böyük mənfəət götürəcəkdir. Ölkəmizə böyük həcmdə valyuta axını təmin olunacaqdır. Bu bizə Azərbaycanı hərtərəfli inkişaf edtirməyə imkan verəcəkdir. Yeni infrastruktur layihələri, sosial proqramlar həyata keçiriləcəkdir. İqtisadi inkişafın daha da sürətlə artımı təmin olunacaqdır. Bir sözlə, bu amillər həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcəkdir.

Burada Heydər Əliyevin ordu quruculuğu sahəsində müstəsna xidmətləri qeyd olundu. Hələ 1970-ci illərdə Bakıda Cəmşid Naxçıvanski adına məktəbin yaradılması göstərir ki, o dövrdə ümummilli liderimiz Azərbaycanın müstəqil dövlət olacağını və güclü orduya ehtiyac olacağını görürdü. Bu istiqamətdə də çox böyük işlər görülür. Ali Baş Komandan Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda çox güclü ordu yaradılmışdır. Əgər 1993-cü ilə qədər bizdə ordu yox idisə, indi silahlı qüvvələrimiz müasir standartlara cavab verir və qarşıda duran bütün vəzifələri yerinə yetirməyə qadirdir. Biz çalışacağıq ki, ordumuzu daha da gücləndirək, peşəkarlığını daha da artıraq.

Mən üçüncü gündür ki, Naxçıvandayam. Çox sevinirəm ki, bu qədim diyar belə

sürətlə inkişaf edir. Çətin vəziyyətdə, blokada şəraitində yaşayan Naxçıvan uğurla inkişaf edir. Bu inkişaf bütün sahələri əhatə edir. Naxçıvanda ümumi daxili məhsulun artımı çox yüksəkdir. Ümumi daxili məhsulda özəl sektorun payı 85 faiz təşkil edir. Deməliyəm ki, bu göstərici Azərbaycan üzrə 75 faizdir. Naxçıvan bu sahədə də liderdir və əminəm ki, bu liderliyini gələcəkdə də əldən verməyəcəkdir.

Baxın, son iki gün ərzində nə qədər yeni müəssisə, obyekt istifadəyə verilmişdir. Onların tikilib istifadəyə verilməsi yalnız Heydər Əliyevin dəstəyi nəticəsində mümkün olmuşdur. Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də, Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir.

Naxçıvanda sosial məsələlərə böyük diqqət göstərilir. Əlillərin Bərpa Mərkəzi, digər sosial obyektlər istifadəyə verilmişdir və yüksək səviyyədə fəaliyyət göstərir. Kompüter tomoqrafiyası kabineti açılmışdır. İndi naxçıvanlılar müayinədən keçmək üçün başqa şəhərlərə getməyəcək, burada ən yüksək səviyyədə və pulsuz müayinə olunacaqlar. Biz elektron kitabxananın açılışında iştirak etdik. Bu kitabxana çox gözəl və müasir binada yerləşir. Bina həm gözəl memarlıq üslubunda tikilmiş, həm də yüksək səviyyədə təchiz olunmuşdur. Dünən Naxçıvanda böyük sənaye kompleksi açıldı. Bu kompleks Muxtar Respublikanın tələbatını ödəyəcəkdir. Məqsədimiz budur ki, Azərbaycanın da, Naxçıvanın da istehsal etdiyi məhsullar daxili tələbatı ödəsin, yerli istehsal güclənsin. Bu, belə olarsa, idxal da azalar, habelə yeni iş yerləri açılar. Yeni iş yerlərinin açılması bizim siyasətimizin əsas istiqamətidir. Mən çox sevinirəm ki, son aylar ərzində Azərbaycanın hər bir yerində yeni iş yerləri açılır, yerli icra orqanları və sahibkarlar bu məsələyə böyük diqqətlə yanaşırlar. Bilirlər ki, dövlət bu istiqamətdə onların fəaliyyətini dəstəkləyəcəkdir.

Naxçıvan üçün böyük əhəmiyyət kəsb edən Vayxır su anbarı tikilir və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bu obyekt də Heydər Əliyevin əsəridir. O, Naxçıvanda olarkən müvafiq tapşırıqlar vermişdir, vəsait ayırmışdır. Bu vəsaitin hesabına Vayxır su anbarı tikilir. Mən dünən oraya baş çəkdim, vəziyyətlə tanış oldum və işlərin çox yüksək səviyyədə aparıldığını gördüm. Bu obyekt Naxçıvanın gələcəyi üçün, kənd təsərrüfatının inkişafı üçün çox vacibdir. Digər məsələlər də öz həllini tapır. Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır.

Fürsətdən istifadə edərək, mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm.

Biz hamımız-mən də, Vasif Talıbov da, sizlər də Heydər Əliyevin komandasıyıq. Hamımız Heydər Əliyevin övladlarıyıq və gərək elə işləyək ki, onun adını daim uca tutaq.

Mən yenə də 1990-93-cü illərə qayıtmaq istəyirəm. O vaxt Heydər Əliyev naxçıvanlılarla birlikdə yaşayırdı, çalışırdı, böyük işlər görürdü. Mən də tez-tez Naxçıvana gəlirdim, qısa da olsa, onunla birlikdə olurdum. Onun hər bir uğura, görülən hər bir işə





necə sevindiyini görürdüm. Vasif Talıbov burada dedi ki, Azərbaycanın dövlət simvolu olan milli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılmışdır. O vaxt Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı dalğalanırdı. Naxçıvan isə milli bayrağımızı qaldırmışdı. Ondan sonra qardaş Türkiyənin iştirakı və köməyi ilə "Ümid" körpüsü tikildi. Bu körpü, həqiqətən, Naxçıvan üçün həyat körpüsünə çevrildi. Çünki bir tərəfdən Ermənistanın blokadası, digər tərəfdən isə Azərbaycanın o vaxtkı rəhbərliyinin ögey münasibəti, təzyiqlər naxçıvanlıların həyatını daha da çətinləşdirirdi. Amma bütün bunlara baxmayaraq naxçıvanlılar öz liderini qorudular, heç bir təzyiq onlara təsir etmədi və axıra qədər Heydər Əliyevi dəstəklədilər. Sonra Heydər Əliyev Bakıya getdi, orada işləməyə başladı. Ancaq hamımız bilirik ki, onun ürəyi, qəlbi həmişə naxçıvanlılarla bir yerdə idi. Onun qəlbində Naxçıvanın xüsusi yeri vardı.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən təcrid olunmuş vəziyyətdə yaşayır. Naxçıvan Heydər Əliyevin doğma Vətənidir. Mən də bu hisslərlə yaşayıram. İstəyirəm biləsiniz ki, mənim də qəlbimdə Naxçıvanın xüsusi yeri var və bu yer çox böyükdür. Bu torpaq mənim də Vətənimdir, mənim övladlarımın da Vətənidir. Əminəm ki, biz-Heydər Əliyevin davamçıları Naxçıvanı da, Azərbaycanı da Heydər Əliyevin yolu ilə inamla yeni qələbələrə doğru aparacağıq.

Bir daha bu gözəl bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Naxçıvan və naxçıvanlılar!

Yaşasın Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan!

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI

Möhtərəm Prezident!
Hörmətli qonaqlar!
Hörmətli mərasim iştirakçıları!

Bu gün müstəqil Azərbaycanın həyatında əlamətdar hadisəyə çevrilən Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi geniş qeyd olunur.

Bu tarixi yubiley günlərində sevinclə yanaşı, sonsuz kədər içərisindəyik. Çünki, muxtar respublikanın 80 illiyini, ölkəmizi və xalqımızı böyük bəlalardan hifz edərək qoruyub saxlayan, əmin-amanlığa, sabitliyə qovuşduran, işıqlı günlərə çıxaran möhtərəm Heydər Əliyevsiz keçiririk.

Ötən il xalqımıza üz verən böyük itkinin yeri zaman keçdikcə daha aydın görünür. Biz bütün dövrlərin ən böyük Azərbaycanlısını, xalqın bir neçə yüz ildə yetişdirə biləcəyi nadir tarixi Şəxsiyyəti, Ümummilli liderimizi itirmişik.

Yubiley tədbirinin iştirakçılarından müstəqil Azərbaycanın qurucusu və xilaskarı, ümummilli liderimiz möhtərəm Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmələrini xahiş edirəm.

Ruhu şad olsun!

Dahi şəxsiyyətlər öz xalqlarının haqq işi uğrunda fədakarlıqları ilə əbədiləşirlər. Belə insanlar ölməzlik qazanırlar. Ölkə rəhbəri hörmətli İlham Əliyevin dediyi kimi: **«Heydər Əliyevin fiziki yoxluğu bizi sarsıtmamalıdır. Əsas odur ki, onun siyasəti yaşayır. Onun ideyaları və əsəri olan müstəqil Azərbaycan yaşayır».**

Möhtərəm Prezident!

Xalqımızın dünəni, bu günü və sabahı üçün çox mühüm tarixi, siyasi və elmi əhəmiyyəti olan «Naxçıvan Muxtar Respublikasının 80 illiyinin keçirilməsi haqqında» sərəncam imzaladığımıza görə, ərazi və muxtariyyəti daim məkrli düşmənlərin həmlələrinə məruz qalan, blokada vəziyyətinə düşməsinə baxmayaraq ümidini itirməyən, mübarizə aparan və yaşayan qədim Naxçıvana müstəqil dövlətin rəhbəri kimi tarixi səfərinizə görə Sizə muxtar respublikanın bütün əhalisi adından dərin minnətdarlığımızı, tükənməz məhəbbətimizi və yüksək ehtiramımızı bildirirəm!

Ümummilli liderimizin Azərbaycana bağlı Naxçıvan və onun tarixi barədə çoxlu sayda qiymətli fikirləri, ölkəmizin tarixinə sistemli baxış və müstəqil dövlətin milli maraqlarına uyğun elmi yanaşma tələb edən müddəaları vardır. Möhtərəm Heydər Əliyev deyirdi ki: **«Naxçıvanın tarixi muxtar respublikanın yaranmasından başlanmır. Naxçıvan Azərbaycanın ən qədim diyarlarından biridir, çox qədim tarixə malik olan Azərbaycanın bir hissəsidir, 3500 illik tarixə malik olan Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunların hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərmişdir və gələcəkdə də göstərəcəkdir».**

Naxçıvan mürəkkəb və çox çətin bir inkişaf yolu keçib. Əlverişli təbii-coğrafi mövqeyi paleolit dövründən başlayaraq burada insanların məskən salmasına şərait ya-







ratmışdır.

Eyni zamanda, Naxçıvanın şərqlə qərbi birləşdirən qədim İpək yolunun üstündə yerləşməsi onu fatehlərin, böyük dövlətlərin siyasi maraqlarının kəsişdiyi yerə çevirmişdir.

Eramızdan əvvəl 8-ci əsrdə Manna dövlətinin tərkibində olan, sonradan skiflər tərəfindən ələ keçirilən Naxçıvan daha sonra Midiya, eramızdan əvvəl 6-cı əsrdə isə Əhəmənilər tərəfindən işğal olunmuşdur. Eramızdan əvvəl 4-cü əsrdə Makedoniyalı İsgəndərin hücumlarına məruz qalan, imperiya dağıldıqdan sonra isə Atropatena dövlətinə qatılan Naxçıvanı bizim eranın 624-cü ilində Bizans imperatoru II İraklı ələ keçirmişdir. 7-ci əsrin 40-cı illərində Naxçıvanı ərəb qoşunları işğal etmişdir. On üç-on dördüncü əsrlərdə xarəzmşahların, monqolların, qızılordalıların Naxçıvana dağıdıcı yürüşləri olmuşdur. Bu dövrlərdə Naxçıvanın alınmaz qalası rəmzinə çevrilmiş Əlincə qalasının müdafiə-istehkam mədəniyyəti dünyaları fəth etmiş Əmir Teymuru heyrətə gətirmişdir.

Bir sözlə, Naxçıvanın siyasi tarixinin böyük bir qismi yadellilərə qarşı mübarizədən ibarətdir. Əldən-ələ keçsə də, bu qədim şəhər heç vaxt qəddini əymənmiş, öz mədəniyyəti, adət-ənənələri, dövlətçiliyi və ən vacibi isə tarixi ərazisini qoruyub-sax-

laya bilmiş, müasir dövrümüzədək gətirib çıxarmışdır.

Azərbaycanın bu tarixi ərazisində muxtariyyətin təşkili istiqamətində görülən tədbirlər, özünümüdafiə qruplarının formalaşması 1918-1920-ci illərdə gedən proseslərin məntiqi nəticəsi kimi ortaya çıxmış, qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana birləşdirilməsindən sonra isə zərurətə çevrilmişdir. Azərbaycan əraziləri hesabına öz dövlətini yaradan ermənilər təkcə Zəngəzurla kifayətlənmir, Naxçıvana da sahiblənmək istəyirdilər. Bu ərəfədə Azərbaycanın əsas ərazisindən təcrid olunmuş Naxçıvanın nə qədər gərgin və təzadlı bir dövr yaşadığını belə bir fakt da sübut edir ki, qısa müddətdə burada iki xarici dövlətin ermənipərəst general-qubernatorluğu yaranmış, şəhər iki dəfə ermənilərin əlinə keçmiş, bu ərazidə ermənilərin hərbi-siyasi aksiyaları intensiv xarakter almışdır.

Yeni yaranan Azərbaycan Xalq Cümhuriyyətinin şimalda bolşeviklərin, cənubda isə ermənilərin hərbi təcavüzündən ehtiyatlanaraq barışdırıcı siyasət yeritməsi, qədim Azərbaycan şəhəri olan İrəvanı ermənilərə güzəştə getməsi, tərəddüd göstərərək Naxçıvan diyarının Azərbaycanın tarixi torpaqları olduğunu elan etməməsi «Böyük Ermənistan» ideyasını hansı yolla olursa-olsun gerçəkləşdirmək istəyən daşnakların əl-qolunu daha da açmışdı.

Ermənilərin silahlı basqınlarına mərdliklə sinə gərən Naxçıvan əhalisi isə özünün yeganə xilasını Azərbaycanın tərkibində qalmaqda görürdü, **«heç vaxt Azərbaycandan ayrılmayacağını»**-deyirdi.

Minnətdarlıq hissi ilə qeyd etmək istəyirik ki, qardaş Türkiyənin 1918-ci ilin iyulunda Kazım Qarabəkir Paşanın komandanlığı ilə Naxçıvana gəlmiş on birinci Qafqaz ordusu ermənilərin qovulmasında naxçıvanlılara yardım etdi. Bundan sonra Naxçıvanda qısa müddətdə fəaliyyət göstərən Araz-Türk Respublikası yerli əhalini silahlandıraraq erməni işğalının qarşısını aldı. Paytaxtı Naxçıvan şəhəri olan bu respublikanın ərazisi təxminən 16 min kvadratkilometr, əhalisi bir milyon nəfərə yaxın idi.

Əgər 1918-20-ci illərdə ermənilərin Naxçıvanı işğal etməklə bağlı cəhdləri daha çox hərbi və siyasi müstəvidə aparılırdısa, 1920-ci ilin aprelindən, bolşeviklərin Azərbaycanı işğalından sonra daşnak Ermənistanın ərazi iddiası mərkəzi hakimiyyətin regional siyasəti səviyyəsinə qaldırılmışdı. O zamankı «fəhlə-kəndli» hökumətinin apardığı bu məkrli siyasət Naxçıvanın öz fəhlə və kəndlilərinin qətiyyətli mövqeyi nəticəsində uğursuzluğa düçar oldu. Belə ki, 1921-ci ilin əvvəlində Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs vermişdi.

Bütün bunlardan sonra Ermənistanın ilk baş naziri olmuş şəxs etiraf etməyə məcbur olmuşdu ki, Naxçıvan və Şərurda... inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik. Silaha əl atmağa, qoşun yeritməyə və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi, hətta silah gücünə qura bilmədik. Məğlub olduq və geri çəkildik.

Qeyd edilməlidir ki, Naxçıvan məsələsi təkcə döyüş meydanlarında həll olunmurdu. O, eyni zamanda fəal diplomatik və siyasət meydanına da çıxarılmışdı.

Naxçıvan məsələsinin siyasi aktuallığını belə bir fakt da təsdiq edir ki, bu məsələ 1918-ci ildə bir neçə dəfə Zaqafqaziya Seymində, 1918-20-ci illərdə dəfələrlə Azərbaycan Xalq Cümhuriyyətinin, Türkiyə Respublikasının və Ermənistanın Milli şuralarında və parlamentlərində, Təbriz bələdiyyəsində və Maku xanlığında, 1919-cu ildə Parisdə Versal sülh konfransında, 1920-1921-ci illərdə Azərbaycan və Ermənistan İnqilab komitələrində, 1921-ci il martın 16-da Rusiya Kommunist Bolşeviklər Partiyasının Siyasi Bürosunda, 1920-21-ci illərdə Rusiyanın Xalq Komissarları Sovetində müzakirə mövzusuna çevrilmişdir. Naxçıvanın tarixi taleyi yalnız 1921-ci ildə imzalanmış iki beynəlxalq sənəddə-Moskva və Qars müqavilələrində öz əksini tapa bildi.





Zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi sonda məhz bu müqavilələrlə əhalinin arzu və tələbinə uyğun olaraq həll edildi. Naxçıvanın Azərbaycanın tərkibində Muxtar Respublika kimi qalmaq imkanı reallaşdı.

Azərbaycanda Sovet hakimiyyəti 1920-ci ilin aprelində qurulsa da, bu hakimiyyətin strukturları Naxçıvanda 3 ay sonra, yalnız iyul ayının 29-da yarandı. Bahadur Vəlibəyovun başçılığı ilə XI ordunun 300 nəfərlik bir hissəsi Gorus-Biçənək-Kolanı istiqamətindən keçərək Naxçıvana daxil oldu. Naxçıvan şəhərində hərbi inqilab komitəsi və müdafiə şurası yaradıldı. Bir qədər sonra diyarın başqa bölgələrində də inqilab komitələri və yerli hakimiyyət orqanları təşkil olundu. Sovet hakimiyyəti Naxçıvanın bütün ərazisində 1921-ci ilin yanvarınadək qurulub başa çatdırıldı. Həmin ilin sentyabrında Naxçıvan Xalq Komissarları Soveti yaradıldı. Əvvəlcə onun 7 Xalq Komissarlığı, oktyabr ayında isə əlavə olaraq bir neçə komissarlıq və baş idarə təşkil edildi. Muxtar qurumun təqribən 16-ya qədər komissarlığı var idi.

1922-ci ilin yanvarında Naxçıvanda Sovetlərin birinci qurultayı keçirildi. Diyar İnqilab Komitəsi ləğv olundu və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini yaratdılar.

1922-ci ilin dekabrında I Zaqafqaziya sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarda Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu təsdiq etdi.

1923-cü il dekabr ayının 31-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan diyarının Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqda qərar qəbul etdi və bunun təsdiqini Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsindən xahiş etdi. 1924-cü il yanvarın 8-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Diyarını Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi barədə qərar qəbul etməklə Azərbaycanın tərkibində saxladı.

Naxçıvan MSSR-nin Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il yanvarın 18-də keçirilmiş birinci plenumu həmin qərarı təsdiq etdi və bundan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq olundu. Möhtərəm Heydər Əliyevin dediyi kimi, **bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi ən böyük tarixi nailiyyət idi.**

Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsində bu illər ərzində qəbul edilmiş konstitusiyaların böyük mühüm əhəmiyyəti olmuşdur.

Naxçıvanın muxtariyyət statusunun yaradılmasına ilk təşəbbüs kimi 1924-cü ilin aprelində Əsasnamə qəbul olunmuşdur. Bu Əsasnamədə Naxçıvan özünün hakimiyyət orqanları olan muxtar qurum kimi təsbit olundu.

Muxtar respublikanın 1926-cı il aprelin 18-də qəbul olunmuş birinci Konstitusiyasında və sonrakı konstitusiyalarında Naxçıvan Azərbaycanın tərkibində muxtar respublika kimi təsbit olunmuşdur. Göründüyü kimi, Naxçıvanın muxtariyyəti 1918-1921-ci illərdə bölgədə baş verən proseslər, ona bilavasitə təsir edən daxili və xarici amillər, diyarın coğrafi-siyasi vəziyyəti və beynəlxalq müqavilələr sayəsində mümkün olmuşdur.

Buna baxmayaraq, erməni tarixçiləri, siyasətçi və hərbiçiləri bütün beynəlxalq hüququzidd vasitələrlə Azərbaycanın bu qədim torpağına qarşı işğalçılıq hərəkətlərini davam etdirmiş, buna bütün iyirminci əsr boyu qeyri-qanuni formada bəraət qazandırmağa çalışmışlar.

1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 65 kvadratkilometr ərazisi Ermənistana verilmişdir. 1930-cu ildə Ermənistana verilən Azərbaycan torpaqları hesabına indiki Ermənistan Respublikasının Mehri rayonu yaradılmışdır. Bununla da, Naxçıvanın ərazi cəhətdən Azərbaycanla əlaqəsi kəsilmişdir. Göründüyü kimi, ermənilər tərəfindən Naxçıvanın indiki blokadasının əsası hələ ötən əsrin 20-30-cu illərində qoyulmuşdur.

Ötən əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış hərc-mərclikdən istifadə edən Ermənistan Azərbaycana, o cümlədən Naxçıvan Muxtar Respublikasına qarşı ərazi iddialarını müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəlmişdir. 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Sovet qoşun hissələrinin Bakıya müdaxiləsindən 8 saat əvvəl erməni silahlı dəstələri Naxçıvana hücum edərək Kərki kəndini işğal etmişlər. Lakin ermənilərin işğalçılıq niyyətləri bununla tamamlanmır. Beynəlxalq təcrübədə misli görünməmiş təzyiq metodlarına əl atan Ermənistan hökuməti 1991-ci ildə onun ərazisindən keçib Naxçıvana gələn radiorele, təbii qaz, elektrik xətlərini, avtomobil yolunu, 1992-ci ilin aprelində isə dəmiryol nəqliyyatını tamamilə dayandırdı. Bu təcavüzkarlıq siyasəti nəticəsində Naxçıvana bu günədək Azərbaycandan təcrid edilmiş şəraitdə, ağır blokada vəziyyətində yaşamaq taleyi qismət oldu.

Ölkə Prezidenti hörmətli İlham Əliyevin «Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında» Sərəncamında bu məsələ xüsusi qeyd olunaraq göstərilir ki, **Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddialarının obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik təcrübəsinə malik bu diyarının tam dolğun, obyektiv tarixi Azərbaycana, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir.**

Hörmətli mərasim iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının yubiley şənlikləri keçmiş Sovetlər Birliyi dövründə də bir neçə dəfə qeyd edilib. 1949-cü ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə isə 60 illik yubileyləri keçirilmişdir.

Bu gün Azərbaycanın dövlət müstəqilliyi şəraitində Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının yubileyi ikinci dəfədir ki, qeyd edilir.





Bu yubileylər arasında Naxçıvan inkişaf yolu keçmişdir. Naxçıvan Muxtar Respublikasının Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi yüksək tərəqqiyə qovuşması 1969-cu ildən, möhtərəm Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdən başlanmışdır.

Həmin ilə qədər Naxçıvan Muxtar Respublikasına münasibətdə mərkəzi hakimiyyətin yeritdiyi siyasət regionu imperiyanın aqrar əlavəsinə çevirmək siyasətinin davamı idi. Təbii sərvətlərlə zəngin olan Naxçıvan Muxtar Respublikasında bu dövrdə məhsuldar qüvvələrin inkişafı bilərəkdən aşağı səviyyədə saxlanırdı.

Bu siyasətin kökündə ermənilərin, onların havadarlarının məkrli niyyətləri dayanırdı. Məqsəd yadın idi: qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsi nəticəsində əsas ərazidən təcrid edilən Naxçıvanı iqtisadi cəhətdən zəif olan regiona çevirmək, bu yolla əhalini ata-baba torpaqlarından didərgin salmaq, boşalan torpaqları isə Ermənistana güzəştə getmək.

Möhtərəm Heydər Əliyevin qətiyyəti və siyasi iradəsi sayəsində bu niyyətlərin qarşısı alındı. Məhz bu dövrdən Naxçıvan Muxtar Respublikası özünün ikinci dövrünü yaşamağa başladı.

1969-cu ildən sonra mürəkkəb və tarixən çətin şəraitdə həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada sənaye və tikinti sahələrinin, aqrar-sənaye kompleksinin və onun istehsal infrastrukturunun yüksək inkişafı baş verdi, sənayenin emal və hasilat şəbəkələri genişləndi. Sənaye istehsalının quruluşunda konserv, üzüm emalı, tikinti materialları, elektrotexnika avadanlığı, meşə və ağac emalının xüsusi çəkisi xeyli artdı.

Naxçıvan şəhərində ildə 55 milyon butulka istehsal edən şüşə qablar zavodu, alt trikotaj fabriki, tütün fermentasiya, alüminium qablar, elektrotexnika, Araz təcrübə zavodları, taxıl məhsulları və ət-süd kombinatları, Ordubad və Şərur rayonlarında konserv zavodları, Şərurda radio və Ordubadda elektron zavodları məhz bu illərdə tikilib istifadəyə verilmişdir.

Görülən tədbirlərin nəticəsidir ki, 1980-ci ilin sonuna yaxın məhsul istehsalı muxtar respublikanın təşkil edildiyi 1924-cü ilə nisbətən 180 dəfədən çox artmışdır. 1980-ci ilin təkcə iki günü ərzində 1913-cü ildəki qədər sənaye məhsulu istehsal olunurdu.

1969-cu ildən sonra Naxçıvan MR böyük tikinti meydançasına çevrilmişdir. Bu illərdə respublikanın rəhbəri kimi möhtərəm Heydər Əliyevin Naxçıvana səfərləri mühüm obyektlərin, yaşayış sahələrinin istifadəyə verilməsi ilə əlaqədar olmuşdur. Təkcə Naxçıvan şəhərində 45 min nəfər əhalinin yaşadığı yeni yaşayış massivləri salınmış, 400 çarpayılıq muxtar respublika xəstəxanası, doğum evi, uşaq xəstəxanası, dəri-zöhrəvi, vərəm və onkoloji dispanserləri, şəhər poliklinikasının yeni binası, rayonlarda mərkəzi xəstəxanalar, feldşer-mama məntəqələri tikilmişdir.

Bu dövrdə 53 min 246 şagird yeri olan 111 məktəb binasının, 3920 yerlik 38 uşaq bağçasının, 40-a yaxın məktəbdənkənar uşaq tərbiyə müəssisəsinin tikilib istifadəyə verilməsi xalqın mədəniyyətinə və təhsilinə olan qayğının ən parlaq təzahürü idi.

Ümumi iqtisadi inkişaf aqrar bölməni də əhatə etmiş, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əsaslı addımlar atılmışdır. Kimyalaşdırma, irimiqyaslı meliorasiya-irriqasiya tədbirləri həyata keçirilmiş, Araz, Bənəniyar, Sirab kimi dəryaçalar yaradılmışdır.

Süni göllərin və dəryaçaların yaradılması o dövrdə Naxçıvanın xilası istiqamətində atılan əhəmiyyətli addımlardan biri idi. Məsələ bundadır ki, mərkəzi hakimiyyət ötən əsrin 60-cı illərindən başlayaraq Naxçıvanın boşaldılmasının ayrı bir incə üsulunu da tapa bilmişdi. Bu, Ermənistana aid yüksəkliklərdən başlayan çayların məcrasını dəyişməklə muxtar respublika ərazisində süni quraqlıq yaratmaq idi. Ermənilər ittifaq rəhbərliyini ələ alaraq, getdikcə səviyyəsi aşağı düşən Göyçə gölündə balıq ehtiyatlarının tükənməsinin qarşısını almaq bəhanəsi ilə, Arpaçayın suyunun bu gölə axıdılması barədə çoxdan hazırlanmış qərara qol çəkdirə bilmişdilər. Maraqlıdır ki, o zamankı Azərbaycan rəhbərliyi muxtar respublikanı böyük təhlükə qarşısında qoyan bu layihəyə heç bir münasibət göstərməmiş, etirazını bildirməmişdir.

Möhtərəm Heydər Əliyevin qayğısı ilə 1977-ci ildə istifadəyə verilən və tutumu 150 milyon kubmetr olan Arpaçay su anbarının tikintisi, əslində ermənilərə və ermənipərəst siyasətçilərə tutarlı cavab, muxtar respublikanın xilasına yönəlmiş daha bir əhəmiyyətli addım idi. Üstündən xeyli keçəndən sonra, indiki müstəqillik şəraitində bu tədbirlərin mahiyyəti daha aydın görünür.

Ötən əsrin 70-80-ci illərində istifadəyə verilmiş su anbarları, başqa əhəmiyyətli suvarma obyektləri hesabına muxtar respublikada məhsuldar qüvvələri daha da inkişaf etdirmək mümkün olmuşdur. Bu tədbirlər məhsul bolluğuna imkan yaratmış, muxtar respublikanın kəndləri simasını xeyli dəyişmiş, adamların güzəranı yaxşılaşmışdır.

Təsadüfi deyil ki, bu dövrdə təsərrüfatlarda rentabellik səviyyəsi 8,3 faiz, fəhlə və qulluqçuların əməkhaqqı 17 faiz artmış, kənd yerlərində mənzil fondu 5,5 dəfə, klubların sayı 2,6 dəfə, məktəbəqədər uşaq müəssisələri 2,3 dəfə, kitabxanalar 2,7 dəfə, mənzillərin telefonlaşdırılması 1,7 dəfə artmışdı.

Ümummilli liderimizin diqqət və qayğısı sayəsində Naxçıvanda elmin, mədəniyyətin və səhiyyənin inkişafı güclənmiş, Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elm Mərkəzi, Naxçıvan Dövlət Pedaqoji İnstitutu, politexnik, kənd təsərrüfatı, musiqi və tibb texnikumları, Batabat Astrofizika Rəsədxanası, Ordubad təcrübə konstruktor bürosu yaradılmış və fəaliyyətə başlamışdır.

Mübaliğəsiz demək olar ki, Naxçıvan Muxtar Respublikası bu dövrdə əsl quruculuq və yüksəliş dövrü keçmiş, 3500 yaşlı qədim Naxçıvan maddi və mədəni intibah dövrü yaşamışdır.

Möhtərəm Heydər Əliyevin sözləri ilə desək, Naxçıvanda əsas quruculuq işi, sənayenin, kənd təsərrüfatının inkişafı 1970-ci illərdən başlayaraq gedibdir.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövrü ilə siyasi hakimiyyətə qayıdışı arasındakı dövr-1987-93-cü illər təkcə Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycan siyasi mühitində dərin böhran və tənəzzül mərhələsi kimi yadda qalmışdır.

Dağlıq Qarabağ probleminin məhz möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasından dərhal sonra başlanması, 20 Yanvar, Xocalı faciələrinin baş verməsi, ölkə ərazisinin işğal olunması, soydaşlarımızın öz torpağında qaçqına və məcburi köçkünə çevrilməsi təsadüfi deyildi. Bütün bunlar ümummilli liderimizin Azərbaycanın siyasi həyatında yeri və rolu barədə düşünməyə əsas





verirdi. Bu, həm də qətiyyətlə deməyə əsas verir ki, Azərbaycanda möhtərəm Heydər Əliyev tərəfindən 1969-cu ildə başlanan siyasi yol, quruculuq xətti davam etdirilməlidir. Ölkəmizin indi də yaxa qurtara bilmədiyi Dağlıq Qarabağ probleminin, suveren dövlətin ərazisinin Ermənistan tərəfindən işğalının kökündə məhz 1987-93-cü illərdə Azərbaycanın Heydər Əliyev xəttindən uzaqlaşdırılması cəhdi, bunun qismən reallaşdırılması faktı dayanır.

1987-ci ildən sonra Heydər Əliyevə qarşı başlanan siyasi təqib kampaniyası əslində Azərbaycana, onun suverenliyinə vurulan zərbələr idi. Bu zərbələrin ən ağırı isə Azərbaycanı parçalamaq, quberniyalara bölmək istiqamətində gedən təhlükəli oyuna hesablanmışdı.

Bu dövrdə ölkəni bürüyən xaos və anarxiya şəraiti Naxçıvan Muxtar Respublikasının da həyatında gərgin vəziyyət yaratmışdı. Möhtərəm Heydər Əliyevin sözü ilə desək, həmin dövrün Naxçıvanı təklənmiş, taleyin ümidinə buraxılmış adanı xatırladırdı. Naxçıvan təkcə iqtisadi blokadaya yox, həm də dərin informasiya blokadasına salınmış, beynəlxalq birlikdən təcrid edilmişdi.

1990-cı ilin iyun ayında xalqımızın böyük oğlunun Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi Muxtar Respublikanı başı üzərində dolanan siyasi oyunlardan – ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi.

Həmin illərdə möhtərəm Heydər Əliyevin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək, dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir. Xalqımızın müdrik oğlunun aşağıdakı sözləri bütün dövrlər üçün əbədiyaşarlıq haqqı qazanmışdır: «Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər bir qəsdin qarşısı qətiyyətlə alınacaqdır.

Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq».

Azərbaycanın siyasi tarixində özünə parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətlərində qəti addımların atılmasına gətirib çıxartdı. Azərbaycanın üçrəngli bayrağı ilk dəfə olaraq 1991-ci il noyabr ayının 17-də Heydər Əliyevin sədrliyi ilə keçən Naxçıvan parlamentinin iclas salonunda qaldırıldı. Keçmiş Sovetlər Birliyinin hələ mövcud olduğu bir şəraitdə cəsarətli addım ataraq, Naxçıvan MR-in adından «Sovet, Sosialist» sözləri götürüldü. Milli şüurun dirçəlməsi istiqamətində ən zəruri tədbirlər görüldü. Sovet qoşun hissələri və sərhəd dəstələri onlara məxsus silah-sursatın, texnikanın və əmlakın Azərbaycanın digər yerlərindən fərqli olaraq, yüz faiz Naxçıvanda saxlanması şərti ilə bu torpağı tərk etdilər. Onların bazasında ilk sərhəd dəstəsi və milli ordu qurumları yaradıldı. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə siyasi qiymət verildi, həmin günün Milli Matəm günü kimi qeyd olunması, Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik gününün təsis edilməsi, aqrar islahatların keçi-

rilməsi barədə tarixi qərarlar qəbul olundu.

Blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, Türkiyə və İranla iqtisadi əlaqələr yaradılırdı. Bu dövrdə Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən «Ümid» körpüsü tikilib istifadəyə verildi. Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələri fəaliyyətə başladı. Naxçıvan şəhəri yaxınlığında istilik-elektrik stansiyası tikildi. İrandan və Türkiyədən Naxçıvana yüksək gərginlikli elektrik xətləri çəkildi.

Naxçıvan MR-in xilasına və yaşamasına yönəldilmiş bu tədbirlər 1990-93-cü illərdə xaos və təhlükələr, açıq şəkildə bildirilən kəskin ictimai narazılıqlar və qarşıdurmalar dövrünü yaşayan, qardaş qırğını və vətəndaş müharibəsi həddinə çatan, parçalanaraq milli əyalətlər və quberniyalar halında fəaliyyət göstərməyə təhrik edilən Azərbaycan üçün ümid, nicat yerinə çevrilmişdi.

1993-cü ilin may və iyun aylarında hakimiyyətsizliyin böhran həddinə çatması nəticəsində xalqımızın uzun illər həsrətində olduğu dövlət müstəqilliyini itirmək təhlükəsi yarandıqda, bütün Azərbaycan Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı.

Təsadüfi deyil ki, taleyinə xilaskarlıq missiyası yazılan Azərbaycanın böyük oğlunun xalqın çağırışı ilə siyasi hakimiyyətə qayıdışı günü-1993-cü ilin 15 iyunu tarixə Milli Qurtuluş günü kimi daxil oldu. Bundan sonrakı tarix müstəqilliyin daha da möhkəmləndirilməsi, daxili irticanın, dövlət çevrilişi cəhdlərinin aradan qaldırılması, Azərbaycanın suverenliyinin və bütövlüyünün bərpa olunması yollarından keçir. Böyük xilaskar kimi ölkəmizi real məhvolma təhlükəsindən xilas edən müdrik dövlət xadimi vətəndaş həmrəyliyi, əmin-amanlıq yaratmış, ölkəni siyasi və iqtisadi böhrandan çıxarmış, atəşkəs rejimi tətbiq olunmuşdur. Əgər bu tarixi gün olmasaydı, Azərbaycanın müstəqil dövlət kimi varlığı da mümkün ola bilməzdi.

Bu tarixi qayıdış 1987-93-cü illərdə Azərbaycanda gedən dağıdıcılıq prosesinə, hərc-mərcliyə, ən dəhşətlisi isə regionda siyasi və hərbi marağı olan qüvvələrin təsiri ilə ölkəmizin müstəqil dövlət kimi fəaliyyətinə xitam verilməsi istiqamətində düşünülən xəyanətkar planların gerçəkləşməsinə son qoymaqla yanaşı, eyni zamanda, iki əsas amili də önə çıxartdı. Birincisi, naşı və vassal düşüncəli dairələrin rəhbərliyə gətirilməsinin 8 xarici dövlətlə razılaşdırıldığını bəyan etməklə qürrələnən siyasi kəmsavadların əlində hakimiyyətin olmasının vətən və xalq üçün təhlükə yaratmasını, ikincisi, Azərbaycanda siyasi hakimiyyəti ələ keçirmək naminə xarici qüvvələrdən dəstək almaq niyyətində olanların iflasının qanunauyğunluğunu.

Bəli, möhtərəm Heydər Əliyev siyasi hakimiyyətdən istefa verdikdən sonra Azərbaycan xalqı 1993-cü ilədək rəhbərliyə gətirilmiş qüvvələrin xəyanətini, hakimiyyət hərisliyini, naşılığını və əsassız ambisiyalarını əyani şəkildə gördü, kimin kim olduğunu bir daha dərk etdi. Tarixi gerçəklik bir daha təsdiq etdi ki, xalqın istək və iradəsini heç nə ilə qırmaq olmaz.

Azərbaycanı Azərbaycana qaytarmaq, milli dövlətçiliyi xilas etmək missiyasını öz üzərinə götürən bu dahi şəxsiyyətin ikinci dəfə rəhbərliyə gəlməsi ilə ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yarandı. Hakimiyyətsizlik, dağıdıcılıq mərhələsi quruculuq mərhələsi ilə əvəz olundu. Azərbaycan 1969-cu ildən başlanan yola qısa fasilədən sonra yenidən qayıdışı ilə özünə - bütövlüyünə, tamlığına, mənəvi, siyasi intibahına, iqtisadi potensialından və təbii ehtiyatlarından səmərəli istifadə etməklə xalqın rifahının yaxşılaşmasına, əlverişli coğrafi-siyasi mövqeyinə söykənməklə dünya birliyində öz layiqli yerini tutmaq yoluna qayıtdı. Bu, müstəqil Azərbaycanın nicat yolu, möhtərəm Heydər Əliyev yoludur!





Hörmətli mərasim iştirakçıları!

Möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da quruculuq və bərpa işləri getmişdir. 1993-2003-cü illər ərzində ümummilli liderimizin dövlətçilik siyasətinin ana xəttini təşkil edən quruculuq missiyası ölkəmizin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının həyatında da başlıca hərəkətverici qüvvəyə çevrilmiş, iqtisadiyyatın sabitləşdirilməsi, aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri məhz bu tükənməz mənbədən qaynaqlanmışdır.

Muxtar respublikanın 75 illiyinin qeyd olunduğu 1999-cu ildən ötən dövr ərzində sənaye istehsalının həcmi 15 faiz, tikinti-podrat işləri 14 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 25 dəfə artırılmışdır. Bu dövrdə 10 min 680 şagird yerlik 34 məktəb binası tikilmiş, 11 min yerlik 16 məktəb binası, Naxçıvan Dövlət Universitetinin 2200 yerlik iki tədris korpusu, Müəllimlər İnstitutunun, Tibb Məktəbinin, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin elmi-tədqiqat institutları üçün binalar tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. 5 uşaq-musiqi məktəbi, 41 səhiyyə müəssisəsi, 8 sosial-müdafiə obyekti, 35 tarix və mədəniyyət obyekti, 9 idman-sağlamlıq kompleks və obyektləri tikilmiş və ya əsaslı bərpa olunmuşdur. Ötən 5 il ərzində 1202 paqonometrlik 41 körpü istifadəyə verilmiş, 17 nasos stansiyası tikilmiş, 40 nasos stansiyası təmir və bərpa olunmuş, 57 yeni subartezian quyusu qazılmışdır. Kənd təsərrüfatı məhsullarının istehsalında yüksək artıma nail olunmuş, taxıl istehsalı 40 faiz, şəkər çuğunduru istehsalı isə 89 faiz artırılmışdır.

Bu illərdə aparılmış abadlaşdırma işlərinin həcmi 8,4 dəfə artmış, bütövlükdə 580 yeni obyekt tikilmiş və ya əsaslı bərpa olunaraq istifadəyə verilmişdir.

Ümummilli liderimiz qədim Naxçıvanı müşahidə edərək iftixar hissi keçirir və deyirdi: **«Fəxr edirəm ki, Azərbaycanın hər yerində olduğu kimi, mən burada da öz əsərlərimi görürəm. Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab, musiqi əsərləri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binaları, yollardır, körpülərdir, su hövzələridir, su kəmərləridir».**

Möhtərəm Heydər Əliyevin şah əsəri şübhəsiz ki, bu gün dünya birliyində öz layiqli yerini tutan müstəqil, müasir Azərbaycandır.

O, bu əsərin tamamlanması, daxili və xarici müdaxilələrdən qorunması, özünə layiq yer tutması üçün bütün enerjisini sərf edirdi. Azərbaycançılıq yolu onun üçün müqəddəs idi. Təsadüfi deyildi ki, möhtərəm Heydər Əliyev vüqarla **«Azərbaycan mənim qibləgahımdır»** - deyirdi. Bu dahi şəxsiyyət lazım gələrsə, bu yolda şəhid olmağa da hazır idi. Məhz bu fədailiyin nəticəsində o, Azərbaycan adlı ümumi evimizi tikib başa çatdıra bildi.

Ümummilli liderimiz deyirdi ki, **mən gələcək nəsillərə çox qüdrətli, güclü, inki-**

**şaf etmiş Azərbaycan qoyub getmək istəyirəm.**

Müstəqil Azərbaycan Heydər Əliyevin xalqımıza əmanətidir. Ümummilli liderimizin bu əmanəti, **hələ tamamlanmamış, nəticələrini aydın gördüyü perspektivli planları** həyata keçirməyi etibar etdiyi şəxs isə hörmətli İlham Əliyevdir.

Möhtərəm Heydər Əliyev Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli məşhur müraciətində deyirdi: «**O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməkliyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm**».

Bu ümid 2003-cü ilin oktyabrında keçirilən prezident seçkilərində özünü doğrultdu. Bu, təkcə ölkə rəhbərinin seçimi yox, eyni zamanda, xalqın və ölkənin gələcəyinin seçimi idi. Xalqımız seçkilərdə çox yüksək siyasi fəallıq göstərərək Heydər Əliyev yoluna sədaqətini, bu yola heç bir alternativ görmədiyini nümayiş etdirdi.

Bütövlükdə Azərbaycan siyasi mühitində özünü bütün əzəməti ilə büruzə verən xalq istəyi, siyasi iradə bir daha göstərdi ki, Azərbaycan gələcək yolunu birmənalı və qəti şəkildə müəyyənləşdiribdir və ona hər hansı düzəliş etmək fikrində deyil.

Azərbaycan xalqının hörmətli İlham Əliyevə inamı birdən-birə yaranmamışdır. Bu inamın kökündə gənc liderin ona həvalə olunan mühüm dövlət vəzifələrinin öhdəsindən yüksək məharət və bacarıqla gəlməsi, daim Azərbaycanın milli maraqlarından çıxış etməsi, xalqı Qərb ölkələrində və dünyanın aparıcı dövlətlərində ləyaqətlə təmsil etməsi kimi sınaqdan keçmiş siyasi və diplomatik fəaliyyət praktikası dayanırdı.

Etiraf etmək lazımdır ki, bu sahələr yenicə müstəqillik qazanmış ölkə üçün kifayət qədər məsuliyyətli və çətin idi. O, AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi ölkəmizin problemlərini nəinki yüksək səviyyədə beynəlxalq ictimaiyyətə çatdırırdı, həm də bu problemlərin parlament üzvləri tərəfindən dəstəklənməsinə, Avropa Şurasının rəsmi sənədlərinə salınmasına nail olurdu. Bu fəaliyyətin nəticəsi özünü çox gözlətmədi: Hörmətli İlham Əliyev AŞPA-nın Büro üzvü və sədr müavini seçildi.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi də öz fəaliyyəti ilə varlığı yoxluğuna bərabər olan bu sahəni dirçəltdi; bunun nəticəsidir ki, əvvəllər beynəlxalq yarışlara çətinliklə vəsiqə qazanan Azərbaycan idmançıları nəinki bu yarışların fəal iştirakçısı oldu, eyni zamanda Azərbaycan beynəlxalq yarışların keçirildiyi ölkəyə çevrildi.

O, beynəlxalq maliyyə qurumlarının, nüfuzlu sərmayədarların diqqətini cəlb edərək kifayət qədər mürəkkəb şəraitdə Azərbaycanın milli və iqtisadi maraqlarına cavab verən neft müqavilələrinin bağlanmasına nail oldu.

Hörmətli İlham müəllim bu qədər ağır və məsuliyyətli sahələri necə əhatə edirdi. O özü bu barədə belə deyir: «**Biz xarici şirkətlərə deyirdik ki: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz, biz isə ölkənin, Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətlərinizin bir layihəsində öz əksini tapacaqdır, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, heç bir səhvə yol verə bilmərik**». Səhvə yol verməmək hörmətli Prezidentimizin siyasi fəaliyyətinin ana xətti, uğurlarının ən mühüm göstəricisidir.





Ötən dövrlərin təhlili bir daha göstərir ki, ümummilli liderimizin siyasi-iqtisadi kursu bu gün uğurla davam etdirilir.

Hörmətli mərasim iştirakçıları!

Azərbaycanda hələ 1970-ci illərdən mədəni mühitin dirçəlməsi, milli-mənəvi dəyərlərin intibahı möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz deyirdi ki, **Mədəniyyət hər bir xalqın, dövlətin əsas göstəricisidir. Buna görə də bu sahəni daim himayə etməli və qorumalıyıq.** Ölkə Prezidentinin Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında və Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında sərəncamlar verməsi, tarixən mədəniyyət ocağı kimi formalaşan Dövlət Filarmoniyasının açılışında iştirak etməsi, Milli Elmlər Akademiyası üzvlərinin vətənin ən yüksək mükafatları ilə təltif edilməsi, AMEA-nın Naxçıvan bölməsi üçün yeni korpusun tikilməsi, mədəni və siyasi mühitimizdə mühüm hadisə olan Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi milli-mənəvi dəyərlərimizin, tarixi yaddaşımızın bərpa edilməsinin, regionların inkişafına dövlət tərəfindən göstərilən qayğının davam etdirilməsinin, elmin və mədəniyyətin himayə olunmasının əsası möhtərəm Heydər Əliyev tərəfindən qoyulmuş ənənənin təsdiqidir.

Azərbaycanın gələcək iqtisadi inkişafının indiyədək əldə olunmuş uğurların formalaşdırdığı baza əsasında, amma keyfiyyətcə yeni mərhələdə həyata keçiriləcəyini bildirən ölkə rəhbərinin 24 noyabr 2003-cü il tarixli «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Fərmanı iqtisadiyyatın yeni inkişaf müstəvisinə çıxarılmasını nəzərdə tutan mühüm dövlət sənədidir. Bu sənəd bütövlükdə ölkəmizin gələcək inkişaf yolunu əks etdirir.

Fərmanda maliyyə intizamının gücləndirilməsi, yeni istehsal sahələrinin və iş yerlərinin yaradılması ilə əlaqədar qarşıya qoyulan vəzifələr əhalinin rifah halının daha da yaxşılaşdırılmasına yönəldilmişdir. Regionların hərtərəfli inkişafına nail olunması üçün Prezidentin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadi inkişafın Heydər Əliyev modelinə sanballı töhfədir. Bu mühüm Dövlət Proqramı ölkənin iqtisadi inkişafının daha da gücləndirilməsinə yönəldilmiş yeni mərhələnin əsasını qoyub.

Digər sahələrdə olduğu kimi, iqtisadi inkişafla bağlı məsələlərdə də Naxçıvan Muxtar Respublikası ölkə rəhbərinin tükənməz qayğısını hiss etməkdədir. Qeyd etmək lazımdır ki, Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının inkişafına da əhəmiyyətli yer ayrılmışdır.

Bu diqqət və qayğıya görə ölkə rəhbəri hörmətli İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk!

Ölkə rəhbərinin müəyyənləşdirdiyi inkişaf proqramına əsasən qarşıdakı müddətdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı sahəsində ciddi vəzifələr qoyur. Sahibkarlığın inkişafına hər cür kömək göstərilməsi davam etdiriləcək, ümumi məhsul istehsalında özəl bölmənin payı daha da artırılacaqdır.

Həyata keçirilən meliorasiya və suvarma tədbirlərinin genişləndirilməsi, Vayxır su dəryaçasının istifadəyə verilməsi yaxın gələcəkdə 20 min hektardan artıq torpağın suvarılmasının daha da yaxşılaşdırılmasına imkan yaradacaqdır. Bu isə əlavə məhsul deməkdir. Aqrar sektorda texniki servis mərkəzləri yaradılacaq, fermerlər texnika ilə daha böyük həcmdə təmin olunacaqlar. Toxumçuluq bazası daha da yaxşılaşdırılacaqdır. Emal sənayesi, dünya standartlarına cavab verən müəssisələr yaradılmaqdadır.

Hörmətli cənab Prezident, Sizin belə bir sözünüz var: **"əsl siyasət konkret, real iş görməkdən ibarətdir".**

Sizin tapşırığınızla və imzaladığınız Dövlət Proqramı ilə əlaqədar olaraq bu il Şərur rayonundakı Təzəkənddə 110 yerlik məktəb binası, Naxçıvan şəhərindəki hərbi hissənin nəzdində 720 yerlik, Ordubad rayonunun Tivi kəndində 220 yerlik, Xanağa kəndində 288 yerlik, Şahbuz rayonunun Sələsüz kəndində 252 yerlik, Badamlı qəsəbəsində 168 yerlik, Babək rayonunun Yarımca kəndində 396 yerlik, Şərur rayonunun Alışar kəndində 396 yerlik, Vərməziyar kəndində 288 yerlik, Culfa rayonunun Göynük kəndində 110, Xanəgah kəndində 288 yerlik-cəmi 3120 yerlik 10 yeni məktəb binası, Naxçıvan Dövlət Universitetinin sosial idarəetmə və hüquq fakültəsi üçün 600 yerlik yeni tədris korpusu tikilir. Naxçıvan şəhərində qızlar liseyi üçün bina, 5 nömrəli və rus dili təmayüllü məktəbin, Şərur rayonundakı Düdəngə kənd məktəbinin binaları yenidən qurulur. Sədərək və Şərur rayonlarında Dövlət Sosial Müdafiə Fondunun rayon şöbələrinin yeni inzibati binaları, Babək rayonunun Cəhri kəndində xəstəxana binası, BUSB-nın Şahbuz, Sədərək və Şərur rayonlarında filialları üçün yeni binalar tikilir. 6 nəfər Azərbaycan Vətən müharibəsi əlili üçün fərdi yaşayış evləri inşa olunacaqdır.

Möhtərəm Heydər Əliyevin xeyir-duası ilə inşasına başlanan Vayxır hidroqovşağının tikintisi Sizin də qayğı və himayənizlə davam etdirilir. 25 min ədəd kərpic istehsal edən tikinti materialları müəssisəsi, yeni mebel istehsalı müəssisəsi inşa olunur. Naxçıvan duz mədənində yenidənqurma işləri aparılır. Gündəlik gücü 3 ton olan ət məhsulları istehsalı müəssisəsinin qurulması üçün müqavilə imzalanıb.

Cənab Prezident, Sizin qayğı və təşəbbüsünüzlə Naxçıvan şəhərində Heydər Əliyev adına 1206 yerlik məktəb binasının tikintisi davam etdirilir. Culfa rayonunun Xoşkeşin və Göynük kəndlərində hər birinin uzunluğu 16 paqonometr olan 3 körpü tikiləcəkdir. Magistral və daxili yollar bərpa olunur, suvarma şəbəkəsi genişləndirilir. Elektrik enerjisi və rabitə sisteminin yaxşılaşdırılması sahəsində əlavə tədbirlər həyata keçirilir. Şəhər və rayon mərkəzlərində, kəndlərdə aparılan abadlıq işləri davam etdiriləcəkdir.

Azərbaycan Respublikası Prezidentinin xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsinə dair 10 mart 2004-cü il tarixli Fərmanı ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da müdrik rəhbərimizin, müstəqil Azərbaycanın Qurucusunun və Xilaskarının xatirəsinə əbədi ehtiramın ifadəsi kimi dərin minnətdarlıqla qarşılanmışdır. Fərmanda digər mühüm tədbirlərlə yanaşı Naxçıvanda Heydər Əliyev xatirə memorial kompleksinin filialının yaradılması da nəzərdə tutulmuşdur. Bunu daim Heydər Əliyevə sədaqət nümayiş etdirən Naxçıvan torpağına və naxçıvanlılara böyük etimad nümunəsi





kimi yüksək dəyərləndiririk.

Ölkə Prezidentinin himayəsi ilə Naxçıvan Muxtar Respublikasının Babək və Şərur rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilərək mərkəzi Qıvraq qəsəbəsi olmaqla yeni Kəngərli rayonunun yaradılması blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında əhali məşğulluğuna, yeni iş yerlərinin açılmasına, sosial problemlərin həllinə tükənməz qayğının daha bir ifadəsidir. Muxtar respublika əhalisi bu qayğıya görə Prezident İlham Əliyevə daim minnətdar olacaqdır!

Naxçıvan Muxtar Respublikasının blokada şəraitində yaşaması və Bakı şəhərinə gediş-gəlişin çətinliyi ilə əlaqədar yaranmış problemlər naxçıvanlı gənclərin hərbi təhsil almasında ciddi çətinliklər yaradırdı. Bunu nəzərə alan Heydər Əliyev 1998-ci il mart ayının 13-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması barədə Sərəncam vermiş, 1999-cu il oktyabrın 13-də həmin filialın və onun tədris korpusunun açılışında şəxsən iştirak etmiş, geniş nitq söyləyərək demişdir ki: **«Naxçıvan filialı qısa bir zamanda yeni hərbi liseyin yaradılması üçün əsas olacaqdır».**

Ötən müddət ərzində hər bir zəruri avadanlıqla təchiz edilən, maddi-texniki bazası genişləndirilən filial müstəqil fəaliyyət üçün formalaşaraq müasirtipli hərbi təhsil ocağına çevrilmişdir. Ordu quruculuğu sahəsində ümummilli liderimizin siyasətini davam etdirən ölkə Prezidenti hörmətli İlham Əliyevin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə həmin filialın əsasında Heydər Əliyev adına hərbi lisey yaradılmışdır. Bu böyük şərəf və etimaddır. Onu doğrultmağa söz verir və əmin edirik ki, Milli ordumuzun peşəkar kadrlara olan tələbatının ödənilməsində Heydər Əliyev adına hərbi lisey öz sözünü deyəcək, Heydər Əliyevin adını, işini və əməllərini yaşatmaqla mərd mübarizlər olacaqlar. Sizin sərəncamınızla qeyd olunan Naxçıvan Muxtar Respublikasının 80 illik yubiley ili bütün sahələrdə dönüş ili olacaqdır.

Hörmətli mərasim iştirakçıları!

Bu gün ölkəmizin keçib gəldiyi 10 il əvvəlki dövrə nəzər salanda, yeni, müstəqil Azərbaycanın quruculuğu yolunda ötən hər bir ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, möhtərəm Heydər Əliyevin siyasi sabitlik, əmin-amanlıq, inkişaf və quruculuq siyasətinin alternativi yoxdur. Bu, Azərbaycanda sosial-iqtisadi inkişafı yeni tələblər baxımından təmin etməyin yeganə düzgün yoludur. Buna nail olmaq üçün muxtar respublika əhalisi qarşıda duran quruculuq işlərində yaxından iştirak edəcək, hər bir məsələdə çalışqanlıq, qətiyyət və təşəbbüskarlıq nümayiş etdirəcəkdir.

Çıxışımı cənab Prezidentimizin andiçmə mərasimində dediyi sözlərlə tamamlayıram: **«Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün... ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir».**

Sağ olun!















**Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN FƏRMANI**

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 80 illiyi münasibəti ilə təhsil, səhiyyə, mədəniyyət, incəsənət, tikinti və dövlət qulluğu sahəsində xüsusi xidmətlərinə görə:

Qasımov Adəm Həsən oğluna
Qasımova Elmira Məmməd qızına
Əliyev Həmid Fərhad oğluna
Tağıyev Yaqub Əmiraslan oğluna **"Əməkdar müəllim"**,

Bağırov Hacağa Müzəffər oğluna
Novruzov Niyazi Hüseynqulu oğluna
Niftəliyev Hüseyn Əsrafil oğluna **"Əməkdar həkim"**,

Kərimova Elmira Nəsir qızına **"Əməkdar artist"**,

Qasımov Şəmsəddin Mustafa oğluna **"Əməkdar incəsənət xadimi"**,

Axundov Əbülfəz Marlen oğluna **"Əməkdar rəssam"**,

Ucar Emin Rəsul oğluna **"Əməkdar memar"**,

Sultanova Sənifə Qulu qızına **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 may 2004-cü il*
*№ 136- II FR*

## PREZİDENT İLHAM ƏLİYEVİN NAXÇIVANA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyev mayın 14-də Naxçıvana səfərini başa çatdıraraq Bakıya yola düşdü.

Naxçıvan beynəlxalq hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər mehribanlıqla yola saldılar.





## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA İŞTİRAK EDƏN AZƏRBAYCAN RESPUBLİKASINDA FƏALİYYƏT GÖSTƏRƏN XARİCİ ÖLKƏ SƏFİRLƏRİNİN SİYAHISI

| № | Dövlət | Vəzifə | Adı və soyadı |
|---|---|---|---|
| 1 | Ukrayna | Səfir | Boris Aleksenko |
| 2 | Gürcüstan Respublikası | Səfir | Zurab Qumberidze |
| 3 | Özbəkistan Respublikası | Səfir | Abduqafur Abduraxmanov |
| 4 | Misir Ərəb Respublikası | Səfir | Cihan Əmin Məhəmməd Əli |
| 5 | İran İslam Respublikası | Səfir | Əhəd Qəzayi |
| 6 | Səudiyyə Ərəbistanı Krallığı | Səfir | Əli Həsən Cəffər |
| 7 | Polşa Respublikası | Səfir | Martsin Navrot |
| 8 | Fransa Respublikası | Səfir | Şantal Puare |
| 9 | İsrail Dövləti | Səfir | Eytan Naeh |
| 10 | Türkiyə Respublikası | Səfir | Əhməd Ünal Çeviköz |
| 11 | Çin Xalq Respublikası | Səfir | Çjan Siyun |
| 12 | Qazaxıstan Respublikası | Səfir | Andar Şukputov |
| 13 | Amerika Birləşmiş Ştatları | Səfir | Reno Harniş |
| 14 | Pakistan İslam Respublikası | Səfir | Məhəmməd Hafiz |
| 15 | Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı | Səfir | Lourens Bristou |
| 16 | Hindistan | Səfir | Çyoti Svarup Pande |
| 17 | Rumıniya Respublikası | Səfir | Nikolaye Ureke |
| 18 | Liviya | Müvəqqəti işlər vəkili | Mustafa Şaxtur |
| 19 | Bolqarıstan Respublikası | Müvəqqəti işlər vəkili | İvan Palçev |
| 20 | İraq | Müvəqqəti işlər vəkili | Raid Saleh Mehdi |
| 21 | Rusiya Federasiyası | Müvəqqəti işlər vəkili | Pyotr Burdikin |
| 22 | Yunanıstan Respublikası | Müvəqqəti işlər vəkili | Maria Stavrogiyanni |
| 23 | İtaliya Respublikası | Müvəqqəti işlər vəkili | Nikolo Tammaso Portaçi |
| 24 | Norveç Krallığı | Müvəqqəti işlər vəkili | Heydi Olufsen |
| 25 | Yaponiya | Müvəqqəti işlər vəkili | Toyoşi Matsuyama |
| 26 | Niderland Krallığı | Müşavir | Reyn Bourmans |

| № | Dövlət | Vəzifə | Adı və soyadı |
|---|---|---|---|
| 27 | Almaniya Federativ Respublikası | Səfirliyin II katibi | Kristofer Fuks |
| 28 | Avropa Şurası | Xüsusi nümayəndə | Mats Lindberq |
| 29 | Birləşmiş Millətlər Təşkilatı | Prezident əlaqələndiricisi | Marko Barsotti |
| 30 | Birləşmiş Millətlər Təşkilatı | Qaçqınlar üzrə ali komissar | Boqdan Nahaylo |
| 31 | Beynəlxalq Qırmızı Xaç Komitəsi | Nümayəndəliyin başçısı | Meri Vernts |
| 32 | Dünya Bankı | Nümayəndəliyin başçısı | Əhməd Cehani |
| 33 | TRASEKA | İcra katibi | Zviyad Kvaçantiradze |





# NAXÇIVAN MUXTAR RESPUBLİKASI 85

**Naxçıvan Muxtar Respublikasının
85 illik yubileyinin keçirilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

2009-cu il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 85 ili tamam olur.

Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda, parlaq inkişaf yolu keçmişdir. Əsrlərdən bəri Şərq aləminin elmi-mədəni mərkəzlərindən biri olaraq şöhrət tapan bu torpaq neçə-neçə görkəmli alim, sənətkar və tarixi şəxsiyyət yetirmişdir.

Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycan dövlətçiliyinin inkişafında ictimai-siyasi və tarixi əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 85 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 6 fevral 2009-cu il***





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İLHAM ƏLİYEVƏ

Möhtərəm Prezident!

2009-cu il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 85 illiyi tamam olur.

Naxçıvanın muxtariyyəti böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana gəlmiş, gərgin və ağır bir yol keçmişdir. Müxtəlif dövrlərdə müəyyən bəhanələr altında Naxçıvan Muxtar Respublikasının ərazisinə və muxtariyyətinə qəsdlər edilmiş, bu tarixi Azərbaycan torpağını işğal və ilhaq etmək üçün hərbi, siyasi cəhdlər göstərilmişdir.

Xalqımıza məxsus torpaqlar hesabına öz dövlətini yaradan Ermənistan daim Azərbaycana, o cümlədən Naxçıvana qarşı ərazi iddiasında olmuşdur. Ötən əsrin əvvəllərində Rusiya və Ermənistan arasında bağlanmış hərbi-siyasi sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzur Ermənistana verilmiş, bununla da Naxçıvanın ərazicə Azərbaycandan ayrılmasının əsası qoyulmuşdur. Qeyd olunanlar tarixdə Naxçıvan məsələsini, Naxçıvana muxtariyyət statusunun verilməsini zərurətə çevirmişdir. Naxçıvanın muxtariyyət məsələsini zəruri edən əsas amillərdən biri də naxçıvanlıların daim Azərbaycanla bir olmaq tələbi, ana Vətəndən ayrı düşməmək istəyi idi.

Azərbaycan Xalq Cümhuriyyəti yaranandan sonra Naxçıvan əhalisi və hakimiyyət dairələri dəfələrlə dövlət qurumu kimi Naxçıvanın Azərbaycana birləşmək tələbini ortaya qoysalar da, mövcud siyasi və beynəlxalq vəziyyət bu istəyin həyata keçirilməsinə imkan verməmişdir. Naxçıvan Milli Şurasının Xalq Cümhuriyyəti hökumətinə məktublarının birində deyilirdi ki, "biz ermənilərə tabe olmuruq, tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Naxçıvanın Azərbaycana birləşməsini gözləyirik". 1921-ci ilin əvvəllərində Azərbaycan, Ermənistan və Rusiya nümayəndəliklərinin iştirakı ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizindən çoxu Naxçıvanın muxtar respublika kimi Azərbaycanın tərkibində qalmasına səs vermişdi. Göründüyü kimi, bölgənin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması bütün dövrlərdə aparıcı siyasi xətt olaraq qalmış, əhali tərəfindən dəstəklənmişdir.

Naxçıvanın muxtariyyətinin daha mühüm bir səbəbi isə bu faktorun böyüyərək regional çərçivədən çıxması və beynəlxalq hüququn subyektinə çevrilməsidir. Naxçıvan məsələsi 1918-ci ildə bir neçə dəfə Zaqafqaziya Seymində, 1918-1920-ci illərdə dəfələrlə Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasında, Türkiyə parlamentində, Maku xanlığında, 1919-cu ildə Parisdə Versal Sülh Konfransında, 1921-ci ilin martında Rusiya Kommunist (bolşeviklər) Partiyasının siyasi bürosunda və Rusiya Xalq Komissarları Sovetində dəfələrlə müzakirəyə çıxarılmışdır. Naxçıvanın tarixi taleyi 1921-ci ildə imzalanmış iki mühüm sənəddə - Moskva və Qars müqavilələrində öz həllini tapmış, "Dənizdən-dənizə" böyük Ermənistan yaratmaq istəyənlərin ərazi iddiaları nəticəsində zorla siyasiləşdirilmiş bu məsələ sonda Azərbaycan diplomatiyasının, ən əsası isə naxçıvanlıların möhkəm iradəsi, qətiyyəti sayəsində həll edilmiş, Naxçıvan Azərbaycanın tərkibində muxtar

respublika kimi qalmışdır.

1924-cü il fevralın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında Dekret vermişdir. Həmin sənəddə deyilirdi: "Naxçıvan diyarı Azərbaycan protektoratlığında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilsin". Ümummilli lider Heydər Əliyevin dediyi kimi, ***"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi".*** Naxçıvanın muxtar respublika statusu bu bölgənin sonrakı tarixi taleyində, onun ərazisinin qorunub saxlanmasında və təhlükəsizliyinin təmin edilməsində çox böyük rol oynamışdır.

Naxçıvanın muxtariyyət statusu bir neçə mərhələdən keçmişdir. O, 1921-ci il martın əvvəllərindən başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ilin noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuş, 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə 60 illik yubileyləri keçirilmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının 75, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 9 fevral tarixli Sərəncamı ilə muxtar respublikanın 80 illik yubileyləri yüksək dövlət səviyyəsində qeyd edilmişdir.

Ermənistan Respublikasının apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının ərazisinin və muxtariyyətinin qorunması daim ümummilli liderimizin diqqət mərkəzində olmuş, ötən əsrin əvvəllərində olduğu kimi, sonlarında da Naxçıvanın muxtariyyəti ilə əlaqədar yaranan təhlükəli vəziyyəti qətiyyətlə dəf edən böyük öndər demişdir: ***"Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır... Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

Möhtərəm Prezident!

Sizdən xahiş olunur ki, Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının böyük tarixi-siyasi əhəmiyyətini və Azərbaycan xalqının dövlətçilik tarixində oynadığı özünəməxsus rolunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması üçün müvafiq tapşırıq verəsiniz.

Hörmətlə,

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

***Naxçıvan şəhəri, 21 yanvar 2009-cu il***





**«Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

## SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin «Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında» 2009-cu il 6 fevral tarixli Sərəncamının icrası-nı təmin etmək məqsədi ilə **qərara alıram:**

1. «Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı» təsdiq edilsin (əlavə olunur).
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **VASİF TALIBOV**

*Naxçıvan şəhəri, 07 fevral 2009-cu il*

*№ 182-03/S*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 07 fevral tarixli 182-03/S nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

## TƏDBİRLƏR PLANI

| S/s | Tədbirin adı | İcra müddəti | İcraya məsul təşkilat |
|---|---|---|---|
| 1 | «Naxçıvan Muxtar Respublikası - 85: tarix və müasirlik» mövzusunda elmi konfransın keçirilməsi | Mart 2009-cu il | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi |
| 2 | Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş yubiley zərf və poçt markalarının buraxılması | Fevral 2009-cu il | Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi |
| 3 | Naxçıvanın muxtariyyət tarixi ilə bağlı tədris müəssisələrində açıq dərslərin keçirilməsi | 9 fevral 2009-cu il | Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi, ali və orta ixtisas təhsili məktəbləri |
| 4 | Muxtar respublikanın mədəniyyət müəssisələrində «Naxçıvan Muxtar Respublikası - 85» mövzusunda mədəni-kütləvi tədbirlərin hazırlanması, kitabxanalarda kitab sərgilərinin və xüsusi guşələrin yaradılması, oxucu günlərinin təşkil olunması | fevral-dekabr 2009-cu il | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi |
| 5 | Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlərin əks olunduğu sərginin hazırlanıb nümayiş etdirilməsi | 2009-cu il | Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyi |
| 6 | Naxçıvanın tarixinə və mədəniyyətinə dair yeni tədqiqatların və sənədlər toplusunun çap olunması | 2009-cu il | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi |





| S/s | Tədbirin adı | İcra müddəti | İcraya məsul təşkilat |
|---|---|---|---|
| 7 | Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi münasibəti ilə Azərbaycan, ingilis və rus dillərində «Naxçıvan.az» internet portalının hazırlanıb yerləşdirilməsi | 2009-cu il | Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi |
| 8 | 85 illik yubileyə həsr olunmuş yarışlar, estafetlər, idman oyunlarının keçirilməsi, bədii özfəaliyyət kollektivlərinin çıxışlarının təşkil edilməsi | 2009-cu il | Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi |
| 9 | «Naxçıvan» ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsinin Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinə həsr olunması | 2009-cu il | Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi |
| 10 | Naxçıvan Muxtar Respublikasının inkişaf və quruculuq salnaməsini əks etdirən ən yaxşı bədii əsərlərin seçilib nəşr olunması | 2009-cu il | Naxçıvan Muxtar Respublikasının Yazıçılar Birliyi |
| 11 | Naxçıvan Muxtar Respublikasının 85 ildə keçdiyi yola həsr olunmuş məqalələrin, ümummilli lider Heydər Əliyev və Naxçıvanın statusu məsələlərinə dair verilişlərin və qəzet materiallarının hazırlanıb verilməsi, muxtar respublikada dərc edilən qəzet və jurnalların yubileyə həsr olunmuş xüsusi nömrələrinin buraxılması, keçirilən tədbirlərin işıqlandırılması | 2009-cu il | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Naxçıvan Muxtar Respublikasının kütləvi informasiya vasitələri |

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ HAVA LİMANINDA QARŞILANMA

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Dövlətimizin başçısının şərəfinə Naxçıvan Beynəlxalq Hava Limanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və digər rəsmi şəxslər ehtiramla qarşıladılar.

Milli geyimli qızlar Prezident İlham Əliyevə və xanımına gül dəstələri təqdim etdilər.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbər şəxsləri ilə görüşdü.



Naxçıvan Muxtar Respublikası – 85



## ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT

Avqustun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.







## PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 4-də Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.

Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının salonuna toplaşanlar - Azərbaycanın, o cümlədən muxtar respublikanın tanınmış hökumət nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, müxtəlif dövlətlərdən gəlmiş çoxsaylı qonaqlar, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə geniş nitq söylədi.





## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz naxçıvanlılar, əziz dostlar!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və sizi Naxçıvan Muxtar Respublikasının 85-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

Naxçıvan qədim Azərbaycan torpağıdır. Bu gözəl torpaqda əsrlər boyu xalqımız yaşayıb yaratmışdır. Naxçıvanda yerləşən tarixi və memarlıq abidələri Azərbaycan xalqının nə qədər böyük istedada malik olduğunu əyani şəkildə göstərir. Naxçıvan Azərbaycana böyük şəxsiyyətlər bəxş etmişdir. Naxçıvan Azərbaycana ulu öndər Heydər Əliyevi bəxş etmişdir. 1924-cü ildə Naxçıvan Muxtar Respublikası yarandı. Respublika yarananda biz tamamilə başqa ictimai-siyasi quruluşda yaşayırdıq və o vaxt sovet rəhbərliyi tərəfindən Azərbaycanın qədim torpağı olan Zəngəzur mahalı Ermənistana verilmişdir. Bunun nəticəsində Naxçıvan ilə Azərbaycanın əsas hissəsi arasında coğrafi əlaqə pozuldu. Sovet İttifaqı dağılandan sonra və hətta ondan bir qədər əvvəl Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində Naxçıvan blokadaya düşdü. Ermənistan Azərbaycanı müxtəlif beynəlxalq təşkilatlarda həmişə ittiham etməyə çalışır ki, Azərbaycan Ermənistana blokada tətbiq edir. Amma əslində belə deyildir. Uzun illər ərzində Naxçıvan blokada şəraitində yaşayır və bu blokada bu gün də davam edir. Amma buna baxmayaraq Naxçıvan yaşayır, Naxçıvan inkişaf edir, Naxçıvanda böyük quruculuq işləri aparılır və Naxçıvanın uğurlu inkişafı ölkəmizin gücünü göstərir.

Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə ancaq ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən - 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o sessiyada - hələ Sovet İttifaqının dağılmasına təxminən iki il vaxt qalmışdı - Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan Muxtar Respublikası elan edildi. Məhz o sessiyada Azərbaycanın üçrəngli

bayrağı dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı. O vaxt hələ Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi.

O da həqiqətdir ki, Sovet İttifaqında, o cümlədən Azərbaycanda 1991-ci ilin mart ayında Sovet İttifaqının saxlanmasına dair keçirilmiş referendum Naxçıvanda keçirilmədi. Naxçıvan o vaxt da öz qətiyyətini göstərdi. O vaxt da Heydər Əliyevin rəhbərliyi altında naxçıvanlılar öz milli xüsusiyyətlərini ortaya qoydular.

Naxçıvan üçün o illər çox ağır, çətin keçirdi. Siz naxçıvanlılar bunu yaxşı xatırlayırsınız. İqtisadi vəziyyət çox ağır idi. Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz və işğalçılıq siyasəti nəticəsində Naxçıvan da çox ağır vəziyyətə düşmüşdü. Sənaye müəssisələri demək olar ki, dayanmışdı və Ermənistanın Naxçıvana qarşı



hücumları da böyük narahatlıq doğururdu. Ancaq Heydər Əliyevin rəhbərliyi, onun qətiyyəti, naxçıvanlıların səfərbərliyi o çətin anlardan çıxmağa imkan verdi.

O vaxt Naxçıvanın müdafiə məsələləri çox ciddi ortaya qoyulmuşdu. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən bir neçə gün sonra Naxçıvanda Dövlət Müdafiə Komitəsi yarandı və məhz o tədbirlər nəticəsində Naxçıvan özünü qoruya bilmişdir. Çünki o vaxt Azərbaycandan heç bir yardım göstərilmirdi, Azərbaycanın o vaxtkı rəhbərliyi Naxçıvana qarşı çox ədalətsiz siyasət aparırdı.

Ancaq Heydər Əliyevin amalı tam başqa idi. Onun məqsədi naxçıvanlıları qorumaq, Naxçıvanı qorumaq, erməni hücumlarının qarşısını almaq və muxtar respublikanın uğurlu inkişafını təmin etmək idi. O vaxt naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında böyük qəhrəmanlıq və şücaət göstərmişdilər. Ermənistan tərəfindən edilən bütün hücumlara çox layiqli cavab verilmişdi və düşmən yerinə oturdulmuş-





du. O anlarda, o aylarda, o illərdə Naxçıvanın taleyi həll olunurdu və bir daha o tarixə nəzər salaraq görürük ki, əgər Heydər Əliyev o vaxt Naxçıvanda olmasaydı, yəqin ki, Naxçıvanın taleyi çox acınacaqlı ola bilərdi.

Beləliklə, Naxçıvanın o ağır illərini yada salmaqla bir daha vurğulamaq istəyirəm ki, ulu öndər Heydər Əliyev bütün dövrlərdə, çalışdığı bütün vəzifələrdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, həmişə Azərbaycan xalqını müdafiə edirdi, doğma Azərbaycanın inkişafına səy göstərirdi. Bunun nəticəsində bu gün Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan çox sürətlə inkişaf edir. Bu inkişaf özünü bütün sahələrdə - həm iqtisadi, həm sosial məsələlərin həllində, həm də müdafiə potensialının gücləndirilməsində, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsində büruzə verir. Naxçıvanın bugünkü siması bunun əyani sübutudur.



Naxçıvanın hərbi potensialı çox yüksək səviyyədədir. Dünən hərbi hissədə olarkən mən bir daha gördüm ki, Naxçıvanın müdafiəsi üçün hər şey edilib və Naxçıvan özünü istənilən hücumlardan tam şəkildə müdafiə etməyə və eyni zamanda, istənilən hərbi vəzifəni icra etməyə qadirdir.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi və erməni işğalı nəticəsində vəziyyət çox gərginləşmişdi. O vaxt xalqın tələbi ilə Heydər Əliyevin Bakıya qayıtması və Azərbaycana rəhbərlik etməsi nəticəsində ölkəmiz öz müstəqilliyini qoruya bilmişdir. Çünki müstəqilliyimiz əldən gedirdi. 1991-ci ildən başlayaraq 1993-cü ilin yay aylarına qədər Azərbaycanda baş vermiş qanlı və faciəli hadisələr müstəqilliyimizi sual altına qoymuşdu. Biz o acı tarixi yaşamışdıq. Eynilə 1918-1920-ci illərdəki kimi, cəmi iki illik müstəqillikdən sonra ölkəmizin müstəqilliyi əldən getdi. Əgər Heydər Əliyev Azərbaycana rəhbərliyə gəlməsəydi, 1990-cı illərdə də bu təkrar oluna bilərdi. Məhz onun səyləri nəticəsində Azərbaycan o çətin, ağır vəziyyətdən

çıxa bilmişdir və 1993-2003-cü illər Azərbaycanın dirçəliş və inkişaf illəri olmuşdur. Azərbaycanın qarşısında duran əsas vəzifələr məhz o illər ərzində öz həllini tapdı. Siyasi, hərbi, iqtisadi böhran aradan qaldırıldı, Azərbaycanda sabitlik yarandı, inkişaf üçün çox mühüm addımlar atıldı. Azərbaycan xarici investisiyaları böyük həcmdə cəlb edə bilmişdir ki, bu da Azərbaycanın indiki uğurlu inkişafının təmin olunması üçün mühüm rol oynayır.

Azərbaycanda Heydər Əliyev tərəfindən başlanmış və bu gün uğurla davam etdirilən neft strategiyası ölkəmizi çox böyük dərəcədə inkişaf etdirmişdir. Məhz 1993-2003-cü illər Azərbaycanın müstəqilliyi üçün həlledici illər olmuşdur. Məhz o illərdə bugünkü Azərbaycanın - güclü Azərbaycanın yaradılması mümkün olmuşdur.

O illərdə başlanmış və uğurla davam etdirilən siyasi və iqtisadi islahatlar, ölkəmizdə gedən demokratikləşmə prosesləri, hüquqi dövlətin qurulması, qanunun aliliyi bu gün Azərbaycanı dünya birliyinə uğurla inteqrasiya etmək üçün öz rolunu oynayır. Bu islahatlar davam etdirilir, Azərbaycan müasir dövlətdir, Azərbaycanın çox güclü iqtisadi potensialı vardır. Bu iqtisadi potensial təkcə enerji amillərindən asılı deyildir. Bu il dünyada yaşanan iqtisadi və maliyyə böhranı bunu bir daha nümayiş etdirdi. Bu böhrana baxmayaraq Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu il iqtisadi artım müşahidə olunur. Qeyri-neft sektorunda 4 faizdən çox artım olmuşdur. Ümumiyyətlə, Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) birinci altı ayda 3,6 faiz artmışdır. Bu gün Azərbaycan istənilən iqtisadi, siyasi və sosial məsələni həll edə bilər.

Ölkəmizin beynəlxalq mövqeləri möhkəmləndirilir. Azərbaycan dünya birliyində etibarlı tərəfdaş kimi tanınır və bizimlə dostluq münasibətlərində olan ölkələrin sayı artır. Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir. Biz bütün ölkələrlə öz münasibətlərimizi qarşılıqlı maraq, qarşılıqlı hörmət əsasında qururuq və bu, Azərbaycana böyük uğurlar gətirir. Eyni zamanda, Azərbaycanın iqtisadiyyatı o qədər güclənibdir ki, biz özümüzü tam şəkildə təmin edirik. Biz heç kimdən asılı deyilik, heç bir maliyyə yardımına ehtiyacımız yoxdur və bu böhranlı aylar bir daha onu göstərdi ki, Azərbaycan öz hesabına yaşaya bilər və yaxşı yaşaya bilər.

Azərbaycanın bütün bölgələri bu gün inkişaf edir. Azərbaycanın iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır. Son illər ərzində qeyri-neft sektorunun inkişafı üçün böyük investisiyalar qoyulmuşdur. O investisiyaların böyük əksəriyyəti dövlət tərəfindən qoyulmuşdur. Həm sənaye potensialının inkişafı, həm yeni iş yerlərinin açılması, həm də idxalın azalması və yerli istehsalın artırılması üçün görülən əməli tədbirlər nəticəsində biz bu gün özümüzü demək olar ki, bütün cəhətlərdən təmin edirik. Enerji təhlükəsizliyimiz təmin edilib, nəqliyyat təhlükəsizliyimiz təmin edilib, ərzaq təhlükəsizliyimiz təmin edilib. Bu üç amil hər bir ölkənin inkişafı üçün mühüm rol oynayır. Bu üç istiqamətdə Azərbaycan çox böyük uğurlarla fəxr edə bilər. Bu vaxta qədər əldə edilmiş uğurlar əlbəttə ki, bundan sonrakı illərdə böyük rol oynayacaqdır. Biz iqtisadi və siyasi islahatları bundan sonrakı illərdə davam etdirəcəyik.

Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Bu da ulu öndər Heydər Əliyevin siyasətidir: güclü iqtisadiyyat, güclü sosial siyasət və insanların rifah halının yaxşılaşdırılması üçün atılmış konkret addımlar. Bizim siyasət





konkret işlər deməkdir. Bizim siyasət insanların gündəlik həyatında özünü göstərir. Bizim siyasət Azərbaycanın iqtisadi gücündə özünü göstərir. Bu siyasət müstəqil ölkəmizi çox böyük dərəcədə gücləndirir və bir daha demək istəyirəm ki, beynəlxalq mövqelərimizi təmin edir. Bölgədə Azərbaycanın iştirakı olmadan istər siyasi, istər iqtisadi, energetika və başqa sahələrdə heç bir layihə, heç bir təşəbbüs icra edilə bilməz. Azərbaycan enerji təhlükəsizliyi üçün çox önəmli ölkəyə çevrilibdir. Biz özümüzü tam şəkildə təmin edirik. Azərbaycanın enerji potensialı çox böyükdür və biz bu potensialdan çox səmərəli şəkildə istifadə edirik.

Mən dünən Naxçıvanda yeni tikilmiş, yaxud da ki, təmir edilmiş bir neçə obyektin, o cümlədən, Heydər Əliyev Sarayının yenidən qurulmasından sonra açılışında iştirak etdim. Bu gün Heydər Əliyev Sarayında əsaslı təmirdən sonra birinci tədbirdir. Əlbəttə ki, bu tədbir məhz Naxçıvan Muxtar Respublikası ilə bağlı olmalı idi. Mən çox şadam ki, Naxçıvan Muxtar Respublikasının 85-ci ildönümünü biz bu gözəl sarayda - ulu öndər Heydər Əliyevin adını daşıyan sarayda qeyd edirik.

Dünən, eyni zamanda, Naxçıvanda həm sənaye müəssisələrinin, həm də sosial obyektlərin açılışı olub. Çox gözəl Doğum Mərkəzinin açılışı olub. Şərurda yeni, müasir Olimpiya Kompleksinin açılışında iştirak etdim. Şahmat məktəbi, "Badamlı" zavodu, Heydər Əliyev Sarayı - ancaq bir gündə bir neçə gözəl, müasir obyektin açılması bir daha onu göstərir ki, Naxçıvan çox uğurla, çox sürətlə inkişaf edir.

Bunu Naxçıvan sakinləri görürlər, bilirlər, eyni zamanda, mən əminəm ki, Bakıdan gəlmiş qonaqlar bu gün bunu görə biləcəklər. Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Məktəblər, xəstəxanalar tikilir. Bu gün Şahbuz rayonunda mərkəzi xəstəxananın açılışında iştirak edəcəyik. Naxçıvanda sənaye obyektlərinin tikintisi uğurla gedir və artıq muxtar respublikanın çox önəmli ixrac potensialı yaradılır.

Kənd təsərrüfatının inkişafında böyük işlər görülübdür. Naxçıvan özünü taxılla təmin edir. Burada son illər ərzində istifadəyə verilən emal müəssisələri Naxçıvanın tələbatını ödəyir və eyni zamanda, böyük ixrac potensialını yaradır. Vayxır su elektrik stansiyasında istehsal olunan elektrik enerjisi Naxçıvanın enerji potensialını gücləndirir. Orada yaradılmış dəryaça Naxçıvanın suvarma problemlərini həll edir. Muxtar respublikada yaradılmış elektrik stansiyaları həm daxili tələbatı tam şəkildə ödəyir, eyni zamanda, Naxçıvan bu gün qonşu Türkiyəyə elektrik enerjisi ixrac edir. O Naxçıvan ki, əvvəllər qaranlıq, zülmət içində yaşayırdı. Bu gün Naxçıvan nurlu, işıqlı şəhərdir. Naxçıvanın ixrac potensialı gündən-günə artacaqdır.

Naxçıvanda qazlaşdırma prosesi tamamilə başa çatıb. On üç il fasilədən sonra 2005-ci ilin sonunda Naxçıvana qazın verilməsi bərpa edildi. Biz dünən Naxçıvanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi haqqında konkret qərarlar qəbul etdik. Naxçıvanda tikiləcək böyük həcmli qaz anbarları qış aylarında muxtar respublikanı dayanıqlı qazla təmin etmək üçün imkan yaradacaqdır.

Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir,

Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar, bu gün bayram günüdür. Biz bu bayramı birlikdə qeyd edirik. Gələcəkdə belə bayramlar çox olacaq, həm muxtar respublikanın yubileyləri, eyni zamanda, burada yaradılmış hər bir böyük müəssisə, səhiyyə, təhsil ocağı bizim üçün bayramdır. Naxçıvanın güclü olması Azərbaycanın güclü olması deməkdir. Naxçıvan strateji ərazidə yerləşir. Naxçıvanın çox böyük siyasi və strateji əhəmiyyəti vardır. Azərbaycanın müstəqilliyinin əldə edilməsində Naxçıvanın və naxçıvanlıların çox böyük əməyi olmuşdur. Mən əminəm ki, həmişə olduğu kimi naxçıvanlılar bundan sonra da Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi işində, Azərbaycanın müasir dövlət kimi inkişaf etməsi işində öz sözlərini deyəcəklər və öz dəyərli töhfələrini verəcəklər.

Əziz dostlar, mən bu gözəl yubiley münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm, sizə cansağlığı, işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Naxçıvan Muxtar Respublikası!

Eşq olsun Azərbaycan xalqına!

**(Azərbaycan Prezidenti İlham Əliyevin nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə sürəkli alqışlarla qarşılandı)**

***

**Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV çıxış edərək demişdir:**





## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ TƏŞKİL OLUNMASININ 85 İLLİK YUBİLEYİ MÜNASİBƏTİ İLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA MUXTAR RESPUBLİKA ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI

Möhtərəm Prezident!

Yubiley tədbirinin hörmətli iştirakçıları!

85 il bundan əvvəl - 1924-cü il fevral ayının 9-da Azərbaycanın dövlətçilik tarixində özünəməxsus mərhələ təşkil edən mühüm bir hadisə baş verdi: Naxçıvan Muxtar Respublikası təşkil olundu.

Naxçıvanın muxtariyyəti böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxmış, gərgin, ağır, eyni zamanda şərəfli bir yol keçmişdir. Ötən 85 il ərzində çox hadisələr olmuşdur. Həmin hadisələrin fonunda ümummilli lider Heydər Əliyevin aşağıdakı fikirləri bütün dövrlər üçün ciddi aktuallıq kəsb edir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***

Bu əlamətdar gündə Naxçıvanın və onun muxtariyyətinin böyük hamisi, müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edir, ruhu şad olsun, deyirik.

Xalqımızın böyük oğlunun siyasi xəttinin davamçısı cənab İlham Əliyev Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının tarixinə və müasir inkişafı ilə bağlı məsələlərə böyük həssaslıq, əsl dövlətçilik münasibəti göstərir. Azərbaycanın qədim və zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarının muxtariyyət tarixinin diqqətlə öyrənilməsi və təbliğ olunması vacibliyini bir vəzifə kimi qarşıya qoyan ölkə rəhbəri demişdir: ***"Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir".***

Naxçıvan Muxtar Respublikasının yubiley tədbirlərinin keçirilməsi muxtariyyət tariximizin yenidən və əsaslı şəkildə öyrənilməsi, xalqımızın dünəni, bu günü və sabahı üçün çox mühüm əhəmiyyəti olan hadisədir.

Naxçıvan ən qədim dövrlərdən başlayaraq Azərbaycan dövlətçiliyinin və azərbaycançılığın qorunub saxlanmasında özünəməxsus rol oynamışdır. Əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun üstündə yerləşməsi onu fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirmişdir. Ərazisi dəfələrlə işğal olunsa da, əldən-ələ keçsə də, Naxçıvan heç vaxt qədim dini əyməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə, tarixi ərazisini qoruyub saxlaya bilmiş, müasir dövrümüzədək gətirib çıxarmışdır.

Naxçıvan ölkəmizin dövlətçilik tarixində də mühüm rol oynamışdır. Min illər boyunca Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu torpaqda onuncu əsrdə

"Naxçıvan şahlığı" adlı xüsusi feodallıq yaranmış, Naxçıvan şəhəri on ikinci əsrdə qüdrətli Atabəylər dövlətinin paytaxtı olmuşdur. 1747-ci ildə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı bölgənin inkişafına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, inzibati idarəçiliyin formalaşmasına özünəməxsus töhfələr vermişdir. Bu dövrdə Naxçıvan xanlığının oynadığı rolu dövlətçilik tarixi baxımından müstəsna xidmət kimi dəyərləndirən ulu öndərimiz demişdir: ***"Azərbaycanın bir parçası olan Naxçıvanda dövlətçilik sonrakı dövrlərdə, orta əsrlərdə də olubdur. Azərbaycanın xanlıqlara bölünən dövründə də Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. İrəvan xanlığı, Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları - bu xanlıqlar Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar. O dövrdə ayrı-ayrı ölkələr tərəfindən Azərbaycanı, o cümlədən Naxçıvanı ələ keçirmək cəhdləri olmuşdur. Azərbaycan xalqı bunlara sinə gərmiş, o cümlədən naxçıvanlılar Naxçıvanı qoruyub saxlamışlar".***

Naxçıvanın xarici müdaxilələrdən qorunmasında Araz-Türk Respublikasının da mühüm xidmətləri olmuşdur. 1918-ci ildə Naxçıvan şəhəri bir milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikasının paytaxtı idi. Tarixi proseslərin sonrakı inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan Diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Naxçıvanın muxtariyyət qazanması Azərbaycan xalqının ən mühüm nailiyyətlərindən biridir. Naxçıvan Muxtar Respublikası milli mənsubiyyətə görə yox, 1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranmış, 1920-ci il dekabrın 2-də Rusiya və Ermənistan arasında imzalanmış hərbi-siyasi sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsindən sonra isə tarixi zərurətə çevrilmişdi.

Naxçıvana muxtariyyət statusunun verilməsinin səbəblərindən biri də bu faktorun böyüyərək regional çərçivədən çıxması və beynəlxalq hüququn subyektinə çevrilməsidir. Aparılmış siyasi və diplomatik səylərin nəticəsi kimi Naxçıvanın tarixi taleyi yalnız 1921-ci ildə imzalanan 2 mühüm beynəlxalq sənəddə - Moskva və Qars müqavilələrində öz əksini tapmış, Moskva müqaviləsinin 3-cü, Qars müqaviləsinin isə 5-ci maddəsində muxtariyyətin əsasları, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunmuş, bu ərazinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ təsbit edilmişdir. Olduqca çətin bir şəraitdə beynəlxalq müqavilələrin imzalanması və iştirakçı dövlətlərin parlamentlərində təsdiq olunması gənc Azərbaycan diplomatiyasının şəksiz qələbəsi idi.

Bu müqavilələrin davamı və yaranmış real vəziyyətin hüquqi təsdiqi olaraq 1924-cü il fevralın 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması haqqında Dekret verdi. Həmin sənəddə deyilirdi: "Naxçıvan diyarı Azərbaycanın himayəsində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilsin".

Ümummilli liderimizin dediyi kimi, ***"Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi ən böyük tarixi nailiyyət idi".***





Qeyd olunanlar onu göstərir ki, ötən dövr ərzində ölkəmizdə muxtariyyətin möhkəm siyasi və hüquqi bazası formalaşmış, böyük bir inkişaf yolu keçmişdir. Naxçıvanın muxtar respublika statusu bu bölgənin 85 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malikdir.

Ötən əsrin 90-cı illərində - bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır. 1990-cı il yanvarın 18-də SSRİ Müdafiə Nazirliyinin 7-ci Ordusunun köməyi ilə muxtar respublikanın Kərki kəndi ermənilər tərəfindən işğal olunandan sonra, yanvarın 19-da Naxçıvan Ali Soveti "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələni müzakirəyə çıxartmış, "Naxçıvanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından və beynəlxalq Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan" Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdi. Qeyd etmək lazımdır ki, bu qərar Sovetlər Birliyinin dağılması, Azərbaycan xalqının və digər müttəfiq respublikaların xalqlarının suverenlik əldə etməsi üçün atılmış ilk addımlardan idi.

Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu status imkan verirdi ki, ulu öndər Heydər Əliyevin 1990-93-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvan, xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilsin. Bu dövrdə ölkəmizin müstəqilliyi ilə bağlı qanunvericilik təşəbbüsü hüququ istisnasız olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məxsus olmuşdur. Belə ki, 1990-cı il noyabrın 17-də ümummilli liderimizin rəhbərliyi ilə keçən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyət orqanları haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul olunmuşdur. O zamankı Azərbaycan rəhbərliyinin Sovet Sosialist Respublikaları İttifaqının qorunub saxlanmasına dair göstərdiyi təşəbbüslərin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 14 mart tarixli qərarı ilə SSRİ-nin saxlanmasına dair ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirakının yolverilməz olduğunu bəyan etmişdir. 1991-ci ilin oktyabrında "Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında" SSRİ qanununun müzakirəsi zamanı da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan dövlət hakimiyyət orqanlarından fərqli mövqe tutaraq SSRİ-nin yenidən bərpasına və unitar ittifaq dövlətinin möhkəmləndirilməsinə yönəldilən cəhdləri rədd etmiş, Azərbaycan Ali Sovetindən də müvafiq qərarların qəbul olunmasını xahiş etmişdir.

Naxçıvanın muxtariyyət statusu bu dövrdə erməni işğalı təhlükəsinin aradan qaldırılması, ağır blokada şəraitində adamların yaşayışının təmin olunması

sahəsində də taleyüklü qərarların qəbul edilməsinə şərait yaratmış, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi ümummilli lider Heydər Əliyev qonşu İran və Türkiyə respublikaları ilə əlaqələr quraraq bu ölkələrdə səfərlərdə olmuş, müxtəlif sahələrdə əməkdaşlığa dair protokollar imzalamışdır.

Naxçıvanın muxtariyyət statusu bu gün də Azərbaycandan ayrı düşmüş, blokada şəraitində yaşayan regionda dövlət hakimiyyət orqanlarının ahəngdar fəaliyyətini təşkil edən mühüm amildir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Naxçıvan Muxtar Respublikasının qonşu ölkələrlə əməkdaşlıq siyasəti uğurla davam və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Avropa Şurası ilə də geniş əməkdaşlığa malikdir. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Regionlar Palatasında Naxçıvan Muxtar Respublikasının da nümayəndələri təmsil olunmuşlar.

Qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının qanunvericilik təcrübəsi də Avropa qanunvericiliyinin tərkib hissəsinə çevrilməkdədir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Qanun vasitəsi ilə Demokratiya uğrunda Avropa Komissiyasının (Venesiya Komissiyası) hüquqi ekspertizasından keçmiş, bu qurum Naxçıvan Muxtar Respublikasının Konstitusiyası barədə rəyində bəyan etmişdir ki: "Naxçıvan Muxtar Respublikası digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malikdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası bütövlükdə muxtariyyətin idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyətlərinin səlahiyyətlərinin və əsaslarının müəyyənləşdirilməsində model kimi çıxış edə bilər".

Göründüyü kimi, bu gün də özünün yüksək qiymətini tapan və model kimi dəyərləndirilən Naxçıvanın muxtariyyət statusu bölgənin tarixi taleyində əhəmiyyətli rola malik olmuş, Azərbaycanın bu qədim ərazisinin qorunub saxlanmasında və təhlükəsizliyinin təmin olunmasında mühüm faktor kimi çıxış etmişdir.

Naxçıvanın muxtariyyət bayramlarının qeyd olunmasının da böyük bir tarixi vardır. 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə 60 illik yubileyləri xalqımız tərəfindən geniş şəkildə qeyd olunmuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə qeyd olunan 75, ölkə Prezidenti cənab İlham Əliyevin 2004-cü il 9 fevral tarixli Sərəncamı ilə keçirilən 80 illik yubileylərin böyük siyasi, tarixi və elmi əhəmiyyəti vardır.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin ölkəmizdə geniş şəkildə və yüksək səviyyədə qeyd olunması muxtar respublikaya göstərilən dövlət qayğısının daha bir parlaq ifadəsidir.

Möhtərəm Prezident, Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında sərəncamınıza, qayğınıza və bu əlamətdar bayramı naxçıvanlılarla bir yerdə qeyd etdiyinizə görə Sizə muxtar respublikanın bütün əhalisi adından və öz adımdan dərin minnətdarlığımızı bildiririk.

Hörmətli Prezidentimizin "Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında" 2009-cu il 6 fevral tarixli Sərəncamında deyilir: ***"Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı***





***tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində dəyərli töhfələr verir".***

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən quruculuq tədbirlərinin, qazanılmış uğurların kökündə ulu öndər Heydər Əliyev tərəfindən hazırlanmış və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün reallıqları nəzərə alınaraq zənginləşdirilmiş inkişaf proqramları dayanır.

Bu gün Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi ümummilli liderimizin Azərbaycan ali rəhbərliyinə birinci gəlişinin 40 illiyini qeyd etdiyimiz bir vaxtda keçirilir. 1969-cu ilin 14 iyulu Azərbaycanın siyasi taleyinə yazılan tarix, əlamətdar gündür. Bu tarixdən başlayaraq Azərbaycan özünə, unudulmaqda olan kökünə, milli-mənəvi dəyərlərinə qayıtdı. Azərbaycançılıq məfkurəsi gücləndi. Respublikamız keçmiş Sovetlər Birliyinin aqrar əlavəsindən sənaye kompleksinin inkişaf etdiyi lider respublikalar sırasına çıxdı. İrəliyə doğru qətiyyətli sıçrayış respublika həyatının bütün sahələrini, o cümlədən regionları da əhatə etdi.

Ötən əsrin 70-ci illərindən etibarən 5 min illik tarixə malik qədim Naxçıvan da özünün əsl intibahına və inkişafa qovuşdu, ikinci ömrünü yaşamağa başladı. Şəhər və rayonların, ucqar dağ kəndlərinin siması dəyişildi. Əhalinin güzəranı yaxşılaşdı. Köhnə kəndli komalarının yerində aynabəndli evlər ucaldıldı. Naxçıvanda yeni sənaye obyektləri, su anbarları, aqrar-sənaye kompleksləri, su elektrik stansiyası yaradıldı. Sənaye istehsalının quruluşunda konserv, üzüm emalı, tikinti materialları, elektrotexnika avadanlığı, meşə və ağac emalının xüsusi çəkisi xeyli artdı. Təhsil, səhiyyə, mədəni-maarif müəssisələrinin şəbəkəsi genişləndirildi.

Şübhəsiz ki, ümummilli lider Heydər Əliyevin şah əsəri bu gün dünya birliyində öz layiqli yerini tutan müasir, müstəqil Azərbaycan Respublikasıdır. Həyatının mənası hesab etdiyi Azərbaycanı dirçəltmək, tərəqqiyə qovuşdurmaq böyük öndərimizin müqəddəs amalı idi. O, bu yolda bütün enerjisini sərf edir və deyirdi: ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Ulu öndərimiz arzularının həqiqətə çevriləcəyi günün çox da uzaqda olmadığını qəti əminliklə bəyan edir və bildirirdi: ***"İnanıram ki, axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcəkdir. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Artıq rifaha və tərəqqiyə qovuşmuş müstəqil ölkəmizin zəngin quruculuq səhifələri böyük öndərimizin arzularının reallaşdığından xəbər verir. Bu reallıq heç bir siyasi güc mərkəzindən asılı olmayan, böyük dövlətlərin maraqlarını xalqının mənafeyinə tabe etdirməyi bacaran müasir, müstəqil, güclü Azərbaycandır!

Əgər ümummilli liderimiz ötən əsrin 70-ci illərində geridə qalmış aqrar Azərbaycan Respublikasını müttəfiq respublikalar içərisində lider respublikaya çevirdisə, bu gün bu siyasi kursun davamçısı hörmətli İlham Əliyev müstəqil Azərbaycanı lider dövlətə çevirdi.

Bu gün inkişaf etmiş Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ümummilli liderimizin yaradıcı təliminə, inkişaf modelinə sanballı töhfədir.

Ölkə Prezidentinin himayəsi və iştirakı ilə Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin qeyd olunduğu 2004-cü ildən ötən 5 il muxtar respublikada gedən inkişafın, irimiqyaslı quruculuq tədbirlərinin əyani ifadəsidir. Bu inkişaf ölkə rəhbərinin tükənməz qayğısı nəticəsində baş vermişdir. Bu dövrdə ölkə Prezidentinin Naxçıvan Muxtar Respublikasına etdiyi səfərlər zamanı 40-dan çox mühüm əhəmiyyətli obyektin istifadəyə verilməsi, uzun fasilədən sonra muxtar respublikaya təbii qazın nəqlinin bərpa olunması muxtar respublikanın inkişafına göstərilən dövlət qayğısının ifadəsidir.

Göstərilən diqqət və qayğının nəticəsidir ki, ötən beş il ərzində muxtar respublikada ümumi daxili məhsul (ÜDM) istehsalının həcmi 3,5 dəfədən çox artaraq 232 milyon manatdan 796 milyon manata çatmışdır. Adambaşına düşən ÜDM-in həcmi isə 637 ABŞ dollarından 2 min 500 ABŞ dollarına çataraq 4 dəfə artmış, büdcənin həcmi bu dövrdə 48 milyon manatdan 5,7 dəfə artaraq 273 milyon manat olmuşdur.

İqtisadiyyatın inkişafı muxtar respublikanın xarici iqtisadi əlaqələrinin də artmasına səbəb olmuşdur. Beş il ərzində xarici ticarət dövriyyəsinin həcmi 3 dəfə artaraq 39 milyon ABŞ dollarından 104 milyon ABŞ dollarına çatmışdır.

5 il ərzində yeni emal və istehsal müəssisələrinin yaradılması sənayenin inkişafına öz təsirini göstərmiş, 2004-cü illə müqayisədə 2008-ci ildə sənaye məhsulunun həcmi 26 milyon manatdan 164 milyon manata çataraq 6 dəfə artmışdır.

Məhsul istehsalının artımına birbaşa təsir göstərən amillərdən biri də özəl bölmənin inkişaf etdirilməsidir. Əgər 2004-cü ildə muxtar respublika sahibkarlarına 3 milyon manata yaxın kredit verilmişdisə, cari ildə maliyyə dəstəyinin həcmi 6 dəfə artırılaraq 19 milyon manata yaxın olmuşdur. Bunun nəticəsidir ki, 2004-2009-cu illər ərzində muxtar respublikada 184 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. İndi Naxçıvan Muxtar Respublikasında 87 növdə ərzaq, 148 növdə qeyri-ərzaq olmaqla, ümumilikdə, 235 növdə məhsula olan tələbat daxili imkanlar hesabına ödənilir.

Yeni istehsal sahələrinin istifadəyə verilməsi nəticəsində əhalinin məşğulluq səviyyəsi artmışdır. 2003-cü il oktyabrın 1-dən 2009-cu il avqust ayının 1-dək muxtar respublikada 40 min 28 yeni iş yeri açılmışdır ki, onun da 25 min 942-si, yaxud 65 faizi daimi iş yerləri olmuşdur.

Muxtar respublika iqtisadiyyatında son illər inkişaf edən sahələrdən biri olan tikintiyə müxtəlif maliyyə mənbələri hesabına yönəldilən investisiyaların həcmi 80 milyon 196 min manatdan 309 milyon 598 min manat olmaqla 4 dəfə artmışdır.

Muxtar respublikada aparılan quruculuq tədbirləri yol infrastruktur obyektlərinin bərpa və tikintisini də əhatə etmiş, 391 kilometr uzunluğunda yollar çəkilmiş və əsaslı təmir olunmuşdur. Həmçinin son 5 il yarım ərzində 18 körpüdə tikinti və ya əsaslı təmir işləri aparılmışdır.

Qeyd olunan dövrdə ümumtəhsil məktəblərinin, məktəbəqədər və məktəbdənkənar müəssisələrin tikintisinə də diqqət artırılmış, 26 min 618 şagird yerlik 68 orta məktəb binası, 11 uşaq bağçası, 5 məktəbdənkənar müəssisə, 9 uşaq musiqi məktəbi tikilərək və ya yenidən qurularaq gələcəyimiz olan gənc nəslin istifadəsinə verilmişdir. Məktəb tikintisində ümummilli liderimizin adını daşıyan Fond da yaxından iştirak etmiş, Fondun hesabına 2 min 726 şagird yerlik 7 məktəb tikilərək istifadəyə verilmişdir.





Ali və orta ixtisas məktəbləri, elm ocaqları üçün bina və korpusların tikintisi də diqqətdən kənarda qalmamış, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin institutları üçün 2 korpus, Batabat Astrofizika Rəsədxanası, Bioresurslar İnstitutunun Nəbatat bağı üçün inzibati binalar, Naxçıvan Dövlət Universiteti üçün 2 korpus və Elektron Kitabxana tikilmişdir. Muxtar respublikada fəaliyyət göstərən 3 orta ixtisas məktəbinin hamısının binası yenidən qurulmuşdur.

Görülən tədbirlər nəticəsində təhsilin səviyyəsi artmışdır. Əgər 2004-cü ildə orta məktəbi bitirən məzunlardan 49 faizi ali məktəblərə sənəd vermişdirsə, 2009-cu ildə bu göstərici 74 faiz olmuşdur. 2004-cü ildə abituriyentlərin 30 faizi və ya 891 nəfəri tələbə adını qazanmışdırsa, 2008-ci ildə bu göstərici müvafiq olaraq 40 faiz və ya 1270 nəfər təşkil etmişdir. 2004-cü ildə tələbə adını qazananların yalnız 67 nəfəri qəbul imtahanlarında 500-dən yuxarı bal toplamışdırsa, 2009-cu ildə 500-dən yuxarı bal toplayanların sayı 3 dəfə artaraq 232 nəfər olmuşdur. 2004-2008-ci illərdə əldə etdiyi yüksək nailiyyətlərə görə 13 tələbə Prezident təqaüdünə layiq görülmüşdür. Məzunlarımızdan 250 nəfəri Türkiyə, Ukrayna, İngiltərə, Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, Fransa və Cənubi Koreya universitetlərinə qəbul olunaraq təhsillərini davam etdirirlər.

2007-2008-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqəsində qazandıqları nailiyyətlərə görə muxtar respublikadan 3 məktəb "Ən yaxşı ümumtəhsil məktəbi", 5 müəllim isə "Ən yaxşı müəllim" adına layiq görülmüş, birdəfəlik pul mükafatları almışlar.

Ötən dövrlərdə savadlı nəslin yetişdirilməsi ilə yanaşı əhali sağlamlığının mühafizəsi istiqamətində də tədbirlər davam etdirilmiş, 110 səhiyyə müəssisəsi tikilərək istifadəyə verilmişdir.

Təhsil və səhiyyə ilə yanaşı elm də inkişaf etmiş, muxtar respublikanın 80 illik yubileyindən ötən dövr ərzində 102 namizədlik, 22 doktorluq dissertasiyası müdafiə edilmiş, 2 nəfər Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, 5 nəfər müxbir üzv seçilmişdir. Bu müddət ərzində muxtar respublikanın alim və tədqiqatçıları tərəfindən 450-ə yaxın kitab, monoqrafiya və dərs vəsaiti hazırlanaraq dərc olunmuşdur. Muxtar respublikanın tarixi, coğrafiyası, turizmi və digər sahələri ilə əlaqədar 30 beynəlxalq simpozium və konfrans keçirilmişdir. "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda keçirilən beynəlxalq elmi forum tarixşünaslığın aktual probleminə həsr olunmuş, Azərbaycanın qədim Naxçıvan diyarının yaşı məsələsinə aydınlıq gətirilmiş, 5 min illik şəhər mədəniyyəti elmi dəlillərlə sübuta yetirilmişdir.

Naxçıvan tarixi abidələrlə zəngin bölgədir. Burada xalqımızın daş yaddaşı, kimlik möhürü olan tarixi abidələrin mühafizəsi, onların bərpa olunaraq gələcək nəsillərə çatdırılması diqqət mərkəzindədir. Son illər muxtar respublika ərazisindəki Əshabi-Kəhf Dini-Mədəni Abidə Kompleksində, Xanəgah və Qarabağlar Memarlıq komplekslərində, Naxçıvan şəhərindəki Möminə Xatın Türbəsində, Zaviyyə-Mədrəsə binasında, "Şərq hamamı" tarixi abidə kompleksində, Came məscidində, Nuh Peyğəmbərin məzarüstü türbəsində əsaslı təmir və bərpa işləri aparılmışdır. Muxtar respublika ərazisindəki tarixi abidələr yenidən tədqiq olunmuş və pasportlaşdırılmışdır.

Əhalinin 70 faizindən çoxunun kənddə yaşayaraq aqrar sahədə çalışması kənd

təsərrüfatını muxtar respublika iqtisadiyyatının əsas sahəsinə çevirmişdir. Aqrar sektorda çalışanların torpaq vergisindən başqa digər ödənişlərdən azad olunması, məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, maddi yardımların göstərilməsi, üzvi gübrələrin dəyərinin bir hissəsinin dövlət tərəfindən ödənilməsi, müasir texnika və avadanlıqların gətirilərək lizinq yolu ilə icarəyə verilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə kimi tədbirlər kəndlinin torpağa bağlılığını daha da artırmışdır. Bunun nəticəsidir ki, 2004-cü illə müqayisədə 2008-ci ildə kənd təsərrüfatında məhsul istehsalının həcmi 78 milyon manatdan 153 milyon manata çataraq 2 dəfə artmışdır.

Ötən illərdə muxtar respublikada 16 min 830 hektar sahəni suvarmağa imkan verən Heydər Əliyev Su Anbarının tikilərək istifadəyə verilməsi, Arpaçay Su Anbarında əsaslı təmir işlərinin həyata keçirilməsi, nasos stansiyalarının qurulması, subartezian quyularının qazılması və bərpası suvarma əkinçiliyinin inkişafına müsbət təsir göstərmişdir. Bunun nəticəsidir ki, əgər 2004-cü ildə əkin altında olan cəmi torpaq sahəsi 47 min 552 hektar idisə, 2009-cu ildə bu göstərici 11 min 648 hektar artaraq 59 min 200 hektara çatmışdır.

Taxılçılıq və kartofçuluq muxtar respublikada əkinçiliyin aparıcı sahələrini təşkil edir. 2004-cü ildə 21 min 716 hektar sahədə taxıl əkilmişdirsə, 2009-cu ildə taxıl zəmilərinin sahəsi 55 faiz artırılaraq 33 min hektardan çox olmuşdur. 2004-cü ilə nisbətən kartof əkilən sahələrin həcmi 2009-cu ildə 70 faiz artırılaraq 1602 hektardan 2720 hektara çatdırılmışdır.

Əkinçiliklə yanaşı heyvandarlığın da inkişafı diqqətdən kənarda qalmamışdır. 2004-cü illə müqayisədə 2009-cu ildə iribuynuzlu mal-qaranın sayı 21 min baş artaraq 105 min, xırdabuynuzluların sayı isə 132 min baş artaraq 637 min baş təşkil etmişdir.

Son dövrlərin ən perspektivli sahələrindən biri də qədim ənənələrə malik olan arıçılıqdır. Arıçılığın inkişafı ilə əlaqədar kreditlərin verilməsi, bal emalı müəssisələrinin yaradılması bu sahəyə olan marağı artırmışdır. 2009-cu ildə 2004-cü illə müqayisədə arı ailələrinin sayı 4 dəfə artırılaraq 29 minə çatdırılmışdır.

Son illər muxtar respublikada həyata keçirilən tədbirlər nəticəsində enerji təhlükəsizliyi təmin olunmuşdur. Ölkə başçısının diqqət və qayğısı nəticəsində muxtar respublikaya təbii qaz xəttinin çəkilməsi elektrik enerjisi ilə təchizatın səviyyəsini artırmışdır. Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrinə təbii qaz verilir. Əgər Sovetlər Birliyi dövründə muxtar respublika üzrə cəmi 33 min abonent təbii qazla təmin olunmuşdursa, indi artıq 76 min 429 abonentin mənzilində mavi yanacaqdan istifadə olunur.

Təbii qaz çəkilişi elektrik enerjisinə olan tələbatın azalmasına səbəb olmaqla yanaşı, tələbatın yerli istehsal hesabına ödənilməsinə də müsbət təsir göstərmişdir. İstifadəyə verilən yeni elektrik stansiyaları muxtar respublikanı enerji idxal edən bölgədən elektrik enerjisi ixrac edən regiona çevirmişdir.

Bu gün Naxçıvanda sürətlə inkişaf edən sahələrdən biri də rabitə və informasiya texnologiyalarıdır. Son 5 ildə Trans Asiya-Avropa fiber-optik kabel magistralı üzərindən Bakı-Naxçıvan-Türkiyə arası rabitə kanalı çəkilərək istifadəyə verilmiş, muxtar respublika ərazisində 3 mobil operatorun fəaliyyəti təmin olunmuş, "Naxtel" simsiz rabitə sistemi istismara verilmiş, Rabitə və İnformasiya





Texnologiyaları Nazirliyi nəzdində internet mərkəzi yaradılmış və muxtar respublikanın yaşayış ərazilərinin 80 faizi simsiz internet xidməti ilə əhatə olunmuşdur. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı"nın icrası təmin olunmuş, muxtar respublikanın orta ümumtəhsil məktəblərində hər 23 şagirdə 1 kompyuter düşməklə 2335 kompyuter quraşdırılmışdır. Quraşdırılmış kompyuterlərdən 50 faizinin birbaşa internetə çıxışı təmin edilmişdir.

Həyata keçirilən islahatlar sosial-iqtisadi sahədə dönüş yaratmış, əhalinin həyat şəraitinin və güzəranının yaxşılaşmasına səbəb olmuşdur. Əhali gəlirlərinin həcmi 2004-cü illə müqayisədə 2008-ci ildə 3 dəfə artaraq 216 milyon manatdan 684 milyon manata çatmışdır. Adambaşına gəlirlərin həcmi 2004-cü ildəki 582 manata nisbətən 3 dəfə artaraq 1768 manata, orta aylıq əməkhaqqının məbləği isə 3,5 dəfə artaraq 68 manatdan 235 manata qalxmışdır. Cari ilin 6 ayında isə orta aylıq əməkhaqqının məbləği 260 manat təşkil etmişdir. Əhalinin sosial rifahının yaxşılaşması şəxsi vəsait hesabına tikilən fərdi yaşayış sahələrinin də artmasına səbəb olmuşdur. Əgər 2004-cü ildə əhalinin şəxsi vəsaiti hesabına 28 min kvadratmetr yaşayış sahəsi tikilmişdirsə, 2008-ci ildə və cari ilin 6 ayında bu göstərici 6 dəfə artaraq 184 min kvadratmetr olmuşdur. Əldə olunan inkişaf öz növbəsində bir vaxtlar müxtəlif səbəblərdən muxtar respublikanı tərk etmiş vətəndaşların geri qayıtmasına, əhali artımına və məskunlaşmaya da öz təsirini göstərmişdir. Son 5 il yarım ərzində Naxçıvan Muxtar Respublikasının əhalisi 20 min nəfər artmış, əhalinin ümumi sayı isə 400 minə çatmışdır.

Göründüyü kimi, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası uğurlu yol keçmişdir. Bunun nəticəsini təkcə rəqəmlərdə yox, eyni zamanda real həyatda, şəhər və rayon mərkəzlərimizin, kəndlərimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında görürük. Bu inkişafa öz töhfəsini verənlərin əməyi yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 14 nəfər orden, 204 nəfər medallarla təltif olunmuş, 100 nəfər müxtəlif fəxri adlara layiq görülmüşdür. Həmçinin dövlətimizin başçısı tərəfindən 12 nəfər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 33 nəfər isə Prezident mükafatına layiq görülmüşdür. Bundan başqa, 160 nəfər Naxçıvan Muxtar Respublikasının fəxri adları ilə təltif olunmuşdur.

Yubiley tədbirinin hörmətli iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 85 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, xilasımız və inkişafımız ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur. Bu yolu uğurla davam etdirən ölkəmizin Prezidenti cənab İlham Əliyevin dediyi kimi, ***"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir".***

Diqqətinizə görə sağ olun!

Prezident İlham Əliyevin 2009-cu il 3 avqust tarixli sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə görə muxtar respublikanın bir qrup ziyalısı müxtəlif orden və medallara, fəxri adlara layiq görülmüşlər. Dövlətimizin başçısı həmin mükafatları sahiblərinə təqdim etdi.

***

Yubiley mərasiminin rəsmi hissəsindən sonra Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.

***

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, təntənəli mərasimdə iştirak edən qonaqlar konsert proqramına maraqla tamaşa etdilər.





**Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə aşağıdakı fəxri adlar verilsin:

**"Azərbaycan Respublikasının xalq artisti"**

Axundov Çingiz Məmməd oğlu

**"Azərbaycan Respublikasının əməkdar elm xadimi"**

Hacıyev İsmayıl Muxtar oğlu
Talıbov Tariyel Hüseynəli oğlu

**"Azərbaycan Respublikasının əməkdar müəllimi"**

Camalov Kamal Həsən oğlu
Quliyev Əbülfəz Aman oğlu
Nəcəfova Zərifə Əli qızı
Rzayev Məmməd Hüseyn oğlu

**"Azərbaycan Respublikasının əməkdar həkimi"**

Rəhimov Rəhim Nəcəf oğlu

**"Azərbaycan Respublikasının əməkdar rəssamı"**

Həmzəyeva Ülviyyə Tapdıq qızı

**"Azərbaycan Respublikasının əməkdar mühəndisi"**

Mustafayev Nemət Nəriman oğlu

**"Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi"**

Babayev Yusif İmran oğlu

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 avqust 2009-cu il***

**Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında böyük xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şərəf" ordeni ilə**

Həbibbəyli İsa Əkbər oğlu

**"Şöhrət" ordeni ilə**

Vəliyev Sadıq Hüseynəli oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Vüqar Zakir oğlu
Abdullayev İsa Əli oğlu
Hacızadə Xuraman Abdulla qızı
Hümbətov Rəsul Həsən oğlu
Xəlilova Əsmər Həmid qızı
Qədirzadə Hacıqadir İbrahim oğlu
Mustafayev Hacıəkbər Abbas oğlu

**"Vətən uğrunda" medalı ilə**

Əliyev Rasim Məmmədəli oğlu

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 avqust 2009-cu il***





**S.İ.Kəngərliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında mətbuat sahəsində səmərəli fəaliyyətinə görə Səxavət İsgəndər oğlu Kəngərliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 avqust 2009-cu il***

**T.Y.Rzayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında xidmətlərinə görə Teymur Yaqub oğlu Rzayev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 avqust 2009-cu il***





**E.R.Uçarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında xidmətlərinə görə Emin Rəsul oğlu Uçar "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 avqust 2009-cu il***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ BAŞA ÇATMIŞDIR

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri avqustun 5-də başa çatmışdır.

Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və digər rəsmi şəxslər böyük ehtiramla yola saldılar.













**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR MUXTAR RESPUBLİKAYA GƏLMİŞ DÖVLƏT RƏSMİLƏRİNİN SİYAHISI**

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyası**

| | | |
|---|---|---|
| 1. | Əliyeva Mehriban Arif qızı | -Heydər Əliyev Fondunun prezidenti |
| 2. | Axundov Vaqif Əlibala oğlu | -Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi |
| 3. | Eyyubov Bəylər Həsən oğlu | -Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin birinci müavini |
| 4. | Əliyev Vahid Əli oğlu | -Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi |
| 5. | Əsədov Əli Hidayət oğlu | -Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi |
| 6. | Abdullazadə Fatma Hüseyn qızı | -Prezident Administrasiyasının Humanitar-siyasət məsələləri şöbəsinin müdiri |
| 7. | Həsənov Əli Məhəmmədəli oğlu | -Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri |
| 8. | Məmmədov Novruz İsmayıl oğlu | -Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri |
| 9. | Qasımov Azər Məhəmməd oğlu | -Prezidentin mətbuat katibi |
| 10. | Əliyev Cəmil Əziz oğlu | -Prezidentin Xüsusi Tibb Xidmətinin rəisi |
| 11. | Abbasov Ədalət Hekayət oğlu | -Prezidentin mətbuat katibinin xidməti, sektor müdiri |
| 12. | Abdullayev Fuad Nazim oğlu | -Prezidentin Protokol xidməti, aparıcı məsləhətçi |

13. Səmədov Arif Vasif oğlu -Prezidentin Protokol xidməti, aparıcı məsləhətçi
14. Şəfiyev Namiq Şəmil oğlu -Prezidentin mətbuat katibinin xidməti, məsləhətçi
15. Əzizov Vahid Əzizağa oğlu -Prezidentin mətbuat katibinin xidməti, böyük məsləhətçi
16. Məhəmmədov Kənan Tofiq oğlu -Prezidentin mətbuat katibinin xidməti, baş məsləhətçi
17. Həsənov Namiq Mirzəağa oğlu -Prezidentin mətbuat katibinin xidməti, baş məsləhətçi
18. Abbasov Abbas -Prezidentin İşlər İdarəsi, əməkdaş

**Azərbaycan Respublikasının nazirləri**

19. Məmmədyarov Elmar Məhərrəm oğlu -Azərbaycan Respublikasının xarici işlər naziri
20. Əbiyev Səfər Axundbala oğlu -Azərbaycan Respublikasının müdafiə naziri
21. Usubov Ramil İdris oğlu -Azərbaycan Respublikasının daxili işlər naziri
22. Heydərov Kəmaləddin Fəttah oğlu -Azərbaycan Respublikasının fövqəladə hallar naziri
23. Mustafayev Şahin Abdulla oğlu -Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri
24. Şərifov Samir Rauf oğlu -Azərbaycan Respublikasının maliyyə naziri
25. Məmmədov Fazil Əsəd oğlu -Azərbaycan Respublikasının vergilər naziri





26. Mərdanov Misir Cumayıl oğlu -Azərbaycan Respublikasının təhsil naziri
27. Şirəliyev Oqtay Kazım oğlu -Azərbaycan Respublikasının səhiyyə naziri
28. Rəhimov Azad Arif oğlu -Azərbaycan Respublikasının gənclər və idman naziri
29. Məmmədov Ziya Ərzuman oğlu -Azərbaycan Respublikasının nəqliyyat naziri
30. Abbasov İsmət Dursun oğlu -Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri
31. Bağırov Hüseynqulu Seyid oğlu -Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
32. Abbasov Əli Məmməd oğlu -Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları naziri
33. Qarayev Əbülfəs Mürsəl oğlu -Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri
34. Camalov Yavər Talıb oğlu -Azərbaycan Respublikasının müdafiə sənayesi naziri

**Azərbaycan Respublikasının komitə, şirkət və digər təşkilatları**

35. İbrahimov Nazim Hüseyn oğlu -Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri
36. Quliyev Elçin İsağa oğlu -Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı
37. Müslümov Səlim Yanvar oğlu -Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri

| | |
|---|---|
| 38. Əzizov Eldar Əziz oğlu | -Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı |
| 39. Abdullayev Rövnəq İbrahim oğlu | -Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin prezidenti |
| 40. Əhmədov Tağı Məhəmməd oğlu | -Bakı Metropoliteninin rəisi |
| 41. Talıbov Rza Vasif oğlu | -Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşı |
| 42. Xələfov Rauf | -Milli Təhlükəsizlik Nazirliyinin şöbə rəisi |
| 43. Alışanov Arif Nizam oğlu | -"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri |
| 44. Əhmədzadə Əhməd Cuma oğlu | -"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri |

**Azərbaycan Respublikasının Milli Məclisi**

| | |
|---|---|
| 45. Muradova Bahar Əvəz qızı | -Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini |
| 46. İbrahimov Eldar Rzaqulu oğlu | -Milli Məclisin deputatı |
| 47. Novruzov Siyavuş Dünyamalı oğlu | -Milli Məclisin deputatı |
| 48. Heydərov Fəttah Səməd oğlu | -Milli Məclisin deputatı |





**Yeni Azərbaycan Partiyası**

| | |
|---|---|
| 49. Əhmədov Əli Cavad oğlu | -Yeni Azərbaycan Partiyası sədrinin müavini, icra katibi |
| 50. Qurbanlı Mübariz Qəhrəman oğlu | -Yeni Azərbaycan Partiyası icra katibinin müavini |
| 51. Əsgərov Şahlar Qaçay oğlu | -Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü |
| 52. Abutalıbov Hacıbala İbrahim oğlu | -Yeni Azərbaycan Partiyası İdarə Heyətinin sədri |
| 53. Əliyev Vaqif Qədir oğlu | -Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü |
| 54. Hümbətov Yusif Kərim oğlu | -Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü |
| 55. Zabelin Mixail Yuriyeviç | -Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü |

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR MUXTAR RESPUBLİKAYA GƏLMİŞ ELM XADİMLƏRİ VƏ ZİYALILARIN SİYAHISI

**Azərbaycan Milli Elmlər Akademiyası**

1. Kərimov Mahmud Kərim oğlu -Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
2. Vəlixanlı Nailə Məmmədəli qızı -Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, vitse prezident
3. Nağıyev Tofiq Murtuza oğlu -Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin direktoru
4. Nəbiyev Bəkir Əhməd oğlu -Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun direktoru
5. Əliyev Vəli Hüseyn oğlu -Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü

**Azərbaycan Respublikasının universitet və institut rektorları**

6. Qəndilov Seyfəddin Tağı oğlu Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru
7. Abıyev Ağacan Qulam oğlu -Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru





8. Bədəlbəyli Fərhad Şəmsi oğlu -Bakı Musiqi Akademiyasının rektoru
9. Eldarov Ömər Həsən oğlu -Azərbaycan Rəssamlıq Akademiyasının rektoru
10. Əmiraslanov Əhliman Tapdıq oğlu -Azərbaycan Tibb Universitetinin rektoru
11. Seyidov Səməd İsmayıl oğlu -Azərbaycan Dillər Universitetinin rektoru
12. Əfəndiyev Timuçin İlyas oğlu -Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rektoru
13. Məmmədova Gülçöhrə Hüseyn qızı -Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru
14. Abdullayev Kamal Mehdi oğlu -Bakı Slavyan Universitetinin rektoru
15. Naxçıvanlı Aqiyə Həbib qızı -Azərbaycan Müəllimlər İnstitutunun rektoru
16. Cəfərov Cəfər Məmməd oğlu -Azərbaycan Turizm İnstitutunun rektoru
17. Kərimi Siyavuş Əşrəf oğlu -Azərbaycan Milli Konservatoriyasının rektoru
18. Paşayeva Nərgiz Arif qızı -M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru
19. Əliyeva Rəfiqə Əlirza qızı -Bakı Dövlət Universitetinin professoru

**Azərbaycan Respublikasının Yazıçılar Birliyi**

20. Qocayev Fikrət Göyüş oğlu -Azərbaycan Respublikası Yazıçılar Birliyinin birinci katibi
21. Məcid Rəşid Museyib oğlu -Azərbaycan Respublikası Yazıçılar Birliyinin katibi
22. Cəfərov Ayaz Rza oğlu (Ayaz Vəfalı) -Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü, «Ədəbiyyat» qəzetinin baş redaktoru
23. Hüseynbəyli Elçin Hüseyn oğlu -Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü, «Ulduz» jurnalının baş redaktoru

**Azərbaycan Respublikasının Bəstəkarlar İttifaqı**

24. Əlizadə Firəngiz Əliağa qızı -Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının sədri
25. Hüseynova Lalə Şirməmməd qızı -Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının üzvü
26. Mansurov Eldar Rəhman oğlu -Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının üzvü
27. Zöhrabov Ramiz Fətulla oğlu -Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının üzvü
28. Allahverdiyev Vasif Kərim oğlu -Azərbaycan Respublikası Bəstəkarlar İttifaqının üzvü



Naxçıvan Muxtar Respublikası – 85

**Azərbaycan Respublikasının Rəssamlar İttifaqı**

29. Xəlilov Fərhad Qurban oğlu -Azərbaycan Respublikası Rəssamlar İttifaqının sədri
30. Əliyev Ziyadxan Alxan oğlu -Azərbaycan Respublikası Rəssamlar İttifaqının Tənqidi və sənətşünaslıq bölməsinin sədri
31. Nərimanbəyova Əsmər Toğrul qızı -Azərbaycan Respublikası Rəssamlar İttifaqının Gənc rəssamlar və sənətşünaslar bölməsinin sədri
32. Hacızadə Bayram Kamal oğlu -Azərbaycan Karikaturaçılar Birliyinin sədri
33. Hacıyev Altay Əmir oğlu -Azərbaycan Respublikası Rəssamlar İttifaqının üzvü
34. Həşimov Fikrət Məmməd oğlu -Azərbaycan Respublikası Rəssamlar İttifaqının üzvü

**Azərbaycan Respublikasının Memarlar İttifaqı**

35. Qasımzadə Elbay Ənvər oğlu -Azərbaycan Respublikasının Memarlar İttifaqının birinci katibi

**Azərbaycan Respublikasının Teatr Xadimləri İttifaqı**

36. Neymətov Azərpaşa Zəfər oğlu -Azərbaycan Respublikasının Teatr Xadimləri İttifaqının sədri

**Azərbaycan Respublikasının Professional kinorejissorlar gildiyası**

37. Quliyev Eldar Tofiq oğlu -Azərbaycan Respublikasının Professional kinorejissorlar gildiyasının prezidenti

### NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİK YUBİLEYİ İLƏ ƏLAQƏDAR MUXTAR RESPUBLİKAYA GƏLMİŞ DİPLOMATİK KORPUS NÜMAYƏNDƏLƏRİNİN SİYAHISI

| | | |
|---|---|---|
| 1. | Erkan Özoral | -Türkiyənin Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 2. | Əli Ağacani | -İranın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 3. | Vladimir Doroxin | -Rusiyanın Azərbaycandakı səfiri |
| 4. | Saymon Tonq | -Böyük Britaniyanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 5. | Per Kristofer Stançina | -Almaniyanın Azərbaycandakı səfiri |
| 6. | Cjan Yannyan | -Çinin Azərbaycandakı səfiri |
| 7. | Abdullah Muhammed Casim | -İraqın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 8. | Ahmed Abdulla Mahmud Atiya Əl-Tahlavi | -Misirin Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 9. | Georgios Papanikolau | -Yunanıstanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 10. | Yudit Qalili Metser | -İsrailin Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 11. | Serik Primbetov | -Qazaxıstanın Azərbaycandakı səfiri |
| 12. | Nikoloz Natbiladze | -Gürcüstanın Azərbaycandakı səfiri |
| 13. | Dmitriy Bojok | -Ukraynanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 14. | İsmatullah İrqaşev | -Özbəkistanın Azərbaycandakı səfiri |
| 15. | Yon Ramberq | -Norveçin Azərbaycandakı səfiri |





| | | |
|---|---|---|
| 16. | Daniel Sankeviç | -Polşanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 17. | Nikolaye Ureke | -Ruminyanın Azərbaycandakı səfiri |
| 18. | Debnat Şou | -Hindistanın Azərbaycandakı səfiri |
| 19. | Fəhd bin Əli Əl-Duseri | -Səudiyyə Ərəbistanın Azərbaycandakı səfiri |
| 20. | Stayko Staykov | -Bolqarıstanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 21. | İqor Bodu | -Moldovanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 22. | Mixail Popkovs | -Latviyanın Azərbaycandakı səfiri |
| 23. | Çunq Tab-İn | -Koreyanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 24. | Viliyus Samuila | -Litvanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 25. | Peter Bums | -Belçikanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 26. | Mübarək bin Fəhd Əl-Səni | -Qətərin Azərbaycandakı səfiri |
| 27. | Zokir Vazirov | -Tacikistanın Azərbaycandakı səfiri |
| 28. | Tibor Szilaqyi | -Macarıstanın Azərbaycandakı Səfirliyinin müvəqqəti işlər vəkili |
| 29. | Həsən Hami | -Mərakeşin Azərbaycandakı səfiri |
| 30. | Alan Vaddams | -Avropa Komissiyasının Azərbaycandakı rəhbəri |
| 31. | Con Makqreqor | -ATƏT-in Azərbaycandakı rəhbərinin müavini |

| | | |
|---|---|---|
| 32. | Jantoro Satibadiyev | -TRASEKA-nın Azərbaycandakı baş katibinin müavini |
| 33. | Arun Sala-Nqram | -BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin müavini |
| 34. | Vasiliy Yujanin | -Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı başçısı |





# NAXÇIVAN MUXTAR RESPUBLİKASI 90

Naxçıvan Muxtar Respublikasının
90 illik yubileyinin keçirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur.

Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.

Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi olduğunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planını hazırlayıb həyata keçirmək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tövsiyə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 14 yanvar 2014-cü il***





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İLHAM ƏLİYEVƏ

Möhtərəm Prezident!

2014-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur.

Azərbaycan dövlətçiliyinə mühüm töhfələr verən Naxçıvanda X əsrdə "Naxçıvan şahlığı" feodal dövləti yaradılmış, Naxçıvan şəhəri XII əsrin 30-cu illərindən 1175-ci ilədək Atabəylər dövlətinin paytaxtına çevrilmişdir. 1747-ci ildən Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı bölgənin inkişafında, müdafiə qabiliyyətinin möhkəmlənməsində, inzibati idarəçiliyin formalaşmasında müstəsna rol oynamışdır. 1918-ci ildə isə Naxçıvan şəhəri bir milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikasının paytaxtı olmuşdur.

Tarixi proseslərin sonrakı inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Naxçıvanın tarixi taleyi 1921-ci ildə imzalanan 2 mühüm beynəlxalq sənəddə – Moskva və Qars müqavilələrində öz əksini tapmışdır. Moskva müqaviləsinin 3-cü, Qars müqaviləsinin isə 5-ci maddəsində muxtariyyətin əsasları, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunmuş, bu ərazinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ təsbit edilmişdir.

5 min illik tarixə, qədim mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvanın muxtariyyət tarixi mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Bu yolu şərti olaraq beş mərhələyə bölmək olar: 1924-1969, 1969-1987, 1987-1991, 1991-2003-cü illər və nəhayət 2003-cü ildən sonrakı dövr.

1924-1969-cu illərdə Naxçıvan Muxtar Respublikasında siyasi və iqtisadi həyat olduqca ağır, təzadlı və gərgin keçmişdir. Bu dövrdə Naxçıvan Muxtar Respublikasına münasibətdə mərkəzi hakimiyyətin yeritdiyi siyasət regionu imperiyanın aqrar əlavəsinə çevirmək məqsədinə xidmət etmiş, təbii sərvətlərlə zəngin olan muxtar respublikada məhsuldar qüvvələrin inkişafı aşağı səviyyədə saxlanmışdır.

1969-1987-ci illərdə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə ilk gəlişi ilə doğma Azərbaycanımız, o cümlədən Naxçıvan diyarı da özünün əsl intibahına və inikişafa qovuşmuş, ikinci ömrünü yaşamağa başlamışdır. Şəhər və rayonların, ucqar dağ kəndlərinin siması dəyişmiş, əhalinin güzəranı yaxşılaşmış, Naxçıvanda yeni sənaye obyektləri, su anbarları, aqrar-sənaye kompleksləri, su elektrik stansiyası tikilmişdir. Sənaye istehsalının quruluşunda konserv, üzüm istehsalı, tikinti materialları, elektrotexnika avadanlığı, meşə və ağac emalının xüsusi çəkisi xeyli artırılmış, təhsil, səhiyyə, mədəni-maarif müəssisələrinin şəbəkəsi genişləndirilmişdir.

Ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci dövrü ilə siyasi hakimiyyətə ikinci qayıdışı arasındakı dövr təkcə Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycan siyasi mühitində dərin böhran və tənəzzül mərhələsi kimi yadda qalmışdır. Bu dövrdə ölkəni bürüyən xaos və anarxiya Naxçıvan Muxtar

Respublikasında da gərgin vəziyyət yaratmışdı. Muxtar respublika təkcə iqtisadi blokadaya yox, həm də dərin informasiya blokadasına salınmış, beynəlxalq aləmdən təcrid edilmişdi.

1990-cı ilin iyun ayında ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanın ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etmişdir. Həmin illərdə ümummilli liderimizin muxtar respublika parlamentində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəliyə gətirərək, dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavuzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir. Ulu öndər Heydər Əliyevin aşağıdakı sözləri bütün dövrlər üçün əbədiyaşarlıq haqqı qazanmışdır: **"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".**

1993-cü ildə böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə qayıdışı Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxarmışdır. Bu tarixi qayıdışla Azərbaycanda gedən siyasi böhrana, iqtisadiyyatın dağıdılması prosesinə, hərc-mərcliyə, regionda siyasi və hərbi marağı olan qüvvələrin təsiri ilə ölkənin müstəqil dövlət kimi fəaliyyətinə xitam verilməsi istiqamətində düşünülən xəyanətkar planların gerçəkləşməsinə son qoyulmuşdur.

1993-cü ildən ötən dövr ərzində ümummilli liderin dövlətçilik siyasətinin ana xəttini təşkil edən quruculuq missiyası ölkənin bütün regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da həyatında başlıca hərəkətverici qüvvəyə çevrilmiş, iqtisadiyyat sabitləşmiş, aparılan genişmiqyaslı quruculuq və abadlıq tədbirləri ulu öndərin tükənməz qurucu dühasından qaynaqlanmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra 1995-ci il noyabrın 12-də qəbul olunmuş ilk milli Konstitusiyada Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verilmiş, həmin Konstitusiya əsasında 1998-ci il dekabrın 29-da Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası qəbul olunmuşdur.

2003-cü ildən sonrakı dövrdə də ümummilli lider Heydər Əliyevin siyasi xəttinin Sizin tərəfinizdən uğurla davam etdirilməsinin, aparılan uğurlu siyasətin nəticəsidir ki, Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da şəhər və rayon mərkəzləri, kəndlər simasını dəyişmiş, yeni infrastruktur obyektləri tikilmiş, əhalinin həyat şəraiti daha da yaxşılaşmışdır.

Ötən 90 il ərzində Naxçıvanın muxtariyyət bayramları geniş şəkildə qeyd olunmuşdur. 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə 60 illik yubileyləri keçirilmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra ümummilli lider Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvanın 75, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 9 fevral tarixli Sərəncamı ilə 80 və 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə 85 illik yubileylərin keçirilməsinin böyük siyasi, tarixi, eləcə də elmi əhəmiyyəti olmuşdur. Naxçıvan





Muxtar Respublikasının yubiley tədbirlərinin keçirilməsi bir tərəfdən muxtar respublikaya göstərilən dövlət qayğısının parlaq ifadəsidirsə, digər tərəfdən Naxçıvan tarixinin yenidən və əsaslı şəkildə öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Möhtərəm Prezident!

Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının böyük tarixi-siyasi əhəmiyyətini və Azərbaycan xalqının dövlətçilik tarixində oynadığı özünəməxsus rolunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması üçün müvafiq tapşırıq verməyinizi Sizdən xahiş edirəm.

Hörmətlə,

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 07 yanvar 2014-cü il*

"Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN SƏRƏNCAMI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 yanvar tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 17 yanvar 2014-cü il
№ 181-04/S





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli 181-04/S nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ

## TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | İcraya məsul təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| 1 | Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibəti ilə təntənəli yubiley tədbirinin keçirilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məclisi | 2014-cü il |
| 2 | Muxtar respublikanın mədəniyyət və təhsil müəssisələrində "Naxçıvan Muxtar Respublikası-90" mövzusunda xüsusi guşələrin yaradılması, kitabxanalarda sərgilərin təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | İl ərzində |
| 3 | "Naxçıvan Muxtar Respublikası-90" devizi altında idman və bilik yarışlarının, şeir, mahnı və rəsm müsabiqələrinin keçirilməsi | Gənclər və İdman, Təhsil, Mədəniyyət və Turizm nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Rəssamlar Birliyi, Yazıçılar Birliyi, Bəstəkarlar Təşkilatı | İl ərzində |
| 4 | Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar ümumtəhsil məktəblərində inşa yazıların təşkili | Təhsil Nazirliyi | İl ərzində |
| 5 | Muxtariyyət tarixi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində açıq dərslərin keçirilməsi | Təhsil Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi, ali və orta ixtisas təhsili məktəbləri | İl ərzində |

| № | Tədbirin adı | İcraya məsul təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| 6 | Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətləri əks etdirən sərginin təşkili | İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi | İl ərzində |
| 7 | Muxtar respublika ərazisində istehsal olunan məhsulların etiketlərində "Naxçıvan Muxtar Respublikası-90" loqosunun yerləşdirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Sahibkarlar Konfederasiyası | İl ərzində |
| 8 | Muxtariyyətin 90 illiyinə həsr olunmuş Beynəlxalq Biznes Forumun keçirilməsi | İqtisadi İnkişaf Nazirliyi | Oktyabr, 2014-cü il |
| 9 | "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda beynəlxalq konfransın keçirilməsi | AMEA-nın Naxçıvan bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Özəl Universiteti | İyun, 2014-cü il |
| 10 | Heydər Əliyev lektoriyalarında "Heydər Əliyev və Naxçıvanın muxtariyyəti məsələsi" mövzusunda məşğələlərin keçirilməsi | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı | İl ərzində |
| 11 | www.nakhchivan.az internet portalında "Naxçıvan Muxtar Respublikası-90" mövzusunda tematik səhifənin yaradılması | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, AMEA-nın Naxçıvan bölməsi | Fevral, 2014-cü il |
| 12 | Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibəti ilə qızıl xatirə medalının buraxılması | Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi | 2014-cü il |
| 13 | Həsənəli Eyvazlının "Araz sahilində doğan günəş" tamaşasının hazırlanıb göstərilməsi | Mədəniyyət və Turizm Nazirliyi | May, 2014-cü il |
| 14 | Muxtariyyətin 90 illiyi ilə bağlı şəhər və rayon mərkəzlərində, parklarda mədəni-kütləvi tədbirlərin təşkili | Mədəniyyət və Turizm Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri | İyun, 2014-cü il |





| № | Tədbirin adı | İcraya məsul təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| 15 | Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə "Naxçıvan- bəşəriyyətin beşiyi" mövzusunda II Beynəlxalq Rəsm Festivalının keçirilməsi və muxtar respublikaya həsr olunmuş rəsm əsərlərindən ibarət sərginin rəşkil edilməsi | Mədəniyyət və Turizm azirliyi, Rəssamlar Birliyi | May, 2014-cü il |
| 16 | "Naxçıvan Muxtar Respublikasının inkişafı" mövzusunda elmi konfransın keçirilməsi | Dövlət Statistika Komitəsi, AMEA-nın Naxçıvan bölməsi, ali təhsil müəssisələri | Dekabr, 2014-cü il |
| 17 | Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş zərf və poçt markalarının buraxılması | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | May, 2014-cü il |
| 18 | "Naxçıvan tarixi" çoxcildliyinin I cildinin təqdimatının keçirilməsi | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı, AMEA-nın Naxçıvan bölməsi | Fevral, 2014-cü il |
| 19 | "Naxçıvan Muxtar Respublikasının yubileyləri" kitabının, "Naxçıvan Muxtar Respublikasının təşkili: tarix və müasirlik" monoqrafiyasının, "Naxçıvan Muxtar Respublikası-90" statistik toplusunun hazırlanaraq nəşr olunması | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı, Dövlət Statistika Komitəsi, AMEA-nın Naxçıvan bölməsi | İl ərzində |
| 20 | Naxçıvana həsr olunmuş yeni müəllif mahnıları üçün yaradıcılıq müsabiqəsinin keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, Bəstəkarlar Təşkilatı | İyun, 2014-cü il |
| 21 | "Naxçıvan 1924-2014" foto albomunun hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Arxiv İdarəsi | Avqust, 2014-cü il |
| 22 | Naxçıvan teatrının və musiqi kollektivlərinin qastrol səfərlərinin təşkili | Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Dövlət Filarmoniyası, Naxçıvan Dövlət Musiqili Dram Teatrı | İl ərzində |

| № | Tədbirin adı | İcraya məsul təşkilatlar | İcra müddəti |
|---|---|---|---|
| 24 | Naxçıvanın muxtariyyət tarixi ilə bağlı tədqiqat işlərinin aparılması, gənc elmi kadrların yetişdirilməsi | AMEA-nın Naxçıvan bölməsi, Arxiv İdarəsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi | İl ərzində |
| 25 | "Naxçıvan" ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnalının bir nömrəsinin Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunması | AMEA-nın Naxçıvan bölməsi, Naxçıvan Dövlət Universiteti | Oktyabr, 2014-cü il |
| 26 | Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibəti ilə "Tarixin 90 ili", "Qars müqaviləsi və Naxçıvanın taleyi", "Şərqin parlaq günəşi" sənədli və televiziya filmlərinin hazırlanması | Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, AMEA-nın Naxçıvan bölməsi, Arxiv İdarəsi | İl ərzində |
| 27 | Muxtariyyətin 90 illiyi ilə bağlı tematik materialların hazırlanıb verilməsi, sənədli filmlərin nümayiş etdirilməsi, keçirilən tədbirlərin işıqlandırılması, muxtar respublikada dərc edilən qəzet və jurnalların Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş xüsusi nömrələrinin buraxılması | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının aid şöbəsi, kütləvi informasiya vasitələri | İl ərzində |





## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

### BEYNƏLXALQ HAVA LİMANINDA QARŞILANMA

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.

Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin önündən keçdi.

Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikası hökumətinin üzvləri ilə görüşdü.








## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.





Naxçıvan Muxtar Respublikası - 90

## PREZİDENT İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayının salonuna toplaşanlar – muxtar respublikanın hökumət nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri Prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə geniş nitq söylədi.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

– Əziz naxçıvanlılar.

Hörmətli qonaqlar.

Hörmətli səfirlər, əziz dostlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini qeyd edirik. Bu gözəl hadisə münasibətilə Naxçıvan Muxtar Respublikasının bütün sakinlərini və eyni zamanda bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvanda tarixi abidələr, dini abidələr, memarlıq abidələri, bütün toponimlər Azərbaycan xalqına məxsusdur. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır.



Naxçıvanın eyni zamanda qədim dövlətçilik tarixi vardır. Qədim Atabəylər dövlətinin mərkəzi Naxçıvan idi. Təsadüfi deyil ki, Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi. Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar idi. Ancaq bununla bərabər, o vaxt xalqımıza qarşı ədalətsizlik də edilmişdir. Çünki Azərbaycanın əzəli torpağı olan Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermişdilər. Bu, böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır. Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda





böyük türk dünyası iki yerə bölünürdü. Bu, ədalətsizlikdir, bu, sağalmayan yaradır. Ancaq mən tam əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq.

Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı.

Əfsuslar olsun ki, Heydər Əliyevin Azərbaycandan Moskvaya köçməsindən sonra bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da tənəzzül dövrü yaşanmışdı.



Əldə edilmiş bütün uğurlar tədricən tənəzzül etmiş və muxtar respublika üçün çox ağır bir dövr başlamışdır. Biz o dövrü yaxşı xatırlayırıq. 1980-ci illərin sonları Naxçıvan üçün əsl sınaq dövrü idi. Xoşbəxtlikdən yenə də ulu öndərin rəhbərliyi ilə naxçıvanlılar bu ağır sınaqdan şərəflə çıxa bilmişlər.

Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi.

Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi. O vaxt Naxçıvanda vəziyyət böyük çətinliklər hesabına sabit olaraq qalırdı. O vaxtkı Azərbaycan rəhbərliyi də

Naxçıvana ögey münasibət bəsləyirdi, heç bir yardım etmirdi, əksinə, Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi, müdrikliyini göstərərək ulu öndərin ətrafında bir yumruq kimi sıx birləşdilər və həm erməni işğalçılarına tutarlı cavab verdilər, onları yerinə oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir.

Naxçıvanda dövlət çevrilişi cəhdi də olmuşdur. Biz bunu yaxşı xatırlayırıq. Bu, yaxın tarixdir. Ancaq yenə də ulu öndərin qətiyyəti, müdrikliyi, cəsarəti, naxçıvanlıların ona olan inamı bu ağır sınaqdan çıxmaq üçün bizə imkan yaratdı. O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Naxçıvan Sovet Sosialist Muxtar Respublikası adlandırılırdı. O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Məclisi qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür. Naxçıvan bu ağır sınaqlardan çıxaraq inkişaf yoluna qədəm qoymuşdur.

Ulu öndərin Azərbaycan tarixində rolu əvəzsizdir. Şəxsiyyətlərin tarixdə rolu haqqında çoxlu kitablar, elmi əsərlər yazılmışdır. Ulu öndərin həyat və fəaliyyəti, onun siyasəti şəxsiyyətlərin tarixdə rolu haqqında kifayət qədər geniş material verir. Bu böyük şəxsiyyətin rolu o qədər əhəmiyyətli və dəyərlidir ki, bu gün müstəqil Azərbaycan dövləti ulu öndərin siyasəti, cəsarəti, uzaqgörənliyi sayəsində inkişaf edir, yaşayır.

Bizim müstəqilliyimiz ən böyük sərvətdir və hamımız yaxşı bilirik ki, XX əsrin əvvəllərində də Azərbaycan müstəqillik qazanmışdı. Ancaq biz o müstəqilliyi qoruya bilməmişdik. O müstəqilliyin ömrü müəyyən səbəblər üzündən uzun olmamışdır. Ancaq bu, reallıqdır və bundan da əlavə məhz o illərdə, müstəqillik illərində, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş qərara əsasən, bizim əzəli torpağımız olan İrəvan Ermənistana verilmişdir. Necə ki ondan bir neçə il sonra bolşevik Sovet hakimiyyəti Zəngəzuru ermənilərə vermişdir. Necə ki ötən əsrin sonlarında Qarabağ işğal altına düşmüşdür. Görün bizim xalqımız nə qədər böyük faciələr yaşamışdır. Ancaq buna baxmayaraq, xalqımızın iradəsi sınmamışdır. Buna baxmayaraq, Azərbaycan bu gün inamlı inkişaf dövrünü yaşayır. Bu gün güclü Azərbaycan bölgə üçün, region üçün sabitləşdirici rol oynayır. Mən tam əminəm ki, güclü Azərbaycan və güclənən Azərbaycan bizə öz ərazi bütövlüyümüzü bərpa etməyə və gələcəkdə bütün tarixi torpaqlarımıza qayıtmağa imkan verəcəkdir.

O illəri xatırlayarkən bir daha hamımız görürük ki, nə qədər ağır illər idi, ancaq eyni zamanda bizim qələbəmiz nə qədər şərəfli idi. Çünki bu qələbə Azərbaycan dövlətinin, Azərbaycan xalqının qələbəsi idi. Azərbaycan xalqı öz müstəqilliyini qoruya bilmişdir. Məhz ona görə ki, müstəqilliyin bünövrəsi 1990-cı illərin əvvəllərində





Naxçıvanda qoyulmuşdur. Məhz ona görə ki, 1993-cü ildə Azərbaycan xalqının xahişi ilə ulu öndər Naxçıvandan Bakıya getmiş və orada Azərbaycanı böyük bəlalardan, vətəndaş müharibəsindən qurtarmış və Azərbaycana sabitlik gətirmişdir.

1993-cü ildən başlayaraq Azərbaycanda sabitlik, sürətli inkişaf dövrü yaşanır və müstəqilliyimizin banisi Heydər Əliyevin bu uğurlarda rolu əvəzsizdir.

Naxçıvan da sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Deməli olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır.

Dünən son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm.

Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır. Bu gün bu, belədir. Gələcəkdə Naxçıvanın hərbi potensialının gücləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir. Naxçıvanın hərbi potensialı elə olmalıdır ki, istənilən təcavüzə tutarlı, layiqli cavab verə bilsin. Bu gün bu artıq reallıqdır. Gələcək illərdə görüləcək əlavə tədbirlər hesabına biz Naxçıvanda daha da böyük hərbi potensial yaradacağıq. Buna imkan vardır. Azərbaycan dövləti zəngin dövlətdir. Bildiyiniz kimi, bizim dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulur. Nə qədər ki torpaqlarımız işğal altındadır, bu, belə də olmalıdır.

Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Yəni bundan sonrakı illərdə də Naxçıvanın hərbi gücünün artırılması üçün əlavə tədbirlər görüləcəkdir.

Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır. Naxçıvan bu gün elektrik enerjisi ilə təchizat baxımından öz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilibdir.

Hətta ixrac imkanları yaranmışdır.

Biz o illəri yaxşı xatırlayırıq. 1990-cı illərin əvvəllərində mən də dəfələrlə Naxçıvana gəlirdim. Biz faktiki olaraq qaranlıq içində yaşayırdıq. Evlərdə işıq yox idi, nəinki küçələrdə. İşıq böyük fasilələrlə verilirdi. Ən böyük problem işıq idi. Qazdan, ümumiyyətlə, söhbət belə getmirdi. Ancaq bu gün Naxçıvan nəinki özünü enerji ilə tam şəkildə təmin edir, hətta ixrac edir. Ən önəmlisi ondan ibarətdir ki, Naxçıvanın daxili təminatı 100 faiz bərpa olunan enerji növləri hesabına ödənilir. Bu da, deyə bilərəm ki, dünyada çox nadir hallarda müşahidə edilən bir mənzərədir.

İndi Naxçıvanın elektrik enerjisi potensialı 220 meqavata yaxındır. Bu imkanları son illərdə tikilmiş elektrik stansiyaları yaratdı. Son illər ərzində 5 elektrik stansiyası tikilmişdir. Bu gün elektrik enerjisi ilə heç bir problem yoxdur. Nəinki bu gün,

gələcəkdə də olmayacaqdır. Çünki biz, əlbəttə, öz enerji potensialımızı elə təşkil etməliyik ki, uzun illər bundan sonra da sürətli inkişafımızı təmin etsin. Çünki heç bir inkişaf elektrik enerjisiz mümkün deyildir. Naxçıvanın artan iqtisadi potensialı, sənaye inkişafı, artan əhalisi diktə edir ki, elektrik enerjisi ilə təchizat daim yüksək səviyyədə təşkil edilsin. Yəni, bir sözlə, bu gün bu məsələ öz həllini tapıbdır.

Dünən Naxçıvanda sərgilənən yerli istehsal nümunələri ilə də tanış olmuşam. O sərgidə Naxçıvanda son illər ərzində yaradılmış müəssisələrin məhsulları nümayiş etdirilirdi. Bu da çox sevindirici haldır. Çünki yerli istehsal artır. Naxçıvanın sənaye potensialı artır, ixrac artır və Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır. Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır. Dünən mən maraqlanırdım, soruşurdum ki, vəziyyət necədir? Mənə Vasif Talıbov məlumat verdi ki, Naxçıvanın əsas ərzaq məhsulları ilə təminatı tam şəkildə təşkil edilibdir. Bu da böyük nailiyyətdir, böyük uğurdur.

İnfrastruktur layihələrinin icrası, yolların çəkilməsi, hazırda içməli su və kanalizasiya layihələrinin icrası da çox önəmli hadisədir. Yəni, bir sözlə, Naxçıvanın bütün sosial, iqtisadi, infrastruktur, hərbi məsələləri yüksək səviyyədə öz həllini tapır.

Naxçıvan gözəlləşir, abadlaşır, gözəl, müasir şəhərə çevrilir. Nəinki Naxçıvan şəhəri, digər şəhərlər də. Bütün rayon mərkəzlərində artıq müasir tibb məntəqələri vardır. Naxçıvanda ən böyük mərkəzi xəstəxana tikilir. Ondan əvvəlki dövrlərdə diaqnostika mərkəzi, Doğum Mərkəzi tikilmişdir. Yəni görülən bütün işləri sadalamaq üçün çox vaxt lazım olacaqdır, siz naxçıvanlılar bunları yaxşı bilirsiniz. Sadəcə olaraq, mən öz təəssüratlarımı, öz sevincimi ifadə etmək istəyirəm ki, bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir. Sizə, naxçıvanlılara gələcək işlərdə də yeni uğurlar arzulayıram.

Bir daha demək istəyirəm ki, bu uğurların təməlində ulu öndərin siyasəti dayanır. Biz, onun davamçıları bu siyasətə sadiqik. Artıq on bir ilə yaxındır ki, ulu öndər aramızda deyil. Ancaq onun ideyaları, siyasəti, siyasi xətti yaşayır. Azərbaycan inamla, uğurla inkişaf edir. Azərbaycan, sözün əsl mənasında, müstəqil dövlət kimi öz siyasətini aparır. Azərbaycan xalqı bu gün inkişaf edən Azərbaycanın timsalında müstəqilliyin üstünlüklərini əyani şəkildə görür. Müstəqillik ən böyük sərvətimizdir. Hətta inkişafımız olmasa idi, hətta ağır vəziyyətdə yaşasaydıq belə, yenə də azadlıq, müstəqillik hər şeydən üstündür. Ancaq biz nəinki müstəqil dövlətik, nəinki öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparırıq, biz uğurlu dövlətik. Biz böyük uğurlara imza atmışıq. Son on ilin nəticələri göz qabağındadır. Bu, statistikadır, bu, tarixdir, bu, reallıqdır. Son 10 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Cəmi 10 il ərzində iqtisadiyyat 3 dəfə artmışdır.

Bizi uzun illər incidən işsizlik kimi problem, demək olar ki, aradan qaldırılıb. Yoxsulluq səviyyəsi ən aşağı həddədir. Azərbaycan bu gün bütün iqtisadi parametrlər üzrə ən qabaqcıl ölkələrlə eyni səviyyədədir, bəzi parametrlər üzrə inkişaf etmiş ölkələri də qabaqlayır. Bizim dövlət xarici borcumuz Ümumi Daxili Məhsulun 8 faizini təşkil edir. Azərbaycanda böyük həcmdə valyuta ehtiyatları yaradılmışdır və Ümumi Daxili Məhsulumuzun 70 faizini təşkil edir. Büdcə kəsiri çox aşağı səviyyədədir. İnfrastruktur layihələrinə qoyulan vəsait bu gün ölkəmizin hər bir yerində özünü göstərir, yeni imkanlar açır. Biznes imkanları da çox yaxşıdır. Azərbaycanda liberal iqtisadiyyat





aparılır. Rəqabət qabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı dünyada 39-cu yerdədir.

Yəni aparılan islahatlar, düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik bizim uğurlarımızı şərtləndirir. Son 10 ilin inkişafı onu göstərir ki, biz, ulu öndərin davamçıları onun bütün tapşırıqlarını şərəflə yerinə yetirmişik.

Siyasi islahatlar uğurla aparılır. Azərbaycanda azad cəmiyyət formalaşıbdır. Bütün azadlıqlar mövcuddur. Siyasi fəaliyyət azadlığı, mətbuat azadlığı, internet azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı, bütün azadlıqlar vardır. Azərbaycan demokratik dövlətdir. Azərbaycan o dövlətdir ki, bu dövlətin inkişafını xalq müəyyən edir. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas istiqamətdir, əsas yolumuzdur.

Yəni bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Bu təməl tarixə, xalqımızın əsrlər boyu yaratdığı dəyərlərə söykənir. Milli ideologiyamıza söykənir ki, onun müəllifi ulu öndər Heydər Əliyevdir. Bu gün eyni zamanda bizim dövlətimiz möhkəm iqtisadi baza üzərində qurulubdur. İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir.

Azərbaycan bu gün dünya üçün çox önəmli tərəfdaşa çevrilibdir. Beynəlxalq nüfuzumuz artır. Dünya ictimaiyyəti bizi dəstəkləyir. Əgər belə olmasaydı, 155 ölkə bizə səs verməzdi. BMT Təhlükəsizlik Şurasının üzvü olmuşuq. Dünyanın ən mötəbər təşkilatı olan Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Bu il Avropa Şurasında sədrlik edəcəyik. Dünyada dostlarımızın, bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı artır. Yəni budur bizim beynəlxalq nüfuzumuz. Beynəlxalq nüfuz, iqtisadi güc, hərbi potensial, sosial məsələlərin həlli, regional inkişaf proqramlarının uğurla icra edilməsi və prinsipial siyasət.

Hər bir məsələ ilə bağlı bizim prinsipial mövqeyimiz vardır. Azərbaycan hər bir beynəlxalq hadisə ilə bağlı öz prinsipial mövqeyini ifadə edir. Bu mövqe prinsiplər üzərində qurulubdur. Beynəlxalq hüquq və ədalət – bu iki prinsip hər bir ölkə üçün ən əsas prinsip olmalıdır. Bizim üçün bu, belədir. Bu gün Azərbaycanın dünyada artan hörməti eyni zamanda bizim prinsipial mövqeyimizdən qaynaqlanır. Bizim tərəfdaşlarımız bilirlər ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

Biz gələcəyə böyük ümidlərlə, nikbinliklə baxırıq. Bizim gələcəyimiz daha da gözəl olacaqdır. Sözün düzü, hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bir daha qeyd etmək istəyirəm ki, siz bütün məsələləri – quruculuq, abadlıq işlərini, enerji təhlükəsizliyi, hərbi potensial, infrastruktur layihələrinin icrası, ərzaq təhlükəsizliyi məsələlərini həll etmisiniz. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır. Bundan sonra Azərbaycanın, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin ediləcəkdir. Bu günədək görə bilmədiyimiz işləri görəcəyik. Görüləsi işlər vardır. Ancaq deyə bilərəm ki, xalqımızı narahat edən əsas sosial və iqtisadi məsələlərin böyük əksəriyyəti öz həllini tapmışdır. Biz inamla irəliyə gedirik. İrəliyə getmək üçün bizim yolumuz açıqdır. Bu yolun təməlini ulu öndər qoymuşdur. Bir daha demək istəyirəm ki, biz bu siyasətə sadiqik. Bizim yolumuz müstəqillik, milli ləyaqət, inkişaf, tərəqqi yoludur. Bizi bu yoldan heç kim

döndərə bilməz.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə bütün naxçıvanlıları və bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm.

Eşq olsun Azərbaycan xalqına, yaşasın Naxçıvan!

* * *

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış etdi.





## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ VASİF TALIBOVUN ÇIXIŞI

– Möhtərəm cənab Prezident!

Azərbaycandakı diplomatik nümayəndəliklərin hörmətli rəhbərləri!

Yubiley tədbirinin hörmətli iştirakçıları!

90 il bundan əvvəl – 1924-cü il fevralın 9-da Azərbaycanın dövlətçilik tarixində mühüm tarixi hadisə baş verdi: Naxçıvan Muxtar Respublikası təşkil edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, bu gün Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini qeyd edirik.

Muxtariyyət bayramının yüksək dövlət səviyyəsində qeyd olunması barədə verdiyiniz Sərəncama və dövlət xadimi kimi bu yubileyi bizimlə birlikdə qeyd etdiyinizə görə Sizə Naxçıvan Muxtar Respublikasının bütün əhalisi adından dərin minnətdarlığımızı bildiririk!

Azərbaycan Prezidentinin "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 14 yanvar tarixli Sərəncamında qeyd olunur ki, "Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu, mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, ... ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır".

Sərəncamda vurğulanır ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Ümummilli liderimiz Heydər Əliyev də deyirdi ki: "Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyətdir".

Naxçıvanın muxtariyyəti asanlıqla qazanılmayıb. Beynəlxalq Qars müqaviləsi 1921-ci ildə imzalansa da, Naxçıvana 3 il sonra, 1924-cü ildə muxtariyyət verilib. Naxçıvanın muxtariyyəti çətin sınaqlardan keçərək gərgin hərbi-siyasi və diplomatik mübarizələr nəticəsində əldə olunub.

Naxçıvanın muxtariyyəti tarixi zərurət idi. 1919-cu ildə Zəngəzur mahalı Ermənistana veriləndən sonra Naxçıvan ölkənin əsas ərazisindən təcrid olunmuşdu. Regionda marağı olan böyük dövlətlər İrəvan və Zəngəzur kimi Naxçıvanı da ermənilərə güzəştə getmək istəyirdilər. Erməni yaraqlıları əhalini qorxu içərisində saxlayır, soyqırımı törədir, torpaqların boşaldılmasına çalışırdılar. Buna baxmayaraq, nə böyük dövlətlərin siyasi və diplomatik təzyiqi, nə aclıq və səfalət, nə də ermənilərin aramsız hərbi müdaxiləsi naxçıvanlıların iradəsini sındıra, Azərbaycanla bir olmaq istəyinin qarşısını ala bilmədi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında deyirdi ki, hökumət yaranmış şəraitdə Naxçıvana real yardım göstərə bilmədi: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar".

Naxçıvanlıların qanuni hüququ öz tarixi ərazisində yaşamaq, daim Azərbaycanla

bir olmaq, ana Vətəndən ayrı düşməmək idi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yaranandan sonra naxçıvanlılar dəfələrlə Azərbaycana birləşmək iradəsini ortaya qoysalar da, mövcud siyasi və beynəlxalq vəziyyət bu istəyin həyata keçməsinə imkan verməmişdi. Naxçıvan Milli Şurasının Xalq Cümhuriyyəti hökumətinə məktublarında deyilirdi: "Biz ermənilərə tabe olmuruq. Tezliklə Azərbaycan qoşunları tərəfindən Zəngəzurun tutulmasını və Azərbaycana birləşməsini gözləyirik". Başqa bir məktubda isə deyilirdi: "Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz".



Göründüyü kimi, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması bütün dövrlərdə regionda aparıcı siyasi xətt kimi qalmış, əhali tərəfindən dəstəklənmişdir.

Yaranmış şəraitdə ermənilər tərəfindən torpaqların işğalının qarşısının alınması və Azərbaycandan ayrı düşmüş regionda vahid idarəçiliyin həyata keçirilməsi üçün Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsi qabaqcıl ictimai düşüncəni məşğul edən əsas məsələ idi. O vaxt bu istiqamətdə mübarizə iki cəbhədə gedirdi. Birincisi, ermənilərə qarşı silahlı mübarizə cəbhəsi idi ki, döyüş qabiliyyəti və əlində silahı olan naxçıvanlılar bu cəbhədə birləşmişdilər. Məşhur Naxçıvan xanlarının nəslindən olan Cəfərqulu xan, Kalbalı xan və Rəhim xan yerli silahlı dəstələrə ümumi komandanlığı həyata keçirirdilər. Şərur taborunun komandanı Fətulla Hüseynov, Sədərək taborunun komandanı Həsən Şahverdi oğlu, Nehrəm taborunun komandanı Kəlbə Muxtar, Cəhri taborunun komandanı Kəlbə Kərim erməniləri geri oturda bilmiş, Vətənə xidmət nümunəsi göstərmişdilər.

Naxçıvan ziyalıları yaxşı başa düşürdülər ki, mübarizə aparmadan muxtariyyət qazanmaq mümkün deyil. Odur ki, əlində qələm tutanlar da siyasi mübarizə cəbhəsində vuruşurdular. Onlardan yazıçı-publisist Əli Səbri Qasımovun və Naxçıvanın





ləyaqətli oğlu Behbud ağa Şahtaxtinskinin adını xüsusi qeyd etmək istəyirik. Behbud ağa Şahtaxtinski Sovet Azərbaycanı hökumətinin ədliyyə naziri olmasına baxmayaraq, Naxçıvanın Ermənistana verilməsi barədə bəyanata etiraz əlaməti olaraq Naxçıvana gəlmiş, yerli əhalinin kütləvi etirazını təşkil edərək mərkəzi hakimiyyətin Ermənistanın xeyrinə qəbul etdiyi qərarın qarşısını almışdı. Sovetlər Birliyinin rəhbəri Vladimir Leninə yazdığı xüsusi məktubda o qeyd edirdi: "Naxçıvan diyarı böyük siyasi, iqtisadi və strateji əhəmiyyətə malikdir... Bu diyarın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur".



Beləliklə, Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, Türkiyə hökumətinin tutduğu ədalətli mövqe nəticəsində 1921-ci ildə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasını şərtləndirən Moskva və beynəlxalq Qars müqavilələri imzalandı. Bu sənədlər əsasında 1924-cü il fevralın 9-da Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikası təşkil olundu.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın muxtariyyət tarixinin çətin sınaqlardan keçdiyini nəzərdə tutaraq, eyni zamanda bu muxtariyyətin qazanılmasında fədakarlıq göstərənlərin əməyini yüksək qiymətləndirərək deyirdi: "Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm... Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalı və tariximizə daxil olmalıdırlar".

Ümummilli liderimiz Naxçıvanın muxtariyyətinin bütün dövrlərdə düşmən həmlələrindən qorunacağını bəyan edərək demişdir: "Naxçıvan muxtar respublikadır. Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur.

Onu heç kəs dəyişdirə bilməz".

Bu təntənəli gündə Naxçıvanın və onun muxtariyyətinin böyük hamisi, müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir, ruhu şad olsun, deyirik.

Naxçıvanın muxtariyyət statusu ötən 90 il ərzində burada inkişafın təmin olunmasına, genişmiqyaslı quruculuq tədbirlərinin aparılmasına şərait yaratmışdır. Bu inkişafı şərti olaraq 5 mərhələyə bölmək olar: 1924- 1969-cu, 1969-1987-ci, 1987-1993-cü, 1993-2003-cü illər və 2003-cü ildən sonrakı dövr.

Naxçıvanın muxtariyyət tarixinin 1924-1969-cu illəri əhatə edən dövrü olduqca ağır siyasi, sosial-iqtisadi və mədəni problemlər dövrüdür. Bu dövrün müxtəsər siyasi xarakteristikasını verən ümummilli liderimiz demişdir ki, bizim xalqımız iyirminci əsrdə çox faciələrlə rastlaşıbdır. Bunların içərisində Naxçıvanın başına gələn bəlalar, bəlkə, Azərbaycanın başqa bölgələrindən daha dəhşətli, faciəli olubdur... Naxçıvanın hüquqlarını tam məhdudlaşdırmaq istəyiblər.

Naxçıvanın hüquqlarını məhdudlaşdırmaq istəyənlər Azərbaycanın bu qədim torpağında inkişafa mane olmaq məqsədi güdürdülər. 1925-ci ilin martında guya Naxçıvanın hakimiyyət strukturlarındakı "xan-bəy elementləri"nin fəaliyyətini araşdırmaq üçün Naxçıvana xüsusi komissiya göndərilmiş, bir gecədə 50 rəhbər işçi həbs olunmuş, onlardan 48-i repressiyaya məruz qalmışdı. Bunlar o adamlar idilər ki, Naxçıvanın ermənilərdən müdafiəsində xüsusi fəallıq göstərmişdilər.

Naxçıvanın iqtisadiyyatına da ağır zərbələr vurulmuşdu. Keçmiş Sovetlər Birliyinin Dövlət Plan Komitəsində işləyən ermənilər Naxçıvanın duz yataqlarından hasilatın guya baha başa gəldiyini "əsaslandıra bilmişdilər". Nəticədə, duz istehsalı kəskin azalmış, Azərbaycan öz kimya sənayesini inkişaf etdirmək üçün başqa yerlərdən baha qiymətə duz gətirməyə məcbur olmuşdur. Ötən əsrin 50-60-cı illərində isə Arpaçayın axın istiqamətinin ermənilər tərəfindən dəyişdirilməsi Şərurun suvarma əkinçiliyinə ciddi ziyan vurmuş, kəskin su qıtlığı yaradılmışdır.

Naxçıvanın muxtariyyət tarixinin 1969-1987-ci illəri əhatə edən ikinci dövrü dirçəliş dövrüdür. Bu dövrdə böyük dövlət xadimi möhtərəm Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə doğma Azərbaycanımız, onunla birlikdə isə Naxçıvan Muxtar Respublikası da özünün əsl inkişafına qovuşmuşdur.

1969-1987-ci illərdə Naxçıvan Muxtar Respublikası qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət mərkəzinə çevrilmişdir. Naxçıvanın sənayeləşdirilməsinin əsası qoyulmuş, 21 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Naxçıvan böyük tikinti meydançasına çevrilmiş, 45 min nəfər əhalinin yaşadığı yeni massivlər salınmış, şəhər və rayonların, ucqar dağ kəndlərinin infrastruktur sahələri yenilənmiş, təhsil, səhiyyə və mədəniyyət müəssisələri tikilmiş, köhnə kəndli komalarının yerində müasir üslubda abad evlər ucaldılmışdı. Artıq 1985-ci ildə Azərbaycanda istehsal olunan daşduzun, üzlük travertinin və şüşə qablar istehsalının hamısı, mineral suların və alt trikotaj məmulatlarının əsas hissəsi, konservlərin və ipək xammalının isə 23 faizdən çoxu Naxçıvanın payına düşürdü.

Bu dövrdə süni göllərin və dəryaçaların yaradılması da Naxçıvanın xilasına hesablanmış əhəmiyyətli addımlar idi. Ulu öndərimizin səyi nəticəsində 1970-1980-ci illərdə 4 böyük su anbarı, 10-a yaxın sututar tikilib istifadəyə verilmişdir. Bu hesaba əkin





dövriyyəsinə daxil edilən torpaqlar xeyli artırılmış, kənd təsərrüfatı dinamik inkişaf yoluna çıxarılmışdı. Şuşa-Laçın-Biçənək-Naxçıvan təbii qaz xətti, Yevlax-Şuşa-Naxçıvan radio-rele xətləri çəkilmiş, yeni rabitə evləri tikilmiş, hər 3 ailədən biri telefonla təmin olunmuşdu. Energetika və nəqliyyat sahələri də inkişaf etdirilmiş, Araz çayı üzərində 22 meqavat gücə malik su elektrik stansiyası yaradılmış, bütün rayon mərkəzlərində və Naxçıvan şəhərində avtovağzallar, 1976-cı ildə isə Naxçıvan Hava Limanı tikilib istifadəyə verilmişdi. Naxçıvanda "Təbriz" mehmanxanasının tikilməsi və Babək rayonunun yaradılması ümummilli liderimizin hələ Sovetlər Birliyinin mövcud olduğu dövrdə daim Azərbaycançılıq mövqeyində dayanmasının, milli yaddaşın bərpası istiqamətində taleyüklü tədbirlər görməsinin konkret ifadəsi idi.

Naxçıvanın muxtariyyət tarixinin ikinci mərhələsində görülən tədbirlərin nəticəsidir ki, 1980-ci ilin sonuna yaxın ümumi məhsul istehsalı muxtar respublikanın təşkil edildiyi 1924-cü ilə nisbətən 180 dəfə artmışdı. Təkcə 1980-ci ilin 2 günündə 1924-cü il ərzində istehsal olunan qədər məhsul istehsal edilirdi.

1987-1993-cü illərdə ölkəmizi Heydər Əliyev yolundan döndərməyə uğursuz cəhdlər göstərildi. Nəticəsi də o oldu ki, Azərbaycan ağır vəziyyətlə üzləşdi. 20 Yanvar faciəsi baş verdi, Dağlıq Qarabağ və ətraf rayonlar işğal olundu. Ölkə iqtisadiyyatı bərbad vəziyyətə düşdü. Separatçı hərəkatlar baş qaldırdı. Azərbaycan fəlakətin bir addımlığında idi. O, siyasi xəritədən silinə bilərdi.

Eyni aqibət Naxçıvan Muxtar Respublikasını da gözləyirdi. Bu dövrün Naxçıvanı təklənmiş, taleyin ümidinə buraxılmış adanı xatırladırdı. Ermənistan tərəfindən təkcə iqtisadi blokadaya yox, həm də informasiya blokadasına salınmış Naxçıvan beynəlxalq aləmdən təcrid edilmişdi.

1990-cı ilin iyul ayında xalqımızın böyük oğlunun Moskvadan Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanı siyasi oyunlardan – ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi.

Ümummilli liderimiz 1990-1993-cü illərdə burada baş verən prosesləri xatırlayaraq deyirdi: "1990-1993-cü illərdə Naxçıvanda keçirdiyim dövr mənim həyatımda xüsusi yer tutur. O illər biz Naxçıvanın ağır dövrünü yaşadıq və Naxçıvanı böyük təhlükələrdən, böyük faciələrdən xilas etdik. O dövr böyük sınaq dövrü oldu. İnsanların öz torpağına, Vətəninə sədaqətinin sınaqdan keçməsi dövrü oldu. Biz bu sınaqdan çox böyük şərəflə çıxdıq".

Aydın məsələdir ki, ulu öndərimizin siyasi fəaliyyətinin Naxçıvan dövründə həyata keçirdiyi tədbirlər, hazırladığı siyasi sənədlər təkcə Naxçıvanın yox, eyni zamanda doğma Azərbaycanımızın da xilasına xidmət edirdi. Üçrəngli dövlət bayrağının, digər milli dövlətçilik atributlarının qəbul edilməsi, milli ordu quruculuğuna başlanılması, aqrar islahatların həyata keçirilməsi – böyük ömrün Naxçıvanda keçən 3 ili ərzində görülən bütün bu tədbirlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəlmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi.

Həmin dövrdə Heydər Əliyev quruculuq xəttini davam etdirən Naxçıvan Azərbaycanın digər əraziləri üçün bir nümunə gücündə idi. Təsadüfi deyil ki, dövlət müstəqilliyini itirmək təhlükəsi yarandıqda bütün Azərbaycan xalqı "Heydər Əliyev hakimiyyətə gəlməlidir" tələbi ilə ayağa qalxdı.

1993-cü ildə böyük dövlət xadiminin ikinci dəfə ali hakimiyyətə qayıdışı bir

tərəfdən böyük şəxsiyyətlərin tarixdə oynadıqları rolun daha bir ifadəsi idisə, digər tərəfdən xalqla milli liderin qırılmaz tellərlə bağlılığının nümunəsi idi. On ikinci əsrin görkəmli siyasətçisi Nizamül-mülk deyirdi: "Xalqın iradəsi ilə rəhbərin dühası birləşdikdə ölkə möhkəmlənər, gündən-günə inkişaf edər".

Bu fikirlərdə əks olunan lider və xalq bağlılığının klassik ifadəsi bir daha öz təsdiqini 1993-cü ildən sonrakı Azərbaycan siyasi və iqtisadi mühitində tapdı. Tarixə qurucu rəhbər kimi daxil olan ümummilli liderimizin hakimiyyətdə olduğu illərdə Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası da sabitliyə və tərəqqiyə qovuşmuş, davamlı inkişaf və əmin-amanlıq yoluna çıxmışdır. 1993-2003-cü illər ərzində muxtar respublikada sənaye məhsulunun həcmi 3 dəfə, kənd təsərrüfatında ümumi məhsul istehsalı 4 dəfə artmışdı.

Ulu öndərimizin Azərbaycan Prezidenti kimi siyasi hakimiyyəti dövründə Naxçıvan Muxtar Respublikasında 96 təhsil müəssisəsi, 38 səhiyyə, 94 mədəniyyət obyekti, 73 inzibati bina tikilmiş və ya yenidən qurulmuşdur. Bu dövrdə əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri və təbii fəlakətdən zərər çəkmiş əhali üçün 47 fərdi ev tikilmiş, 66 körpü, 74 nasos stansiyası, 386 digər infrastruktur obyektləri istifadəyə verilmişdir.

Zaman keçdikcə bu nailiyyətlər daha da artır və artacaqdır. Çünki ümummilli liderimizin yolunu layiqli davamçısı, müstəqil Azərbaycanın qüdrətli rəhbəri möhtərəm İlham Əliyev davam etdirir!

Bu gün xalqımız əmindir ki, ümummilli liderimizin siyasi kursu möhkəm əllərdədir. Bu kursu davam etdirən cənab Prezident Azərbaycanı, onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını da yaşadır və inkişaf etdirir, ölkəmizi və xalqımızı inamla daha firavan gələcəyə aparır!

Azərbaycan Prezidentinin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasının inkişafının 2003-cü ildən sonrakı dövrü milli liderimiz Heydər Əliyevin quruculuq xəttinin yaradıcı gücünün daha bir əyani ifadəsidir. Bu xəttin davam etdirilməsi blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında dinamik inkişafı təmin etmişdir.

Azərbaycan Prezidentinin təsdiq etdiyi 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının icrası paytaxt Naxçıvan şəhəri ilə yanaşı, rayonların və ucqar dağ kəndlərinin də inkişafına səbəb olmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə Ümumi Daxili Məhsul istehsalı 2003-cü ildəki göstəricini müqayisəli qiymətlərlə 8 dəfə üstələmişdir. Ötən il hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2003-cü ilə nisbətən 7 dəfə artaraq 5423 manat olmuşdur.

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2003-cü ilin sonuna muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ildə bu göstərici 7 dəfə artaraq 438-ə çatmışdır.

Görülən tədbirlər nəticəsində muxtar respublikanın enerji təhlükəsizliyi də təmin olunmuşdur. Ölkə rəhbərinin diqqət və qayğısı sayəsində 14 illik fasilədən sonra 2005-ci ildə muxtar respublikaya təbii qazın nəqli bərpa edilmişdir. Bu gün muxtar respublikanın elə bir yaşayış məntəqəsi yoxdur ki, ora təbii qaz verilməsin. Əgər Sovetlər Birliyi dövründə muxtar respublika üzrə cəmi 33 min abonentə təbii qaz verilirdisə, indi artıq 81 mindən çox abonent təbii qazla təmin olunur. Əgər 2003-cü ilə qədər muxtar respublikada 1 su elektrik stansiyası vardısa, indi 6 yeni elektrik stansiyası yaradılmışdır.





Əsas kapitala yönəldilən dövlət investisiyalarının həcmi də 2003-cü illə müqayisədə 4 dəfə artmışdır. Son 10 ildə 227 inzibati bina, mənzil təsərrüfatı üzrə 42 obyekt, 29 nasos stansiyası, 150 subartezian quyusu tikilmişdir. Kənd və qəsəbələrin də inkişafı diqqətdə saxlanmış, 104 kənd və qəsəbə mərkəzi tikilərək istifadəyə verilmişdir.

Muxtar respublikada su və kanalizasiya sistemlərinin müasir tələblər səviyyəsində qurulması istiqamətində ardıcıl tədbirlər görülmüş, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi yaradılmışdır.

Muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində də kompleks tədbirlər görülür. Son illər muxtar respublikada 725 kilometr uzunluğunda yeni avtomobil yolları salınmış, 16 körpü tikilmişdir.

Əhalinin 70 faizdən çoxunun kənddə yaşaması kənd təsərrüfatını muxtar respublika iqtisadiyyatının əsas sahələrindən birinə çevirmişdir. Məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi, torpaq istifadəçilərinin suvarma suyu, gübrə, müasir texnika və avadanlıqlarla təmin olunması torpağa bağlılığı daha da artırmışdır.

Bunun nəticəsidir ki, 2003-cü illə müqayisədə taxıl istehsalında 41 faiz, tərəvəz istehsalında 25 faiz, meyvə və giləmeyvə istehsalında 46 faiz artım əldə olunmuşdur. Tələbata uyğun olaraq, quşçuluğun və balıqçılığın inkişafı dəstəklənmiş, ötən 10 il ərzində 60 yeni quşçuluq, 11 balıqçılıq təsərrüfatı istifadəyə verilmişdir.

Hazırda muxtar respublikada 106 növdə ərzaq, 226 növdə qeyri-ərzaq məhsullarına olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Sahibkarlığın inkişafı hesabına məhsul istehsalının həcmi daha da artırılmış, Ümumi Daxili Məhsulda özəl bölmənin xüsusi çəkisi 87 faiz təşkil etmişdir. Yeni istehsal sahələrinin yaradılması hesabına məşğulluq səviyyəsi yüksəlmiş, ötən 10 il ərzində 59 min yeni iş yeri açılmışdır ki, bunun da 43 minə yaxını daimi iş yeridir.

Naxçıvan Muxtar Respublikasında informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülür. İnformasiya-kommunikasiya sahələri sürətlə inkişaf etdirilir. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmiş, Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Muxtar respublikanın yaşayış ərazilərinin 92 faizində genişzolaqlı internet, 80 faizində isə simsiz internet xidməti göstərilir. Azərbaycanın ilk peykinin orbitə buraxılması Naxçıvan Muxtar Respublikası ərazisində də keyfiyyətli yayım imkanı yaratmışdır. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" icra olunmuş, orta ümumtəhsil məktəblərində hər 14 şagirdə 1 kompüter dəsti olmaqla, 3409 kompüter, 551 elektron lövhə quraşdırılmışdır. Quraşdırılmış kompüterlərin 84 faizinin birbaşa internetə çıxışı təmin olunmuşdur.

Qeyd olunan dövrdə ümumtəhsil məktəblərinin, məktəbəqədər və məktəbdənkənar müəssisələrin tikintisinə də diqqət artırılmış, 56 min 926 şagird yerlik 142 orta məktəb binası, 17 uşaq bağçası, 17 məktəbdənkənar müəssisə, 20 uşaq musiqi məktəbi tikilərək və ya yenidən qurularaq gənc nəslin istifadəsinə verilmişdir. Məktəb tikintisində ümummilli liderimizin adını daşıyan fond da yaxından iştirak etmiş, fondun təşəbbüsü ilə 8 məktəb binası tikilmişdir.

Ali və orta ixtisas məktəbləri, elm ocaqları üçün bina və korpusların tikintisi də

davam etdirilmiş, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin institutları üçün 3 korpus yenidən qurulmuş, Batabat Astrofizika Rəsədxanası, Bioresurslar İnstitutunun Nəbatat bağı üçün inzibati binalar, Naxçıvan Dövlət Universiteti üçün 6 tədris korpusu və Elektron Kitabxana tikilmişdir.

Görülən tədbirlər nəticəsində təhsilin səviyyəsi artmışdır. Əgər 2004-cü ildə orta məktəbi bitirən məzunlardan 49 faizi ali məktəblərə sənəd vermişdirsə, 2013-cü ildə bu göstərici 77 faiz olmuşdur. 2004-cü ildə abituriyentlərin 30 faizi və ya 891 nəfəri tələbə adını qazanmışdırsa, 2013-cü ildə bu göstərici müvafiq olaraq 52 faiz və ya 1676 nəfər təşkil etmişdir. 2004-cü ildə tələbə adını qazananların yalnız 67 nəfəri qəbul imtahanlarında 500-dən yuxarı bal toplamışdırsa, 2013-cü ildə 500-dən yuxarı bal toplayanların sayı 5 dəfə artaraq 312 nəfər olmuşdur. 2004-2013-cü illərdə əldə etdiyi yüksək nailiyyətlərə görə 51 tələbə Prezident təqaüdünə layiq görülmüşdür. Məzunlarımızdan 350 nəfəri Türkiyə, Ukrayna, İngiltərə, Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa və Koreya Respublikası universitetlərinə qəbul olunaraq təhsillərini davam etdirirlər.

Ötən dövrlərdə savadlı nəslin yetişdirilməsi ilə yanaşı, əhali sağlamlığının mühafizəsi istiqamətində də tədbirlər davam etdirilmiş, 71 səhiyyə müəssisəsi tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.

Təhsil və səhiyyə ilə yanaşı, elm də inkişaf etdirilmiş, ötən dövr ərzində 149 fəlsəfə doktoru, 32 elmlər doktoru dissertasiyası müdafiə edilmişdir.

Həyata keçirilən islahatlar sosial-iqtisadi sahədə də dönüş yaratmış, əhalinin həyat şəraitinin və güzəranının yaxşılaşmasına səbəb olmuşdur. Əhali gəlirlərinin həcmi 2003-cü illə müqayisədə 2013-cü ildə 10 dəfə artmış, hər bir nəfərə düşən gəlirlərin həcmi 2003-cü ildəki 458 manata nisbətən 9 dəfə artaraq 4028 manata qalxmışdır.

Bu inkişaf əhali artımına və məskunlaşmaya da öz təsirini göstərmişdir. Son 10 ildə Naxçıvan Muxtar Respublikasının əhalisi 62 min nəfər artmış, əhalinin ümumi sayı isə 436 minə çatmışdır.

Muxtar respublikada ordu quruculuğu və müdafiə ilə bağlı tədbirlər də diqqət mərkəzindədir. Bu gün möhtərəm Prezidentimizin rəhbərliyi ilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər nəticəsində yaradılmış ordu birləşmələri etibarlı müdafiəni təmin etməklə yanaşı, işğal olunmuş torpaqların azad edilməsi barədə Ali Baş Komandanımızın bütün tapşırıqlarını yerinə yetirməyə hazırdır!

Göründüyü kimi, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bütün sahələrdə uğurlu yol keçmişdir. Bunun nəticəsini təkcə rəqəmlərdə yox, eyni zamanda real həyatda, şəhər və rayon mərkəzlərimizin, kəndlərimizin dəyişən simasında, tikilən infrastruktur obyektlərində, insanların firavanlığının, həyat şəraitinin yaxşılaşmasında görürük.

Möhtərəm cənab Prezident!

Yubiley tədbirinin hörmətli iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 90 il ərzində keçib gəldiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, tarixin sınaqlarından çıxmış ulu öndər Heydər Əliyevin yolu ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur. Bu yolu uğurla davam etdirən cənab Prezidentə minnətdarlığımızı, ehtiramımızı bildirir və Sizin dediyiniz kimi: “Ölkəmizi bundan sonra da inkişaf etdirmək və qüvvətli dövlətə çevirmək üçün ən başlıcası Azərbaycanda Heydər Əliyev yolu davam etdirilməlidir”.

Diqqətinizə görə sağ olun!





* * *

Prezident İlham Əliyevin 2014-cü il 5 aprel tarixli sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə görə muxtar respublikanın bir qrup ziyalısı müxtəlif orden və medallara, fəxri adlara layiq görülmüşdür.

Dövlətimizin başçısı həmin mükafatları sahiblərinə təqdim etdi.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə bir daha təbriklərini çatdıran Prezident İlham ƏLİYEV dedi:

– Əziz naxçıvanlılar, bu gözəl bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

Yubiley mərasiminin rəsmi hissəsindən sonra Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.

Azərbaycan Prezidenti İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, təntənəli mərasimdə iştirak edən qonaqlar konsert proqramına maraqla tamaşa etdilər.

* * *

Konsertdən sonra Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə ziyafət verildi.

Əvvəlcə Prezident İlham Əliyev yubiley mərasimində iştirak etmək üçün Naxçıvan şəhərinə gələn ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri ilə söhbət etdi.

Sonda xatirə şəkli çəkdirildi.































**Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə aşağıdakı fəxri adlar verilsin:

**"Əməkdar Elm Xadimi"**

Həsənli Oruc Qafar oğlu
Məhərrəmov Saleh Heydər oğlu

**"Əməkdar Müəllim"**

Əliyeva Lətafət Nəriman qızı
Seyidova Sevda Əli qızı
Vəliyeva Hüsniyyə Həsən qızı

**"Əməkdar Mədəniyyət İşçisi"**

Əsədova Nəzakət Əsəd qızı

**"Əməkdar Rəssam"**

Qurbanov Həsən Bulut oğlu

**"Əməkdar Həkim"**

Bayramova Tamilla Yusif qızı
Həsənov Nüsrət Firudin oğlu

**"Əməkdar Tibb İşçisi"**

Hüseynova Validə Firudin qızı

**"Əməkdar Jurnalist"**

Əliyeva Şölə Qadir qızı

**"Əməkdar Mühəndis"**

Bağırov İbrahim Süleyman oğlu.

**İlham ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

***Bakı şəhəri, 5 aprel 2014-cü il***

**Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan aşağıdakı şəxslər Naxçıvan Muxtar Respublikasının 90 illiyi münasibətilə "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Aslanov Əli Qaçay oğlu
Baxşəliyev Vəli Baxşəli oğlu
Eyvazov Həsənəli Cahangir oğlu
Eyvazov Məmmədəli Əhməd oğlu
Əliyev Asim Yediyar oğlu
Həsənov Əsgər İbrahim oğlu
Quliyev Musa Rəhim oğlu
Məmmədov Rafiq Ağəli oğlu
Novruzov Namiq Yaqub oğlu
Sadiqov İlqar Beytulla oğlu.

**İlham ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 5 aprel 2014-cü il***





**PREZİDENT İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ BAŞA ÇATMIŞDIR**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri aprelin 9-da başa çatmışdır.

Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yola saldı.

Dövlətimizin başçısı Naxçıvandan İran İslam Respublikasına yola düşdü.









## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİ İLƏ KEÇİRİLƏN ZİRVƏ TƏDBİRİNDƏ İŞTİRAK EDƏN DİPLOMATİK KORPUS NÜMAYƏNDƏLƏRİNİN SİYAHISI

| S № | Ölkə | Adı, soyadı | Vəzifəsi |
|---|---|---|---|
| 1 | Liviya | cənab Abdalrzak Şakahi | Müvəqqəti işlər vəkili |
| 2 | | xanım Şarifa Şakahi | |
| 3 | Özbəkistan | cənab Şerzod Fayziyev | Səfir |
| 4 | | xanım Sevara Fayziyeva | |
| 5 | Hindistan | cənab Vinod Kumar | Səfir |
| 6 | | xanım Kalyani Kumar | |
| 7 | Yunanıstan | cənab Dimitrios Tsounqas | Səfir |
| 8 | Bolqarıstan | xanım Maya Xristova | Səfir |
| 9 | Latviya | cənab Hardiys Baumanis | Səfir |
| 10 | Gürcüstan | cənab Teymuraz Şaraşenidze | Səfir |
| 11 | | xanım Nunu Napetvaridze | |
| 12 | Rumıniya | cənab Daniel Kristion Çiobanu | Səfir |
| 13 | | xanım Lyuminita Çiobanu | |
| 14 | Qırğızıstan | cənab Ayciqit Buranov | Müvəqqəti işlər vəkili |
| 15 | | xanım Nargiz Buranova | |
| 16 | ABŞ | cənab Riçard Morninqstar | Səfir |
| 17 | | xanım Feyt Morninqstar | |
| 18 | Almaniya | cənab Haydrun Tempel | Səfir |
| 19 | Koreya | xanım Ça Çanq Sun | Müvəqqəti işlər vəkili |
| 20 | | cənab Ço Çul Sun | |
| 21 | Pakistan | cənab Xalid Usman Qayser | Səfir |
| 22 | BƏƏ | cənab Omar Əlzaruni | Müvəqqəti işlər vəkili |
| 23 | Sudan | cənab Mohamed Elias əl-Haq | Səfir |
| 24 | | xanım Maqda Mahdi Abdelmoneym | |
| 25 | Küveyt | cənab Sultan əl-Aradah | Müvəqqəti işlər vəkili |
| 26 | | xanım Ratih Noroyono | |
| 27 | Tacikistan | cənab Zohir Saidov | Səfir |
| 28 | | Xanım Niyolbi Saidova | |
| 29 | Qətər | cənab Ali Abdulla əl-Tamimi | Müvəqqəti işlər vəkili |





| S № | Ölkəsi | Adı, soyadı | Vəzifəsi |
|---|---|---|---|
| 30 | Kolumbiya | cənab Assad Xose Xater Pena | Müvəqqəti işlər vəkili |
| 31 | İndoneziya | cənab Prayono Atiyanto | Səfir |
| 32 | | xanım Taryanti Devi Yulita | |
| 33 | Türkmənistan | cənab Toyli Komekov | Səfir |
| 34 | Belçika | xanım Karen Petit | Səfir |
| 35 | | cənab Alayn Vendendayle | |
| 36 | İraq | cənab Heydər Şiyə Qubeyşi Əl-Barrak | Səfir |
| 37 | Mərakeş | cənab Həsən Hami | Səfir |
| 38 | Niderland | cənab Robert Jan Qabrielsen | Səfir |
| 39 | | xanım Urska Cehner | |
| 40 | Qazaxıstan | cənab Amangeldi Jumabayev | Səfir |
| 41 | Makedoniya | cənab Qoran Stoyev | Müvəqqəti işlər vəkili |
| 42 | Belarus | cənab Nikolay Patskevic | Səfir |
| 43 | Argentina | cənab Karlos Dante Riva | Səfir |
| 44 | | xanım Marta Roza de Quyessada | |
| 45 | Norveç | cənab Erlinq Şönsberq | Səfir |
| 46 | | xanım Astrid Şinitzer-Şönsberq | |
| 47 | Polşa | cənab Mixal Labenda | Səfir |
| 48 | Misir | cənab Haytham Qalal | Müvəqqəti işlər vəkili |
| 49 | Çexiya | cənab Vitezslav Pivonka | Səfir |
| 50 | | xanım Monika Pivonkova | |
| 51 | Fələstin | cənab Nəssir Əbdül Kərim Əbdül Rəhim | Səfir |
| 52 | İsveç | cənab Tomas Danestad | Müvəqqəti işlər vəkili |
| 53 | Yaponiya | cənab Tsuquo Takahaşi | Səfir |
| 54 | Macarıstan | xanım Jolt Çutora | Səfir |
| 55 | | xanım Monika Jekus | |
| 56 | İsveçrə | cənab Paskal Abişer | Səfir |
| 57 | İtaliya | cənab Ciampaolo Kutillo | Səfir |
| 58 | | xanım Elizabetta Salvatori | |
| 59 | Türkiyə | cənab Alper Coşqun | Səfir |
| 60 | Kuba | cənab Omar Senon Medina Kintero | Səfir |
| 61 | | xanım Esperanza Kirina Qarmendiya Pena | |

| S № | Ölkəsi | Adı, soyadı | Vəzifəsi |
|---|---|---|---|
| 62 | Avstriya | xanım Silvia Mayer-Kaybiç | Səfir |
| 63 | Fransa | cənab Paskal Mönye | Səfir |
| 64 | Böyük Britaniya | cənab İrfan Siddiq | Səfir |
| 65 | Səudiyyə Ərəbistanı | cənab Musaid bin İbrahim bin Abdullah əl-Səlim | Səfir |
| 66 | İran | cənab Davud Çarmi | Müvəqqəti işlər vəkili |
| 67 | | xanım Debra Nadler-Bruk | |
| 68 | Rusiya | cənab Vladimir Doroxin | Səfir |
| 69 | İsrail | cənab Rafael Harpaz | Səfir |
| 70 | | xanım Şulamit Harpaz | |
| 71 | Litva | xanım Şarune Kubilyute | Müvəqqəti işlər vəkili |
| 72 | Xorvatiya | xanım Neda Milişiç | Müvəqqəti işlər vəkili |
| 73 | BMT | cənab Antonius Bruk | Rezident əlaqələndirici |
| 74 | ATƏT | cənab Aleksis Şahtaxtinski | Layihə əlaqələndiricisi |
| 75 | Avropa Şurası | xanım Draqan Filipoviç | Rəhbər |
| 76 | Avropa İttifaqı | xanım Anna Malena Mard | Rəhbər |
| 77 | Asiya İnkişaf Bankı | cənab Olli Noroyono | Başçı |
| 78 | BMqT | cənab Serhan Aktoprak | Rəhbər əvəzi |
| 79 | Beynəlxalq Qızıl Xaç Komitəsi | xanım Denise Duran | Başçı |
| 80 | Türkiyə | Əli Rza Akıncı | Baş konsul |
| 81 | İran | Məhəmmədtağı Məhəmmədəli | Baş konsul |





## MÜNDƏRİCAT

**Naxçıvan Muxtar Respublikası 75**


Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ____ 6

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ____ 11

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı ____ 12

Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ____ 19

Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi ilə əlaqədar keçiriləcək tədbirlər planı ____ 25

Azərbaycan Prezidenti Heydər Əliyev Naxçıvana gəlmişdir ____ 27

Azərbaycan Respublikasının Prezidenti Şəhidlər xiyabanını ziyarət etmişdir ____ 33

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Əcəmi seyrəngahına gəlmişdir ____ 35

Muxtar respublikanın bayramı bütün Azərbaycan xalqının, müstəqil Azərbaycan dövlətinin bayramıdır ____ 40

Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 75 illiyinə həsr edilmiş təntənəli yubiley iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi ____ 42

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun məruzəsi ____ 59

Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət və ədəbiyyat xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanı ____ 72

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır ____ 73

Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkə səfirlərinin siyahısı ____ 75


**Naxçıvan Muxtar Respublikası 80**


Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ____ 78

Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinə həsr olunmuş tədbirlər planı ____ 79

Naxçıvan Hava Limanında qarşılanma ____ 81

Prezident İlham Əliyev Naxçıvanda Şəhidlər Xiyabanını və ümummilli liderimiz Heydər Əliyevin büstünü ziyarət etmişdir ____ 83

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş mərasimdə iştirak etmişdir ____ 85

Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyi münasibətilə təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi ____ 86

Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı ____ 92

Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ____ 109

Prezident İlham Əliyevin Naxçıvana səfəri başa çatmışdır ____ 110

Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici ölkə səfirlərinin siyahısı ____ 111

**Naxçıvan Muxtar Respublikası 85**

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ____ 114

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevə ____ 115

«Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ____ 117

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı ____ 118

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri. Hava limanında qarşılanma ____ 120

Ulu öndərin abidəsini ziyarət ____ 122

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir ____ 124

Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevin nitqi ____ 125

Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının 85 illik yubileyi münasibəti ilə keçirilən təntənəli yığıncaqda muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı ____ 131





Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında ____ 141

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında ____ 142

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı S.İ.Kəngərliyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında ____ 143

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı T.Y.Rzayevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında ____ 144

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı E.R.Uçarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında ____ 145

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır ____ 146

Naxçıvan Muxtar Respublikasınını 85 illik yubileyi ilə əlaqədar muxtar respublikaya gəlmiş dövlət rəsmilərinin siyahısı ____ 149

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi ilə əlaqədar muxtar respublikaya gəlmiş elm xadimləri və ziyalıların siyahısı ____ 154

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi ilə əlaqədar muxtar respublikaya gəlmiş diplomatik korpus nümayəndələrinin siyahısı ____ 158

**Naxçıvan Muxtar Respublikası 90**

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ____ 162

Azərbaycan Respublikası Prezidenti zati-aliləri İlham Əliyevə ____ 163

"Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ____ 166

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı ____ 167

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri Beynəlxalq hava limanında qarşılanma ____ 171

Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ____ 173

Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir ____ 175

Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi ____ 176

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı ____ 183

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ____ 199

Naxçıvan Muxtar Respublikasının sosial və iqtisadi inkişafında xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ____ 200

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır ____ 201

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibəti ilə keçirilən zirvə tədbirində iştirak edən səfirlərin siyahısı ____ 204

AZƏRBAYCAN RESPUBLİKASI

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
YUBİLEYLƏRİ

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisi**

Naxçıvan, "Əcəmi"
053-2014

Yığıma verilmiş və səhifələnmişdir 01.04.2014.
Çapa imzalanmışdır 14.11.2014.
Şərti çap vərəqi 26,5. Formatı 70x100 1/8.
Sifarişlə. Tiraj 500.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.

10 m

Ar 2014/1919
101246